**Aqşin Əliyev**

# ASTARA TARİXİ MEMARLIQ VƏ ARXEOLOJİ ABİDƏLƏRİ

**Bakı 2021**

**Elmi redaktor:**

Fəxrəddin Hüseyn: Tarix üzrə fəlsəfə doktoru, dosent:

Aqşin Böyükağa oğlu Əliyev
Astara tarixi memarlıq abidələri.,Bakı, 2021, 154 səh.

Astara rayonunun abidələrini əhatə edən və bu sahədə işıq üzü görən ilk kitablardandır. Kitab elmi - informativ,fakt və məlumaların zənginliyi, məzununun mükəmməliyi baxımından diqqət çəkir. Burada cənub bölgəsinə daxil olan Astara rayonunun tarixini, arxeoloji və memarlıq abidələrini - mağaraları, yaşayış yerlərini, qalalrı, kurqanları, nekropolları, qədim qəbiristanlıqları,məscidləri, hüseyniyyələri, ziyarətgahları, məqbərələri, pirləri ocaqları, ləmləri, qədim hamamları, dəyirmanları və bulaqları əks etdirən məlumatlar,rayon haqda ümumi ensiklopedik məlumatlar və abidələrin fotoşəkilləri verilir.Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**İSBN 978-9953-38-380-0**

## Ön söz

Azərbaycan mustəqillik qazanandan sonra ədəbiyyat sahəsində də çiçəklənmə dövru başladı. Sovet dövründə üzümuzə bağlanan milli arxivlərimiz acıldı. Zaman, indi vətəndaşlıq borcuna yeni gözlə baxdığı kimi olub keçənlərədə ədalət və insaf işığında nəzər salmağı bizdən tələb edir. Məhz belə bir dövrdə kitabın muəllifi olan Aqşin Əliyev bölgədəkil tarixi-etnoqrafik abidələrin elmi təhlilini vermək şərtilə, sənədlər əsasında oxucuya təqdim etmişdir.Hər kəs bilməlidir ki, vətən borcu müqəddəs bir borcdur. Dünyadan ən böyük eşq vətən eşqidir. Aqşin Əliyev çırpınır və o gözəl tarixçi və tədqiqatçıdır. O, yurdumuzu gəzərək qədim abidələri tədqiqi edir. Belə ki, Aqşin Əliyev “Bobogil qəbir daşları”, “Sığon qəbirstanlığı”,“Lənkəran qalasının alınması”, “Lənkərgünan, Lənkəran yoxsa Lankon”, “Babər qalası”, “Şağlakücə İmamzadə türbəsi”, “Şağlakücə Seyidəpir ocağı”, “Haftoni kurqanları”, “Cəngəmiran daş-qutu qəbirləri”, “Orand daş-qutu qəbirləri”, “Osakücə Mir Şərif ağa ocağı”, ”Kurqanlar danışır” adlı elmi publisistik məqalələri və “öz doğma kəndinə həsr etdiyi “Bataqlıqdan Başlayan Həyat və ya Ləj Kəndinin Tarixi” adlı kitabın və “Haftoni və ya Qəlbimdəki Yeddi Bulaq “ adlı kitabın müəllifidir. O, zaman-zaman çoxlu elmi-publisitik məqalələr və yazaraq cənub bölgəsinin qədim abidələrini araşdırıb üzə çıxarmışdır. Qeyd etmək istəyirəm ki, bu böyük missiyanı öz üzərinə götürdüyünə görə Aqşin Əliyevə işlərində uğurlar arzuluyuruq.

# ASTARA RAYONU

Astara- 1930-cu ildə yaradılmışdır.




| | |
|---|---|
| Status: | Rayon |
| Daxildir: | Lənkəran-Astara |
| Tərkibinə daxildir: | |
| Əhali | 105 200 |
| Sahəsi: | 616. 4 km² |
| Telefon kodu: | 994 25 |
| Poçt indeksi:<br>Hündürlüyü:<br>Nəqliyyatkodu: | AZ 0700<br>534 metr<br>07 |

[astara-ih. gov. az Rəsmi sayt]

*Tarixi.Azərbaycanın İranla sərhəddində (bir hissəsİran Azərbaycanı ərazisindədir), Astaraçayın mənsəbində, Xəzər dənizinin sahilindədir, Lənkəran ovalığındadır. Astarasözü yerli Talış dilində və həmçinin digər İran dillərində "ulduz" mənasını verir. XIII əsrə aid mənbələrdə Astara yaşayış məntəqəsi adı kimi xatırlanır. Astara çayının İran sahilində yerləşən şəhər və port da Astara adlanır.Bu şəhərin qədim adı Qum olmuşdur. Fars dilində "qum" sözü də "alçaq yer, "aşağı yer" kimi izahedilir.*

*Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal edildiyi dövrdə*




**Qədim tarix.** Qədim dünyanın görkəmli riyaziyyatçısı,astronomu və coğrafiyaşünası İsgəndəriyyəli Klavdi Ptolomey eramızın 90-160-cı illərində yaşayaraq qədim tədqiqatçılardan biri olmuş və II – əsrə aid Xəzər dənizinin xəritəsini tərtib etmişdir.O, Xəzərin cınub-qərb sahillərində yerləşən coğrafi adlar,obyektlər və yaşayış məntəqələri barədə ümumi qayda ilə dəqiq məlumat vermişdir. K. Ptolomey bu xəritədə Albaniyanın ona məlum olan bir çox şəhər və kəndlərin adlarını çəkmiş və Astaranın adı yunanca "Astarata" kimi qeyd olunmuşdur.Bundan əlavə qədim dünyanın digər alimi Strabon özünün "Tarixi hadisələr" barədəki qeydlərində "Astara" adının olmasını göstərərək, "dənizin ləpələrinin dağların ətəklərini yuması və öpməsi" barədə fikirlər söyləmişdir.İngilis taciri Antoni Cenkinson İniltərə ilə Buxara arasında ticarət əlaqələrini yaratmaq məqsədi ilə 1559-cu ildə Xəzər dənizi sahillərində olmuşdur.1562-ci ildə Londona qayıdaraq öz səfərləri haqqında "Rusiya-Tatarıstan təsviri" adlı əsərini nəşr etdirmiş və həmin əsərdə dərc edilmiş xatirədə Xəzər dənizi ətrafındakı yaşayış məntəqələrinin adlarını vermişdir. O, bu xatirədə Astaranın yunanca "Stara" kimi göstərmişdir.Astara bir qədim yaşayış məntəqəsi olmaqla yanaşı tarixi İpək yolu onun ərazisindən keçmiş,Orta,Ön,Kiçik Asiya,İran Hindistan və Ərəb dünyası ilə geniş əlaqələr qurulmuşdur.Astara şəhərinin cənub – qərb hissəsində yerləşən Qapıçıməhəllə kəndinin ərazisində Astara çayının kənarında çox qədim tarixə malik olmaqla karvansara mövcud olmuşdur.Həmin karvansaranın qalıqları aşkar edilmiş və onun VII əsrə aid olması müəyyən olunmuşdur. Müxtəlif Şərq ölkələrini, eləcə də Azərbaycanı gəzib dolaşmış Alman səyyahı Hans Şilberqer (1394-1427) Astaranın

beynəlxalq ticarət əlaqələri barədə konkret məlumat vermişdir. Səyyah qeyd etmişdir ki,Astarada çoxlu ipək istehsal olunur və bu ipəyin ən yaxşı növü Dəməşq,Bursa,Kaşan və Venesiya kimi sənətkarlar mərkəzlərinə ixrac olunur.Bu yerlərdə həmin ipəkdən yaxşı məxmər parçalar toxunur.Orta əsrlərdə Astaranın əyalət paytaxtı,dini, mədəni və ticarət mərkəzi olması barədə məlumatlar da maraqlıdır.Astara şəhərində dulusçuluq və saxsı bişirmə mədəniyyəti də geniş inkişaf etmişdir.Hələ XIII əsrin axırları,XIV əsrin əvvələrində Astaranın Maşxan məntəqəsində pul sikkə zərbxanası mövcud olmuşdur.Rus alimi A.M.Markov Dərbənd, Şamaxı və Təbriz,eyni zamanda Astarada zərb olunan sikkə pullarını dərindən öyrənərək öz əsərlərində bu barədə geniş məlumatlar vermişdir.Alim sübut etmişdir ki,pulların üzərində adları yazılan şəhərlər,xüsusən də Astara şəhəri elə indiki Astara şəhəridir.Müxtəlif dövrlərdə hökmranlıq etmiş hülakilər,cəlarilər, teymurilər,onların varisləri və başqaları Astara zərbxanasında pul kəsmişlər.Əmir Teymurun və ondan sonrakı dövrlərdə üzərində "Zərbe Astara"(Astarada zərb olunmuşdur) sözləri yazılan sikkələr bilavasitə bizim Astarada zərb olunan pullar olmuşdur.Bunu Avropa alimləri də öz əsərlərində sübut etmişlər.Hazırda həmin sikkələrin 16 nümunəsi Tacikistan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda mühafizə edilir.Astara 1747-ci ilə kimi Talış mahalının paytaxtı olmuş,sonralar Astara hakimi Qaraxan xanlığın paytaxtını Astaradan Lənkərana köçürmüşdür. Paytaxt Lənkərana köçürülərkən bir çox mühüm qədim tikinti və memarlıq obyektləri,istehkamları da söküntüyə məruz qalmışdır. Dövrün tanınmış alimlərindən biri olmuş məşhur alman səyyahı Adam Oleari (1599-1671)Astarada olmuş, astaralılar barədə müəyyən maraqlı məlumatlar vermişdir.1638-ci ildə Novruz bayramı vaxtı Astarada olan səyyah yazır ki, Astara vilayəti Xəzər dənizi sahilində yerləşir.Burada adam yoğunluğunda üzüm tənəkləri vardır.Bu faktı vaxtı ilə qədim

tarixçi Strabon da xəbər vermişdir.Strabonun verdiyi bu xəbərə görə o vaxtlar Hikaniya adlanan bu yerlərdə bir kiçik tənək bir səbət üzüm verərmiş.Bütün bunlar Astara torpaqlarının yüksək məhsuldarlığa malik olduğuna sübutdur.Astara talışları(1933) tanınmış Macar şərqşünas və səyyahı Armin Vanberinin(1832-1913)1885-ci ildə Budapeştdə nəşr etdirdiyi "Türk elləri" adlı kitabın böyük bir fəsli Azərbaycana həsr olunmuş,Astarada gəzib dolaşdığını bildirmiş, burada yaşayan xalqın gözəl folklor nümunələrinə malik olmasını qeyd etmişdir.Tanınmış fransız alimi, arxeloqu və səyyahı Jak De Morqan(1856-1934) Astarada olmuş,bu torpağın yeraltı və yerüstü sərvətlərinə heyranlığını gizlətməmiş və Astara haqqında belə yazmışdır: "Astara qədim rus şəhəridir. İranla-Azərbaycan arasında gömrükxana rolunu oynayır, həm də özünün keçmiş xüsusiyyətlərini saxlayır. İndi isə sadəcə gömrükxanadır.Hazırda Astara Azərbaycandan Ərdəbil–İrana karvanların və dənizdən yolların gəmilərin çıxış məskənidir. "Məşhur fransız səyyahı,yazıçı Aleksandr Düma da Astara haqqında maraqlı məlumatlar vermişdir.Astara rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuşdur,4 yanvar 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna birləşdirilmiş,6 yanvar 1965-ci ildə ayrılaraq yenidən müstəqil rayon olmuşdur.Tarixi faktlar təsdiq edir ki,Astara şəhəri Azərbaycanın Talış mahalının qədim və inkişaf etmiş məntəqələrindən biri olmuşdur.Astara şəhərinin adı qədim düya alimlərinin kitablarında, səyyahların qeydlərində, coğrafiyaşünasların xatirələrində öz əksini tapmış,bu məntəqə barədə müəyyən maraqlı məlumatlar verilmişdir.

***Mədəniyyət, təhsil və səhiyyə müəssisələri***.Rayonda 8 məktəbəqədər uşaq müəssisəsi,62 kitabxana,28 klub,5 mədəniyyət evi, 25 kinoqurğu biri rus dilli olmaqla 63 məktəb fəaliyyət göstərir,62 məktəbdə 1-ci sinifdən 4-cü sinfə qədər həftədə 2 saat talış dili dərsləri keçirilir.

***Memarlıq abidələri.*** Astara rayonunun çox qədim tarixə malik olan daşınmaz tarix və mədəniyyət abidələri vardır.Bu qədim tarixə malik olan maddi–mədəniyyət nümunələri haqqında çoxlu əfsanələr,rəvayətlər yaranmış,xalqın inancında və yaddaşında indi də qalmaqdadır.Həmin abidələrdən 102 ədədi Respublika Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası ərazisində Dövlət Mühafizəsinə götürülmüş daşınmaz tarix və Mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü"nə daxil edilib uçota alınmış və rəsmi inventar nömrəsi verilmişdir.Dərəcəsinə görə həmin abidələrdən ölkə əhəmiyyətli 26 arxeloji,yerli əhəmiyyətli 48 memarlıq abidəsi,2 ədəd bağ park monumental xatirə abidəsi,21 yerli əhəmiyyətli arxeloji abidə,5 ədəd dekorativ tətbiqi sənət nümunəsi,xalq daş heykəltaraşlıq nümunəsinə ayrılmışdır.Bu abidələrdən ən qədim nümunələri olan e. ə. II minilliyin sonu I minilliyin əvəllərinə aid olan Əzərrüd kəndindəki "Daş qutu nekropolu",Miki kəndindəki "Miki dolmen nekropolu",bizim e.ə. V-I əsrlərə aid Rıvadila kəndindəki "Xolobin daş qutu nekropolu", tunc və antik dövrə aid Siyaku kəndindəki I və II – Siyaku yaşayış yerləri,tunc dövrünə aid "Baba Cabbar kurqanı", "Təngərüd kurqanı","Seyidcamal kurqanı","Vaqu" kurqanları, "Baba Hümmət kurqanı", "Bi yaylağı kurqanı"4 ədəd Siyakü kurqanları,Artupa kəndindəki Axi-Cəbəl kurqanı, Alaşa kəndindəki 3 ədəd kurqan, Lovayn kurqanı, Binabəy kəndindəki "Binəbəy kurqanları", dəmir dövrünə aid Koraoba kəndindəki" Koraoba daş qutu nekropolu" və s. göstərmək olar.Rayonun İranla sərhəd kəndləri olan və hazırda əhali yaşamayan Anbaran,Baxçalar, Armudu,Çayağzı,Unuz,Təngöv,Növüştərü,Dilmədi,Siyov və başqa qədim yaşayış məntəqələrində yüzlərlə arxeloji cəhətdən tədqiq olunmamış maddi mədəniyyət nümunələri vardır.Astara

rayonunda ən maraqlı abidə hazırda Tarix – Diyarşünaslıq muzeyində saxlanılan daş insan heykəlidir.Bu daş heykəlin 2000 ildən çox yaşı olması barədə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət institutunun mütəxəsisləri muzeyə rəsmi rəy təqdim etmişlər.Astara rayon Tarix – Diyarşünaslıq muzeyində 8 mindən çox eksponat vardır. Muzeydə daş,dəmir,tunc dövrlərinə aid eksponatlara rast gəlmək olar.Əsasən IX – XII əsrlərə aid mis sikkələr Şirvanşahlara, Abbasi xəlifələrinə aid digər sikkələr muzeyin bəzəyidir.Daş parçası üzərində Maral təsvirinin 2000 – 3500 il yaşı vardır. Astara memarlıq abidələri ilə zəngindir.Bunlardan Şahağac kəndindəki XII–əsrə aid türbə,Burzubənd kəndindəki Şeyx Məhəmməd Zalani türbəsi diqqəti cəlb edir.Şindan qalası Bio kəndi yaxınlığındakı Qala-Kafu,Alaşa kəndinin qərbində yerləşən Divonkə qalası,Təngərüd kəndindəki Yekdəst qalası, Hamuşam kəndində gəlin qayaları mədəni irsimizdən qalan yadigarlardandır.Şindan qalası və Qala – Kafu Astaranın dağlıq ərazisinin ən uca zirvəsində yerləşir.Şindan qalası daş və kərpicdən hörülmüşdür.Qalaya şimal tərəfdən ancaq bir yol vardır. Gözətçi və sərkərdənin müşahidəsi üçün düzəldilmiş xüsüsi yerlər maraq doğurur.Qalanın dəniz səviyyəsindən 2000 metrə yüksəklikdə olması onun yadelli işğalçılardan mühafizə məqsədi ilə tikildiyini söyləməyə əsas verir.Yerli xalqda olan inanca görə şindan qalası Babəkin qalalarından biridir.Ona görə də bu gün Astarada "Şindan" qalasının adı ilə bağlı mehmanxana, ticarət mərkəzi, rəqs qrupu, musiqi ansamblı,el aşığı qrupu və s. vardır.Azərbaycanın qədim guşələrindən biri kimi Astara əsrlər boyu müharibə meydanı olmuşdur.Heç də təsadüfi deyildir ki, 1638-ci ildə Astarada olmuş məşhur alman səyyahı Adam Oleari yazırdı:"Astaralılar həmişə silahı hazır saxlayırlar".Rayonun Ərçivan kəndində 1499-cu ildə əsası qoyulmuş Məhəmməd Hənəfiyyə məscidi Şah İsmayıl Xətai

tərəfindən ziyarət edilmişdir.Həmin kənddə XIX əsrə aid Kərbəlayi Həmid Abdulla hamamı,Pensər kəndində Məşədi Abutalıb hamamı,Hacı Teymur və Hacı Canbaxış məscidləri diqqəti cəlb edir.Astarada IX-XIII əsrlərin yadigarı,Azərbaycan xalqının qədim mədəniyyətini və tarixini özündə əks etdirən Şeyx Məhəmməd Zalani,Şeyx Məhəmməd Dilimi, Şeyx Nəsrullah,Baba Rəsul,Baba Cəbrayıl,Baba Misi,Baba Məhəmməd, Seyid Camal,Sultan Əhməd İbn Kərim,Seyid Kərim,Qırx Övliya,Xudavənd Xatun,Gəzəndaş və başqa onlarla ziyəratgahlar,pirlər,ocaqlar vardır.Maşxan kəndindəki Seymd Əhmədin məzar daşının XIV əsrə aid olması tanınmış tarixçi Məşədi Xanım Nemətova tərəfindən 1956-cı ildə tədqiq edilmişdir.O, məzar daşının üzərində bu ifadələrin yazılmasını müəyyən etmişdir. "Fələyin dərzisi elə bir köynək tikməmişdir ki, onu hamı axıra qədər geyə bilsin".

## Əhalisi.

| **Etnik qrup** | **17-23 yanvar, 1939-cu il** | |
|---|---|---|
| | Sayı | |
| **cəmi** | 1 388 | 100. 00% |
| **azərbaycanlı** | 740 | 53. 31% |
| **rus** | 423 | 30. 48% |
| **Talış** | 167 | 12. 03% |
| **ukraynalı** | 15 | 1. 08% |
| **Erməni** | 11 | 0. 79% |
| **Alman** | 7 | 0. 50% |

| | | |
|---|---|---|
| **Gürcü** | 5 | 0. 36% |
| **Yəhudi** | 3 | 0. 22% |
| **Ləzgi** | 2 | 14% |
| **Avar** | 2 | 14% |
| **digər** | 13 | 94% |
| | | |

1979-cu ildə 11, 950 ( Президиум Верховного Совета Азербайджанского ССР."Азер¬бай-джанская ССР,Административно-территориальное деление на 1 января 1961-го года". Азербайджанское государ-ственное издательство, Баку,1961,стр.8) nəfər əhalisi olan şəhər əhalisi 2009-cu il siyahıyaalmasına əsasən 16, 515(Ethno-Caucasus, Этнодемография Кавказа: Население Астаринского района (по переписи 1939 года) nəfərdir. Etnik quruluşuna görə azərbaycanlılardan(əsasən Talış,qismən

***Yerli media.*** *Rayonun ictimai-siyasi qəzeti olan "Astara" 1932-ci ildən nəşr olunur. Hazırda qəzetin təsisçiləri Astara Rayon İcra Hakimiyyəti və redaksiyanın əmək kollektividir. Qəzetin baş redaktoru Sakitağa Kərimovdur. Qəzet Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində lisenziya almışdır. Qəzet ayda 2 dəfə nəşr olunur. Tirajı 500 nüsxədir.Azərbaycan Yazıçılar Birliyinin jurnalı olan "Alov" 2000-ci ildən nəşr olunur və rayonda yalılır. Jurnalın baş redaktoru Yazıçılar Birliyinin üzvü, Astara rayonunun Şuvi kənd sakini Tarif Əsgərdir. Jurnal vaxtaşırı 500-ə qədər tirajla nəşr olunur.*

türklərdən)(Encyclopaedia İranica:Astara a town and a district in the Ṭāleš region on the Caspian coast) ibarətdir.

**Coğrafiya.** Şimalda Lənkəran və Lerik rayonları, cənubda İran İslam Respublikası, qərbdə İran İslam Respublikası və Talış dağları, şərqdə Xəzər dənizi həmsərhəddir.*(Bax: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: Astara rayonu)*

**Relyefi.**Qərbdə dağlıq(Talış silsilələri), şimal-şərqdə düzənlikdir (Lənkəran ovalığı).Dağlıq hissədə bəzi zirvələrin hündürlüyü 2000 m-ə yaxındır.Xəzər sahilində dar zolaqda Antropogen, dağlıq və dağətəyi yerlərdə isə Paleogen çöküntüləri yayılmışdır. Mineral bulaqlar (Ağ körpü,İstisu,Sım,Bi, Toradi,Şeyx Nəsrullah bulaqları və s)var.Ərazidən Təngərud çayı,İran İslam Respublikası ilə dövlət sərhədi boyu isə Astara çayı axır.Qleyli-podzollu sarı, qonur dağ-meşə, çimli dağ-çəmən və s. tipli torpaqlar yayılmışdır.Rayon ərazisinin çox hissəsi(37,4 min ha) meşələrlə örtülüdür.Burada relikt şabalıdyarpaq palıd, dəmirağac,ipək akasiya,azat,həmçinin palıd,vələs,fıstıq,qoz, qızılgöz, cökə və s.bitir.Hirkan milli parkının çox hissəsi Astara rayonundadır.Azərbaycanda ən çox yağıntı Lənkəran ovalığının cənubunda,Astara ərazisində müşahidə olunur.Burada illik yağıntının miqdarı 1600 mm-dən çoxdur."Yanar bulaq" kompleksi Astara rayonunun çoxsaylı nadir geoloji obyektlərindən biridir.Bu kompleks Astara rayonunun Ərçivan kəndinin cənub qurtaracağında,Ələt-Astara magistral yolu yaxınlığında yerləşir.Bu bulaq insanların ən çox maraq göstərdiyi yerlərdən biridir.Belə ki, bulaqda kükürdlü su ilə bərabər metan qazı da çıxdığından alovu suya yaxınlaşdırarkən,sudan ayrılan qaz məşəl kimi alovlanır.Bu bulağa,istər yerli əhali,istərsə də səyahətçilər tərəfindən böyük maraq vardır.

**Təbiət.**Astara aran və dağ zonasından ibarətdir.Rayonun şərqində Xəzər dənizi dalğalanır və qərbində isə zəngin meşəli Talış sıra dağları dayanır.Xəzər dənizində olan nadir balıq növlərindən hazırlanan xörəklər Astara mətbəxini hər yerdə məşhur etmişdir.Xəzər dənizi sahili boyu və meşəliklərdə adı ilə tanınan bulaqlar rayona gələn qonaqlar və turistlər üçün ən gözəl istirahət yerlərindəndir.Müxtəlif xəstəliklərin dərmanı olan Astaranın İsti suyu Respublikanın hər yerində tanınır.Astara meşələrində bitən nadir ağacların şahı dəmirağacıdır.Dəmirağacı bu meşələrə gözəllik verməklə yanaşı, strateji əhəmiyyətə malik ağac növüdür.Astara hazırda bütün dünyada ekoloji cəhətdən təmiz və keyfiyyətinə görə yüksək olan çayı ilə məşhurdur. 2002-ci ildəvə sonrakı illərdə İspaniyanın paytaxtı Madrid, Rusiyanın paytaxtı Moskva şəhərlərində keçirilən beynəlxalq sərgilərdə Astara çayına yuxarıda qeyd etdiyimiz ən yüksək qiymət verilmiş və Qızıl medal almışdır.Astarada yetişdirilən limon,portağal, kivi,kinkan,feyxoa və başqa sitrus meyvələri Respublika və xarici ölkə bazarlarında maraqla alınır.Astaranın ənənəvi çəltik sahələri son vaxtlar genişləndirilmiş, indi ətirli Astara düyüsü süfrələrin bəzəyidir.Astaranın mətbəx mədəniyyəti rəngarəng və özünəməxsus olmaqla diqqəti həmişə cəlb etmişdir.Saxsı təndirdə bişirilən "əl çörəyi", "ləvəngi" və onun müxtəlif növləri, düyüdən bişirilən 21 növ, ətdən 23 növ, çöl və ev quşlarından 7 növ, undan 20 növ,balıqdan 9 növ xörəklər hər yerdə tanınır.Xüsusi ilə "Balıq sırdağı",onun ləvəngisi, cücə ləvəngisi,pətə,qara plov,toy qatığı, boranı plov və başqa yerli xörək növləri rayona gələn qonaqların sevimli yeməyidir.

**Çaylar.**Talış sahəsində axım modulu şimaldan cənuba və qərbdən şərqə doğru artır.Axımın maksimum kəmiyyəti(25 l/san, km2 -dən çox)ərazinin mərkəzi hissəsində Təngərud və Astara çayları hövzələrində, minimal kəmiyyəti isə (0,5-0,8 l/san.km2)

ərazinin Viləş çayından şimaldakı hissəsində, həmçinin Lənkəran və Viləş çaylarının mənbələrində muşahidə olunur.Astaraçay-Azərbaycan Respublikasının İranla dövlət sərhəddində çay.Astaraçay Astara rayonundan axıb Xəzər dənizinə tökülür.Uzunluğu 38 km, hövzəsinin sahəsi 242 $km^2$-dir. Başlanğıcını Talış silsiləsində, Şindan qalasından(1817m yüksəklikdən)alır.Alaşakəndi yanında qovuşan İstisu Astara çayın əsas qolu hesab olunur.Astara çayın bu hissədən mənsəbə qədər olan məsafəsi Azərbaycanla İran arasında dövlət sərhəddini təşkil edir.Çayın illik axımının 70 %-ni yağış suları, 22%-ni yeraltı sular,8%-ni isə qar suları təşkil edir.Yaz aylarında çayda güclü daşqınlar olur.Daşqın dövründə illik axın 80-85%-i keçir.Suvarmada istifadə edilir.Astara şəhəri astaraçayın mənsəbindədir.Astaraçay adını ərazidəki eyni adlı bulaqdan almışdır.Hidronim ast(aşağı,çökək dərə) və ara/ura (yer,su,çay, bulaq) sözlərindən düzəlib, "dərədə bulaq,çökək yerdən çıxan su" mənasındadır.

**Bitki örtüyü və heyvanat aləmi.**Talışın düzən meşəliklərinin səciyyəvi ağac cinslərindən dəmirağac və şabalıdyarpaq palıdı göstərmək olar.Burada relikt şabalıdyarpaq palıd, dəmirağac, ipək akasiya,azat,həmçinin palıd,vələs,fıstıq,qoz,qızılgöz,cökə və s bitir.Hirkan milli parkının çox hissəsi Astara rayonundadır. Heyvanları - bəbir,vaşaq,ayı,meşə pişiyi,oxlu kirpi,daşlıq dələsi, porsuq,çaqqal,tülkü,canavar,çöl donuzu və s.Quşları - qırqovul,vağ,qaz,ördək,göyərçin,kəklik, çöltoyuğu və s. Bitki örtüyü - meşəliklərin aşağı hissələrində danaya,bigəvər kimi həmişəyaşıl kollar vardır.Qafqaz xirniyi bir qədər rütubətli yamaclarda xüsusi cəngəlliklər yaradır.Xəzər şeytanağacı üstünlük təşkil edir.Bu meşələrin dənizə baxan yamacında Lənkəran akasiyası, cökə və bir çox başqa ağaclar xüsusi qarışıq meşəliklər yaradırlar.Dəniz səthindən bir qədər hündürlükdə

ağcaqayının başqa bir növü Şərq fıstığı ilə birlikdə hündürboylu sıx meşəliklər əmələ gətirir.Bu tip meşəliyin alt mərtəbələrində qaraçöhrə,şümşad,az miqdarda danaya xüsusi mərtəbəlik yaradırlar.

**Qoruqlar və yasaqlıqları.**Azərbaycan Respublikasının Prezidentinin 9 fevral 2004-cü il tarixli sərəncamı ilə yaradılmış Hirkan milli parkının 21,3 min hektar ərazisindən 18,3 min hektarı Astara rayonunun ərazisindədir. Meşələrdə relikt şabalıdyarpaq palıd,dəmirağac, ipək akasiyası,azat,cökə,vələs, fıstıq,qoz, qızılgöz və s.bitir.Heyvanlardan - bəbir,vaşaq,ayı, meşə pişiyi,oxlu kirpi,daşlıq dələsi,porsuq,çaqqal,tülkü,canavar, çöl donuzu və s. yaşayır.Quşlardan qırqovul,vağ,qaz,ördək, kəklik,göyərçin,çöl toyuğu və s. vardır.Mineral bulaqlardan - Yanar bulaq,Ağ körpü,Sım,Bi,Toradi,Şeyx Nəsrullah və başqaları məşhurdur.Qoruğun ərazisindən Astara,Ərçivan və Pensər çayları keçir.

**İqlimi.**Rayonun düzənlik və dağətəyi hissəsi respublikanın rütubətli subtropik zonasına daxildir. Orta temperatur yanvarda - l, 5 °C-dən 4 °C-yədək, iyulda 15-25 °C-dir. İllik yağıntı 1200–1750 mm-dir.

**İnzibati-ərazi bölgüsü.**Astara rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuşdur. Rayon 4 yanvar 1963-cü ild ləğv edilib ərazisi Lənkəran rayonuna verilmiş.,6 yanvar 1965-ci ildə yenidən təşkil edilmişdir.Astara şəhəri isə 14 sentyabr 1945-ci ildə təşkil edilmişdir.Rayonun sahəsi 616 kv.metr-dir.Bakıdan rayon mərkəzinə köhnə ilə 329(2007), təzə statisitka ilə isə 259(2019) km-dir.Rayon ərazisində 1 şəhər tipli qəsəbə,15 icra nümayəndəliyinə daxil olan 92 yaşayış məntəqəsi var.AzStat-ın 2013-cü ilə olan məlumatına əsasən rayon ərazisində 1 şəhər,2

qəsəbə və 89 kənd olmaqla 92 yaşayış məntəqəsi yerləşir.Onlar 1 şəhər, 2 qəsəbə və 12 kənd izibati ərazi dairəsi olmaqla 15 inzibati ərazi dairəsinə daxildirlər.(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: İnzibati ərazi bölgüsü təsnifatının qüvvədə olan variantı (Bax:30. 05. 2013-tarixli nəşri) : Astara rayonu—80100001)

**İqtisadiyyatı.**Azərbaycan Respublikasının cənubunda yerləşən Astara rayonun iqtisadiyyatını əsasən sitrusçuluq,çayçılıq, tərəvəzçilik və çəltikçilik təşkil edir.Ayrı-ayrı təsərüfatlarda heyvandarlıq,balıqçılıq və arıçılıq inkişaf edir.Azərbaycanda istifadə olunan sitrus meyvələrinin çoxunun Astara rayonu verir. Astara rayonu İran İslam respublikası ilə sərhəddə yerləşməsi iki tərəfli ticarət əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır.Rayonda ümumi olaraq 3 Çay fabriki,2 Konserv zavodu,Balıq zavodu,Kərpic zavodu,Çınqıl karxanası,Beynəlxalq Qaz Kompressor Stansiyası.Modul tipli Elektrik Stansiyası,12 düyü və 4 un dəyirmanı və başqa müəssisələr vardır.Köhnə təsərüfat formaları dağıldıqdan sonra rayonda torpaq islahatı aparılmış, torpaqlar payçılara verilmiş və yeni təsərüffat qurumları yaradılmışdır.Hazırda rayonda ayrı-ayrı sahələr üzrə 68 kəndli (fermer) təsərüfatı yaradılmış,bunlar da müxtəlif növ kənd təsərüfatı məh-sullarının istehsalı ilə məşğul olurlar.Rayonda 17,6 min ha əkinə yararlı torpaq sahəsi vardır.

**Əsas məqalələr**:Azərbaycan əhalisinin siyahıyaalınması (1999) və Azərbaycan əhalisinin siyahıyaalınması(2009) AzStat-ın 1 yanvar 2013-cü il tarixinə olan məlumatına əsasən rayon əhalisi 101. 188 nəfərdir)

**Görkəmli şəxsləri.**İkinci Dünya Müharibəsində iştirak etmiş Astara rayon sakinləri :

1. Ədalət Qədəboli oğlu Əskərov
2. Ömər Osman oğlu Əliyev
3. Sadıq Həsənverdi oğlu Əliyev
4. Mirzəhəsən Gülhəsən oğlu İsayev
5. Xanmurad Cümşüd oğlu Əliyev
6. Həsən Əli oğlu Qurbanov.
7. Allahqulu Səfərəli oğlu Məlikov

**Sovet İttifaqı Qəhrəmanları:**

1. Akademik Ziya Bünyadov
2. Mirzə Cəbiyev
3. İlya Ananyeviç Kaverin.

**Sovet İttifaqı Qəhrəmanı adına bərabər tutulan "Şöhrət" ordenlərinin hər üç dərəcəsini alanlar:**

1. Ağahəsən Mamulu oğlu Nəhmətov
2. Rəhmət Məmməd oğlu Hatəmov.
3. Sosialist Əməyi Qəhrəmanı — Böyükxanım Abdulla qızı Əliyeva.

Qarabağ müharibəsində iştirak etmiş Astara rayon sakinləri — Xanlar Mirəli oğlu Şəkərov.

1. Azərbaycanın Milli Qəhrəmanı — Yalçın Nəsirov.
2. Müdafiyə naziri — Zakir Həsənov.

**Rayondan 3 general çıxmışdır:**

1.Azərbaycan SSR daxili işlər naziri işləmiş mərhum Aydın İsrafil oğlu Məmmədov
2.Azərbaycan Respublikası Polis Akademiyasının rəisi Rəsul Rəsulov

3.Azərbaycan Respublikası Müdafiə Nazirliyində İnformasiya şöbəsinin rəisi Vaqif Süleyman oğlu Rəsulov.

## Astara abidələrinin siyahısı

| | Abidənin adı | İnvertar № | Sistem kodu | Abidənin tipi | Ucaldılma tarixi | Ünvan |
|---|---|---|---|---|---|---|
| | **Ölkə əhəmiyyətli arxeoloji abidələr – 26 ədəd** | | | | | |
| **1** | **Baba Cabrayıl kurqanı** | 817 | AJA000840 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Təngərüd kəndi |
| **2** | **Təngərud kurqanı** | 818 | AJA000841 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Təngərud kəndi |
| **3** | **Kurqan** | 819 | AJA000842 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Pensər kəndi |
| **4** | **Pir Seid Camal kurqanı** | 820 | AJA000843 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Pensər kəndi |
| **5** | **Vaqo kurqanları** | 821 | AJA000844 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Vaqo kəndi |
| **6** | **Baba Hümmət kurqanı** | 822 | AJA000845 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Maşxan Kəndi |
| **7** | **Kolakafo qala və yaşayış yeri** | 823 | AJA000846 | Ölkə əhəmiyyətli arxeoloji abidə | IX—XVII əsrlər | Hamoşam kəndi |
| **8** | **Biyaylaq kurqanı** | 824 | AJA000847 | Ölkə əhəmiyyətli arxeoloji abidə | Tunc dövrü | Siyaku kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 9 | **Qırxtürbə şəhər yeri** | 825 | AJA000848 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | X—XII əsrlər | Siyaku kəndi |
| 10 | **I və II Siyaku yaşayış yerləri** | 826 | AJA000849 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Tunc dövrü, antik dövr | Siyaku kəndi |
| 11 | **Siyaku kurqanları (4 ədəd)** | 827 | AJA000850 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Tunc dövrü | Siyaku kəndi |
| 12 | **Sım yaşayış yeri** | 828 | AJA000851 | Ölkə əhəmiy-yətli arxeoloji abidəı | IX—X əsrlər | Sım kəndi |
| 13 | **Kurqan** | 829 | AJA000852 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Tunc dövrü | Artupa kəndi |
| 14 | **Kurqanlar (3 ədəd)** | 830 | AJA000853 | Ölkə əhəmiy-yətli arxeoloji abidəı | Tunc dövrü | Alaşa kəndi |
| 15 | **Ağ körpü yaşayış yeri** | 831 | AJA000854 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XIII—XIV əsrlər | Ağkörpülü kəndi |
| 16 | **Daş qutu nekropolu** | 832 | AJA000855 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | B. e. ə. II minilliyin sonu—I minilliyin əvvəli | Azarüd kəndi |
| 17 | **Binabay kurqanları** | 833 | AJA000856 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Tunc dövrü | Binabayı kəndi |
| 18 | **Qədim yaşayış** | 834 | AJA000857 | Ölkə əhəmiy-yətli arxeoloji | VIII—IX, | Qapıçıməhəllə kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **yeri** | | | abidə | XIII —XV əsrlər | |
| **19** | **Dilmədi yaşayış yeri** | 835 | AJA000858 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XIII-XVI əsrlər | Dilmədi kəndi |
| **20** | **Zarapeştə yaşayış yeri** | 836 | AJA000859 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XIII-XVI əsrlər | Əsənəkəran kəndi |
| **21** | **Koraoba kurqan-ları (3 ədəd)** | 837 | AJA000860 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Tunc dövrü | Əsənəkəran Kəndi |
| **22** | **Koraoba daş qutu nekropolu** | 838 | AJA000861 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | Dəmir dövrü | Kürdoba kəndi |
| **23** | **Lomin yaşayış yeri** | 839 | AJA000862 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XIII-XVI əsrlər | Lomin kəndi |
| **24** | **Miki dolmeni** | 840 | AJA000863 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | e. ə. II minilliyin sonu —I minilliyin əvvəli | Miki kəndi |
| **25** | **Xolobin daş qutusu nekropolu** | 841 | AJA000864 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | E. ə. V—I əsrlər | Rıvədılə kəndi |
| **26** | **Çıraqtürbə yaşayış yeri** | 842 | AJA000865 | Ölkə əhəmiy-yətli arxeoloji abidə | XI—XIV əsrlər | Şaxaqədir kəndi |
| **Yerli əhəmiyyətli memarlıq abidəlsi - 48 ədəd** | | | | | | |
| **1** | **Ləm** | 4091 | AJA005570 | Yerli əhəmiy-yətli memarlıq | 1906-cı il | Ərçivan kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | abidəsi | | |
| **2** | **Yaşayış yeri** | 4092 | AJA003890 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1900-cü il | Ərçivan kəndi |
| **3** | **Ləm** | 4093 | AJA003891 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1890-cı il | Kakalos kəndi |
| **4** | **Ləm** | 4094 | AJA003892 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1890-cı il | Kaklos kəndi |
| **5** | **Ləm** | 4095 | AJA003893 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1900-cü il | Kakalos kəndi |
| **6** | **Ləm** | 4096 | AJA003894 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1890-cü il | Şahağac kəndi |
| **7** | **Ləm** | 4097 | AJA003895 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1892-ci il | Şahağac kəndi |
| **8** | **Yaşayış evi və ləm** | 4098 | AJA003896 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1878-ci il | Pensər kəndi |
| **9** | **Ləm** | 4099 | AJA003897 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1885-ci il | Pensər kəndi |
| **10** | **Ləm** | 4100 | AJA003898 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1890-cı il | Pensər kəndi |
| **11** | **Ləm** | 4101 | AJA003900 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1870-ci il | Pensər kəndi |
| **12** | **Orta məktəb binası** | 4102 | AJA003901 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1912-ci il | Pensər kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **13** | **Ləm** | 4103 | AJA003902 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1880-cı il | Rudəkənar kəndi |
| **14** | **Ləm** | 4104 | AJA003933 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1902-ci l | Rudəkənar kəndi |
| **15** | **Təkiyyə** | 4105 | AJA003904 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | | Təngərud kəndi |
| **16** | **Ləm** | 4106 | AJA003935 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1902-ci il | Təngərud kəndi |
| **17** | **Ləm** | 4107 | AJA003906 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1907-ci il | Təngərud kəndi |
| **18** | **Ləm** | 4108 | AJA003907 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1840-cı il | Siyətük kəndi |
| **19** | **Ləm** | 4109 | AJA003938 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1895-ci il | Bala-Şahağac kəndi |
| **20** | **Ləm** | 4110 | AJA003909 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1890-cı il | Bala-Şahağac kəndi |
| **21** | **Ləm** | 4111 | AJA003910 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1895-ci il | Bala-Şahağac kəndi |
| **22** | **Ləm** | 4112 | AJA003911 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1895-ci il | Səncərədi kəndi |
| **23** | **Ləm** | 4113 | AJA003912 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1905-ci il | Səncərədi kəndi |
| **24** | **Məscid** | 4114 | AJA003913 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIX əsr | Astara şəhəri |
| **25** | **Kilsə** | 4115 | AJA003914 | Yerli əhəmiy- | 1880- | Astara |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | yətli memarlıq abidəsi | cı il | şəhəri |
| 26 | **Kərbəlayı Həmdi Abdullah hamamı** | 4116 | AJA003915 | Yerli əhəmiyyətli memarlıq abidəsi | 1806-cı il | Ərçivan qəsəbəsi |
| 27 | **Məscid** | 4117 | AJA003916 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIX sər | Ərçivan qəsəbəsi |
| 28 | **Türbə qalıqları** | 4118 | AJA003917 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIII əsr | Ərçivan qəsəbəsi |
| 29 | **Minarə qalıqları** | 4119 | AJA003918 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIII əsr | Ərçivan qəsəbəsi |
| 30 | **Orta əsr yaşayış məntəqəsi və qalanın qalıqları** | 4120 | AJA003919 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIII əsr | Ərçivan qəsəbəsi |
| 31 | **Məşhədi AbuTalıb hamamı** | 4121 | AJA003920 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIX əsr | Pensər kəndi |
| 32 | **Hacı Cahanbaxış məscidi** | 4122 | AJA003921 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIX əsr | Pensər kəndi |
| 33 | **Hacı Teymur məscidi** | 4123 | AJA003922 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIX əsr | Pensər kəndi |
| 34 | **Məscid** | 4124 | AJA003923 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XIX əsr | Şahağac kəndi |
| 35 | **Türbə** | 4125 | AJA003924 | Yerli əhəmiyyətli memarlıq abidəsi | XII əsr | Şahağac kəndi |
| 36 | **Hamam** | 4126 | AJA003925 | Yerli əhəmiyyətli memarlıq abidəsi | 1910-cu il | Şahağac kəndi |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **37** | **Məscid** | 4127 | AJA003926 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1903-cü il | Artupa kəndi |
| **38** | **Məscid** | 4128 | AJA003927 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1905-ci il | Vaqo kəndi |
| **39** | **Məscid** | 4129 | AJA003928 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1907-ci il | Kakalos kəndi |
| **40** | **Məscid** | 4130 | AJA003929 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1905-ci il | Maşxan kəndi |
| **41** | **Əhməd ibn Kərim türbəsi** | 4131 | AJA003930 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1472-ci il | Maşxan kəndi |
| **42** | **Məscid** | 4132 | AJA003931 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1903-cü il | Məscidoba kəndi |
| **43** | **Məscid** | 4133 | AJA003932 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1900-cü il | Şiyəkəran kəndi |
| **44** | **Sipiyə pard (Ağ körpü)** | 4134 | AJA003933 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIII əsr | Sipiyəpard kəndi |
| **45** | **Piyəjenəpard** | 4135 | AJA003934 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIII əsr | Piləkəran kəndi |
| **46** | **Su dəyirmanı** | 4136 | AJA003935 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIX əsr | Piləkəran kəndi |
| **47** | **Vıloə pard** | 4137 | AJA003936 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | XIII əsr | Lomin kəndi |
| **48** | **Məscid** | 4138 | AJA003937 | Yerli əhəmiy-yətli memarlıq abidəsi | 1905-ci il | Siyakuh kəndi |
| **Yerli əhəmiyyətli Bağ-Park Monumental və xatirə abidələri – 2 ədəd** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | **N.Gəncəvinin abidəsi** | 5618 | AJA005421 | Bağ-park, monumental və xatirə abidəsi | XX əsr | Astara ş. Nizami küçəsi, 46 |
| 2 | **Böyük Vətən muharibəsində həlak olmuş həmvətənləri mxatiizinrə abidəsi** | 5619 | AJA005422 | Bağ-park, monumental və xatirə abidəsi | XIX əsr | Astara şəhəri |
| **Yerli əhəmiyyətli arxeoloji abidələr – 21 ədəd** | | | | | | |
| 1 | **Köhnə qəbiristanlıq** | 5763 | AJA005565 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Son orta əsrlər | Qandalaş kəndinin şimal-qərbində |
| 2 | **Köhnə qəbiristanlıq** | 5764 | AJA005566 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Təngərud kəndi |
| 3 | **Köhnə qəbiristanlıq** | 5765 | AJA005567 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Son orta əsrlər | Pensər kəndi |
| 4 | **Qəbiristanlıq** | 5766 | AJA005568 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Vaqo kəndi |
| 5 | **Qəbiristanlıq** | 5767 | AJA005569 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Maşxan kəndi |
| 6 | **Maşxan yaşayış yeri** | 5768 | AJA005570 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVII əsrlər | Maşxan kəndi |
| 7 | **Qəbiristanlıq** | 5769 | AJA005571 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Hamoşam kəndi |
| 8 | **Qəbiristanlıq** | 5770 | AJA005572 | Yerli əhəmiy- | Orta | Siyatük |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | yətli arxeoloji abidə | əsrlər | kəndi |
| 9 | **Görinəbi qəbiristanlığı** | 5771 | AJA005573 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsr | Zünqüləş kəndi |
| 10 | **Şeyxdilim qəbiristanlığı** | 5772 | AJA005574 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Diqədi kəndi |
| 11 | **Damğalı daşlar** | 5773 | AJA005575 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Sım kəndi, Utey ərazi-sində |
| 12 | **Utey yaşayış yeri** | 5774 | AJA005576 | Yerli əhəmiy-yətli arxeoloji abidə | | Sım kəndi, Utey ərazi-sində |
| 13 | **Çayu yaşayış yeri** | 5775 | AJA005577 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVII əsrlər | Sım kəndi |
| 14 | **Hamiəxi dədə qəbiristanlığı** | 5776 | AJA005578 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Dolu kəndi |
| 15 | **Qəbiristanlıq** | 5777 | AJA005579 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Sipnədi kəndi |
| 16 | **Pir Əbülğasım qəbiristanlığı** | 5778 | AJA005580 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Səraq kəndi |
| 17 | **Qəbiristanlıq** | 5779 | AJA005581 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Səncərədi kəndi |
| 18 | **Qəbiristanlıq** | 5780 | AJA005582 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Artupa kəndi |
| 19 | **Şəhərgah** | 5781 | AJA005583 | Yerli əhəmiy-yətli arxeoloji abidə | Orta əsrlər | Ərçivan kəndi |
| **20** | **Azarud** | 5782 | AJA005584 | Yerli əhəmiy- | XIV- | Azarud |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **yaşayış yeri** | | | yətli arxeoloji abidə | XVI əsrlər | kəndi |
| **21** | **Peştə yaşayış yeri** | 5783 | AJA005585 | Yerli əhəmiy-yətli arxeoloji abidə | XIV-XVI əsrlər | Peştə kəndi |
| **Yerli əhyəmiyyətli dekorativ-tədbiqi sənət nümunələri – 5 ədəd** | | | | | | |
| **1** | **Daş qoç fiquru** | 6105 | AJA005907 | yerli əhəmiy-yətli Xalq-daş-heykəl-taraşlıq abidəsi | Son orta əsrlər | Biu kəndi |
| **2** | **Daş qaban fiquru** | 6106 | AJA005908 | Yerli əhəmiy-yətli Xalq-daş-heykəl-taraşlıq abidəsi | Son orta əsrlər | Miki kəndi, Asbəhiz ərazisi |
| **3** | **İnsan başının daş heykəli** | 6107 | AJA005909 | Yerli əhəmiy-yətli Xalq-daş-heykəl-taraşlıq abidəsi | Son orta əsrlər | Miki kəndi, Asbəhiz ərazisi |
| **4** | **Yəhər formalı daş fiqur** | 6108 | AJA005910 | Yerli əhəmiy-yətli Xalq-daş-heykəl-taraşlıq abidəsi | Son orta əsrlər | Miki kəndi, Asbəhiz ərazisi |
| **5** | **Nizə tutmuş atlının təsviri ilə qəbir daşı** | 6109 | AJA005911 | Yerli əhəmiy-yətli Xalq-daş-heykəl-taraşlıq abidəsi | Son orta əsrlər | Utey ərazisi |

## 1.Yaşayış yerləri ( 15 ədəd)



**1.Çayu yaşayış yeri**.(Sım kəndi) Çayu yaşayış yeri yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Sım kəndi ərazisində yerləşir.Yaşayış yerinin tarixi XIV-XVII əsrlərə təsadüf edir.Çayu yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIII-XVI əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Yaşayış yerinin invertar nömrəsi 5775,sistem kodu isə AJA005577-dir. *Şəkil. Çayu yaşayış yeri.*



**2.Çıraqtürbə yaşayış yeri**(Çəpinə türbə)(Şıxaqədir kəndi).Çıraqtürbə yaşayış ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Şaxaqədir kəndi ərazisində yerləşir. Yaşayış yerinin yaranma tarixi XI-XIV əsrlərə təsadüf edir.Çıraqtürbə yaşayış yerinin ərazisində müxtəlif zamanlarda kərpic parçaları,saxsı qablar və onların qırıntıları tapılmışdır.Bu da bu yaşayış yerinin orta əsrlərə aid olduğunu göstərir.Çıraqtürbə yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XI-XIV əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 842,sistem kodu isə AJA000865-dir. *Şəkil. Çıraqtəpə yaşayış yeri.*



**3.Dilmədi yaşayış yeri.**(Dilmədi kəndi). Dilmədi yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və rayonunun Dilmədi kəndi ərazsində yerləşri. Yaşayış yerinin yaranma tarixi XIII-XVI əsrlərə aiddir.Dilmədi yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIV-XVI əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 835,sistem kodu isə AJA000858-dir. *Şəkil. Dilmədi yaşayış yeri*



**4.Kolakafo qala və yaşayış yeri**(Hamoşam kəndi).Koləkəfo qala və yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Hamoşam kəndi ərazisində yerləşir.Abidənin tarixi IX-XVII əsrlərə təsadüf. Abidənin invertar nömrəsi 823, sistem kodu isə AJA000846-dır. *Şəkil.Kalakafo*



**5.Qədim yaşayış yeri (**Qapıçıməhəllə kəndi). Bu qədim yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Qapıçıməhəllə kəndi ərazisində yerləşir.Abidənin yaranma tarixi VIII-IX, XIII-XV əsrlərə təsadüf edir."Qədim yaşayış yeri" olan Qapıçıməhəllə haqqında o dövrün kitablarından olan "Cəvahirnameyi – Lənkəran " kitabında belə

yazılıb:Astaraçayın o biri tayındakı Qapıçıməhəllənin cənubunda tarixi abidə olan bir qala binası var".Bundan əlavə Qapıçıməhəllədə mövcud şəhərə aid gözəl tarixi əsər – böyük bir cəmiyyət məscidi, qırmızı kərpicdə tikilmiş yeddi hamam da var.Bu yaxınlara qədər bu yerin məhv edilmiş binalarının yonulmuş qədim daşlarını Sərkar mayor Hacı Mir Abbas bəy Lənkərana daşıtdırmışdır.Qızılbaş sərhədlərinin hakimlərinin rəhbəri Mir sultan Əhməd xan Seyfülmülk isə Astara limanını qalıq daşlarla tikdirmişdir."(Səidəl Kazımbəyov. B.,2005.səh.109).Qapıçıməhəllədə tədqiqatlar aparmış Tufan Axundov aşkarlanmış arxeoloji nümunələrə əsaslanaraq Qapıçıməhəllədə XIV-XVII əsrlərə aid böyük bir yaşayış yerinin olduğunu qeyd edir.Qapıçıçıməhəllə yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən VIII-IX,XIII-XV əsrlərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar növü 834,sistem kodu isə AJA000857-dir.*Şəkil. Qapıçıməhəllə yaşayış yeri.*



**6.Lomin yaşayış yer**i.(Lomin kəndi). Lomin yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Lomin kəndi ərazisində yerləşir.Yaşayış yerinin yaranma tarixi XIII-XIV əsrlərə təsadüf edir. Lomin yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIII-XVI əsrlərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 839,sistem kodu isə AJA000862-dir. *Şəkil. Lomin yaşayış yeri.*



**7.Maşxan yaşayış yeri**(Maşxan kəndi).Maşxan yaşayış yeri yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir. Abidənin tarixi XIV-XVII əsrlərə təsadüf edir. Maşxan yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIV-XVII əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 5768,sistem kodu isə AJA005570-dir. *Şəkil. Maşxan yaşayış yeri*.



**8.Azaru yaşayış yeri.** Azarud yaşayış yeri yerli əhəmyyətli arxeoloji abidədir və Astara rayonunun Azarud kəndi ərazisində yerləşir.Yaşayış yerinin yaranma tarixi XIV-XVI əsrə təsadüf edir. Azaru yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIV-XVI əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 5782,sistem kodu isə AJA005584-dür. *Şəkil. Azarud yaşayış yeri.*



**9.Peştə yaşayış yeri**(Toradi kəndi). Peştə yaşayış yeri yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Toradi kəndi ərazisində yerləşir. Peştə yaşayış yerinin tarixi XIV-XVI əsrlərə təsadüf edir. Peştəərazisi də Sım kimi özündə tarixin qədim sirlərini saxlayır. Belə ki fərdi yaşayış evi tikmək üçün sakinlərə verilmiş həyətyanı sahələrdə binövrə qazılarkən çoxlu sayda Orta əsrlərə aid maddi-mədəniyyət nümunələri tapılmışdır.Peştə yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIV-XVI əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 5783, sistem kodu isə AJA005585-dir. *Şəkil. Peştə yaşayış yeri*



**10.Sim yaşayış yeri.**(Sım kəndi).Sım yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Sım kəndi ərazisində yerləşir. Yaşayış yerinin yaranma tarixi IX-X əsrlərə təsadüf edir.Sımı cənub bölgəsinin tarixi abidələr xəzinəsi adlandırsaq belədə yanılmarıq.Sım meşələrində Sasani dövrünə aid çoxlu daş abidələr,Sasani şahı I Xosrovun dəstgahı,üzərində işarələr olan və daş dövrünə aid olan daş abidələr bizə uzaq keçmişdən xəbər verir.Sımın hər güşəsi bir tarixi səhifədir.Sımda orta əsrlərə və əsasəndə ilk orta əsr Sasani dövrünə aid çoxlu qədim pullar və gil qablar tapılmış və hall-hazırda bu antik əşyaların bəzi nümunələri Sim məktəbindin

Tarix müzeyində qorunub saxlanılır.Sım yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən IX-X əsrlərə aid ölkəi əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 828, sistem kodu isə AJA000851-dir. *Şəkil. Sım yaşayış yeri*



**11.Sipiyəpard yaşayış yeri** (Ağkörpü kəndi).Ağkörpü yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Ağ körpü kəndiərazisində yerləşir. Yaşayış yerinin tarixi XIII - XIV əsrlərə aiddir."Ağ körpü" Astara-Bakı şosse yolunun 15 km qərbində, Astara rayonunun Sipiyəpart kəndində yerləşir.Bu körpünün XVI-XVII əsrlərə aid olduğu ehtimal olunur. Körpunü yerli əhali"Sipiyəpard" adlandırır,talış dilindən tərcümədə "sipiyə"-ağ, "pard"(part)-körpü deməkdir. Əfsanəyə görə, körpünü Səfəvi hökmdarı I Şah Abbasın inşa etdirdiyi deyilir. Bir gün Şah Abbas ov etmək üçün bu əraziyə gəlir.Həmin ərazidə çay dərəsindən keçib getməli olur.Şah bir müddət sonra geriyə qayıdarkən, yenə yolu həmin yerdən düşür.O, burada tağlı, təzə bir körpü görür və çox təəcüblənir. Şah körpünü çayın sahilində yaşayan bir qadının inşa etdirdiyini öyrənir. Qoca qadın satdığı yumurtaların puluna yerli ustalara bu körpünü tikdirmişdi.Bunu eşidən şah qəzəblənir, körpüdən keçməyi öz qüruruna sığışdırmır və ardınca gələnlərə əmr edir ki, heç kim bu körpüdən keçməsin. Şah sarayına çatan kimi həmin ərazidə qoca qadının tikdirdiyi körpüdən daha möhtəşəm, yeni tağlı körpünün inşasına əmr verir.Həmin gündən hökmdarın yolu bu tərəflərə düşəndə öz əmri ilə inşa edilmiş "Sipiyə pard"-dan, yəni "Ağ

körpü"- dən istifadə edərmiş.Abidənin invertar nömrəsi 831, sistem kodu isə AJA000854 - dür. *Şəkil.Sipiyəpard(Ağ körpü)*



**12.I və II Siyaku yaşayış yeri.** I və II Siyaku yaşayış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və və Astara rayonunun Siyaku kəndi ərazisində yerləşir. Yaşayış yerinin tarixi Tunc dövrü, antik dövrə təsadüf edir.I və II Siyaku yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc və Antik dövrlərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 826,sistem kodu isə AJA000849-dur və hal-hazırda mövcud deyil.*Şəkil. I və II Siyaku yaşayış yeri.*



**13.Utey yaşayış yeri**.(Sim kəndi). Utey yaşayış yeri yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Sım kəndinin Utey ərazisində yerləşir.Yaşayış yerinin tarixi XIV-XVII əsrlərə təsadüf edir. Utey yaşayış yerinin qədim xarabalıqlarında əsasən arxeoloq Məmmədəli Hüseynov 1950 –cı ildə tədqiqatlar aparmışdır.Utey yaşayış yeri təqribən 10 hektar ərazini əahtə edən bir abidə kompleksidir.Burada "Padişahi taxt" astroloji təqvim hesab edilən "Ulduzlu simalı " qaya , damğalı daşlar ,nizə tutmuş atlının təsviri ilə qəbir daşı ,daş qutu qəbirlər,hovuzlar,oyuqlu daş ,"düstaqxana" və köhnə qəbiristanlıq da var.Nəhayət 2002-ci

ilin sentyabrında Tufan Axundovun rəhbərliyi ilə ekspedisiya heyəti Uteyd daş dövrünə aid qayaüstü rəsmlərin sorağı ilə Sim,Toradi və Utey kəndlərinə gəlmişdir.elə ki Tufan Axundov İ.Əliyevlə bərabər oradakı müxtəlif təsvirlərə baxmışlar.Baxış zamanı tədqiqatçılar qərara gəlmişlər ki, təsvirlərin janrı kənd həyatı sahələridir.Burada dizlərini örtən düz libas geymiş insan və onun arxasında "cücə" obrazına oxşar iki fiqur, "cücə"nin altında buynuzlu,heyvanları,ondan sol tərəfdə iki kotana qoşulmuş birhürgüclü öküz təsviri var.Beləliklə burada açıq "kənd həyatı" təsvir olunduğu göz qabağındadır.Yəni çoban öz öküzlərini güdür,,qabaqda isə it qaçır,əkinçi torpağı bir cüt ları qoşulmuş kotanla işləyir. Utey yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIV-XVII əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Yaşayış yerinin invertar nömrəsi 5774,sistem kodu isə AJA005576-dır.*Şəkil.Utey yaşayış yeri.*



**14.Zarepeştə yaşayış yeri** (Asxanakəran kəndi). Zarepeştə yaşayaış yeri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Asxərəkəran kəndi ərazisində yerləşir.Yaşayış yerinin yaranma tarixi XIII-XVI əsrlərə təsadüf edir. Zarepeştə yaşayış yeri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIII-XIV əsrlərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Beləki 1959-cu ildə AMEA-nın Tarix İnstitutu Zarepeştə yaşayış yerində, oradakı daş-qutu qəbirlərindən müxtəlif tipli tunc təbərzin baltalar tapmışlar.Talışın dağlıq və dağətəyi hissəsində əldə

edilən bu təbərzin baltalar öz formasına görə eyni quruluşa malik olub, yalnız öz öölçülərinə görə biri-birindən fərqləniblər.Onların arxa hissəsi iti olmaqla böyük küpü vardır.Sap seçmək üçün hazırlanmış ovalşəkilli deşiyi yuxarı tərəfdən bir az genişdir.Baltaların altıtilli düz gövdəsi və seqmentvari gödək ağızları var.Onlar daş və gil qəliblərlə tökmə üsulu ilə hazırlanmışlar.(Bax: Anar Ağalarzadə. Azərbaycann Cənub-şərq bölgəsinin Tunc-ilk Dəmir dövrü silahları."Hərbi bilik" jurnalı,№5,2019,səh.37). Yaşayış yerinin invertar nömrəsi 836, sistem kodu isə AJA000859-dur. *Şəkil. Zardəpeştə yaşayış yeri.*

**15.Yaşayış yeri.(**Ərçivan kəndi).Bu yaşayış yeri yerli əhəmiyyətli memarlıq abidəsidir vəAstara rayonunun Ərçivan qəsəbəsi ərazisində yerləşir. Yaşayış yerinin invertar kodu 4092, sistem kodu isə AJA003890 - dır.Bu yaşayış yerinin tarixi 1900-cu ilə aid edilir.

## 2.Qalalar və Qala qalıqları(7 ədəd)



**1.Alaşa qalası.**(Divonkə)Alaşa qalası Astara rayonu ərazisində,Astara şəhərindən İstisu mineral bulaqlarına gedən yolun sağ tərəfində,Hirkan qoruğuna daxil olan məntəqəyə yaxın bir ərazidə,Talış dağlarının başında yerləşir.Qalanın yaranma tarixi haqda mənbələrdə dəqiq bir məlumata rasty gəlinmir.Qala sal qaya üzərində tikilmiş müşahidə və ya mudafiə xarakterlidir.Qala daşlarına baxsaq onun 3 müxtəlif dövürdə aparıldığı açıq şəkildə bilinir.Birinci dövr çox qədim zamanlarda, ikinci dövr orta əsrlərdə , üçüncü dövr

osə XIX əsrin əvvəllərində.Belə ki, birinci və iknci dövrlərdə aparılmış tikililərin qalıqları qalmaqdadır,üçüncü dövrə aid olan tikili isə dövrümüzə qədər qalmaqdadır.Bu tikili ağ və qırmızı kərpicdən hörülmə tağ formasında olub,su axını üçün yer,suyun axıdılmasını təmin etmək üçün qayaların içindən saxsı borular (su tingləri) aydın görünür.Qalanın qədim tikililəri-kərpic qalıqları torpaq sürüşmələri nəticəsində ətrafa səpələnmişdir.Sal qaya daşının üstündə xarabalıqlar,tikinti qalıqları,kərpiclə əhəng nişanələri aydın görünür.Sal daşları arasından aşağıya tərəf eni 1-m olan bir yeraltı yol var və bu yol getdikcə aşağıya doğru uzanır.Qalanın üst hissəsindəki ərazi təqr.1 hektarlıq bir sahəni əhatə edir.Qalanın lap hündür yerindən baxanda.Astara şəhəri, İran Astarası,Savalan dağı,Ərdəbilə gedən yol əl içi kimi görünür.Bişmiş kərpicdən hörülmüş qalanın qalıqları qalmaqdadır.Ümumən bu qala ərazisində arxeoloji qazıntı işləri aparılmışdır.Bu qala bəzi tarixi ədəbiyyatlarda “Divon kə” kimi də qeyd olunur.*(Bax:Tufan Axundov.B.,2009,səh.18).Şəkil.Alaşa qalası.*



**2.Kafu qalası**(Kalakafo).Kafu qalası Talış dağlarının Astara rayonu hissəsində, Hamoşam və Bio kəndləri yaxınlığında yerləşir. Qala vaxtilə ərazini xarici düşmənlərdən qorunmaq üçün tikilmiş və güclü istehkamlardan biri olmuşdur.Kafu qalası Şindan qalası kimi xalq qəhrəmnanı Babəkin ümumən ərəb işğalçılara qarşı muharibədə sığınacaq istehkamlarından biri olmuşdur.

**Tufan Axundov qala haqda yazır:** Qala Kafu qalası şimal-cənub boyu uzanan qayalı belin üstündı ucalmışdır.Kalfu qalasının hündürlüyü bəzi yerlərdə 70 metr,bəzi yerlərdə isə 150

metrə çatır.Ərazisi 60X30 metr olub,belə paralel gərilmişdir.Qaya mərkəzi hissəsində yarılmış kimi olduğundan ikibaşlı forma almışdır.Zirvə 8-10 metr aşağıda yerləşən yarğanın dibi məqsədli şəkildə düzəldilmiş və nəticədə meydança əmələ gəlmişdir.Meydançanın 14-16 metr olan eni ,şimaldan və cənubdan yüksələn qayalarla sərhədlənir.Onun uzunluğu 25 metr olub,qərb-şərq istiqamətində uzanır və təbii hüdud olmadan sərt kəsilir.*"(Astarada 20 gün.B.2009.səh.46)*
Qala müxtəlif zamanlar dağıntılara məruz qaldığından indi yalnız onun aşağı hissəsində qala divarlarının qalıqları gözə çarpmaqdadır.Ehtimal ki, bu divar qalıqları güclü yağış sularının yağmasından əmələ gələn boşalma nəticəsində qaya ilə bərabər uçmuşdur.Belə ki, qala divarlarının qalıqları onun ətrafında olan əraziyə səpələnmişdir.Bundan əlavə qalanın ətrafgında 2 hektara yaxın ərazidə orta əsrlərə aid qab-qacaq, silahlar, ox ucluqları. müxtəlif cür qılınc və nizələr,saxsı qabların olması qaladan aşağıda qədimdə qala şəhərciyinin olmasını mümkünmləşdirir. Ayrıca olararaq oradakı ərazidə 2,7 x 1,3 metr ölçüdə,təqribən 2 metr dərinlikdə hovuz çapılmışdır.. Tarixçilər qalanı IX-XVII əsrlərə aid edirlər.Tarixi mənbələrdə qala Kafu, Kalfu, Kalakafu kimi də qeyd olunur.Bu qala Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən IX-VII əsrlərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Qalanın invertar nömrəsi 823-dür. *Şəkil.Qala Kafu*



**3.Minarə qalıqları**(Ərçivan kəndi).Minarə qalıqları yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Ərçivan kəndi ərazisində yerləşir.Abidənin tarixi XIII əsrə aiddir və invertar

nömrəsi 4119 – dur.*Şəkil.Minarə qalıqları.*

**4.Nüdüzd qalası**(Dızdə qala)(Təngərüd kəndi).Nüdüz qalası Astara rayonunun Toradi kəndinin qərbində yerləşir, hündürlüyü 100-150 metr olan kiçik dağda yerləşir.Bu qala"nın adı talışcadı və azərbaycan dilinə tərcümədə "dızd" – oğru, ğələ" isə qala deməkdir.Bu qalanın digər adlarından birei də "Nüdüzd" qalasıdır."Nüdüzd" sözü talışca "Nü"-yeni,"Düzd" – oğru deməkdir.Lakin el arasında bu qalanı yerləşdiyi əraziyə görə Təngərüd qalası da adlandırırlar.Bu qala təbii qala olmaqla çox qədim zamanlardan bəri yaşayış məskəni olmuşdur.Qalanın cənubunda şmalına olan olan hissəsi 20-30 metrə çatır.Qalanın orta hissəsi şimal-cənub,qərb və şərqdən hündür sıldırım ətəkli,şimal və cənub hissəsi isə kanyon formalı dərin xəndəklə əhatələnib.Sözügüdən yer bu qalanın ən enli və yatay hissəsidir.*(Bax:Tufan Axundov. Astarada 20 gün. B.,2009,səh.8)*. Dizdəqala özlüyündə mühafizə divarlar sədlərio ilə əhatələnib.Bu divar qalıqları eni 2-3 metr olala dağılmış formada günümüzə qədər qalmaqdadır.Qalanın iç tərəfdən ən hündür hissəsi 0,5-dən 1 metrə qədərdir.Qalanın bu xaraba divar qalıqları çöl tərəfdən daha hündür görününr və bəzi yerlərədə divarın açıq və düzgün hörgü nizamı daha aydın şəkildə göreünməkdədir.Dızdəqala qalası haqda Tufan Axundov belə yazır: "Uzuynluğu 50 metr olan qərb divar(dağıntı) düzdür və şimal –cənub istiqamətində uzanmaqdadır.Cənubda o, 18 metrə yaxın uzunluqda olaraq xəndəyə paraleldir.Cənub və şərq divarların qovşağında ola bilsin ki qüllə qalıqları olan oval çıxıntı vardır.Şərq divar 20-25 metr uzunluqda düzdür,qərb divara paralel olub,sonradan isə şimalda bucaq altında azacıq qərbə dönür və şimal qurtaracağına qərb divarı ilə 7 metr olan oval əmələ gətirir.Çox güman ki burada da qüllə olmuşdur".(bax

yenə orda., səh.8).Bu qalanın qalıqları günümüzə qədər az da olsa qalmışdır.

**5.Orta əsr yaşayış məntəqəsinin və qalanın qalıqları**(Ərçivan kəndi).Qala qalıqları yerli əhəmiyyətli memarlıq abidəsidir. Abidənin Astara rayonunun Ərçivan kəndinin ərazisində yerləşir. Abidənin invertar nömrəsi 4120,sistem kodu isə AJA003919-dur.



**6.Şindan qalası.**Şindan qalası Astara rayonunun ən dağlıq ərazisinin ən uca zirvəsində yerləşir.Qala daş kərpiclə hörülüb və oraya şimal tərəfdən ancaq bir yol vardır, gözətçi və sərkərdənin müşahidəsi üçün düzəldilmiş xüsüsi yerlər maraq doğurur. Qalanın dəniz səviyyəsindən 1900 metrə yüksəklikdə olması onun yadelli işğalçılardan mühafizə məqsədi ilə tikildiyini söyləməyə əsas verir. Yerli xalqda olan inanca görə Şindan qalası Babəkin qalalarından biridir. Ona görə də bu gün Astarada "Şindan" qalasının adı ilə bağlı mehmanxana, ticarət mərkəzi, rəqs qrupu,musiqi ansamblı,el aşığı qrupu və sair vardır. Azərbaycanın qədim guşələrindən biri kimi Astara əsrlər boyu müharibə meydanı olmuşdur.Heç də təsadüfi deyildir ki, 1638-ci ildə Astarada olmuş məşhur alman səyyahı Adam Oleari yazırdı: "Astaralılar həmişə silahı hazır saxlayırlar".Şindan qalsı haqqında tarixçi Səidəli Kaımbəyov özünün “Səidiyyə” kitabında yazır: Şindan qalası yüksək bir zirvədə yerləşir və onun hansı tarixi dövrdən bizə yadigar qalması məlum deyil"*(Bax:”Səidiyyə”Bakı, 2005, səh. 112).*Professor Nadir Məmmədov Şindan qalasını bizim eranın III əsrinə aid edir və bu qalanın məhz Sasanilər imperatorluğu dövründə tikildiyini qeyd

edir.*(Bax:”Azərbaycan yer adları”. B, 1993. səh. 168).*Belə ki, Şindan qalasının hündürlüyü təqribən 18 metrdir, üst sahəsi isə 1 hektardır.Qala əsasən iki hissədən ibarət olmuşdur və qalaya girən yerdə daşdan pilləkən də mövcuddur. Daha sonralar isə Orta əsrlərdə bu qala xarici yadellilərdən qorunmaq üçün sığınacaq kimi istifadə olunmuşdur.Ağqoyunlu sultanı Uzun Həsən (1453-1478)Astara hakimi Əmir Sultana bərk qəzəbi tutur və onu cəzalandırmaq üçün onun üzərinə qoşun göndərir.Ağqoyunlu Türkmən qoşununun yaxınlaşdığını görən Astara hakimi Əmir Sultan öz dəstəsi ilə dağlar çəkilərək əlçatmaz Şindan qalasında gizlənib özünə istehkam qurur. Astaraya gələn Ağoyunlu qoşunları əlçatmaz Şindan qalasına qalxa bilmədiklıəri üçün kor-peşiman geri dönməyə məcbur olurlar.Bu hadisədən sonra Şindan qalasının əhəmiyyəti artır və o hətta səfəvilər dövründ də strateji bi yer kimi öz əhəmiyyətini qoruyub saxlaya bilir.Yerli cammatın Şindan qalasına marağı o qədər artır ki hər hansı bir təhlükədə dərhal oraya qalxıb bir müddət gizlənə bilirdilər. Belə ki, XVI əsrdə Astara hakimi olan Əmir Həmzə Səfəvi şahı I şah Abbasa vergi verməkdən boun qaçırır.Bundan bərk qəzəblənənşah I Təhmasb Əmir Həmzənin tutulub gətriliməsi üçün Astaraya qoşun göndərir.Astaraya göndərilən Səfəvi qoşununun başında Zülqədar tayfasından olan Zülqədar xan dururdu.Zülqədar xan hələ şah I İsayılın vaxtında onun dəstəsində Talışa gəlmiş və Talışın ozamankı hakimi olan Mirzə Məhəmməd xan onları Talışda qonq etmiş və hətta Şindan qalasına belə aparmışdı.Şindan qalasını yaxşı tanıyan Zülqədar xan oraya qalxır. Lakin yaz fəsli olduğundan o qalanı 9 ay mühasirədə saxlasa da onu ala bilmir.Yağışda yaxşı islanmış və qurşağa qədər palçığa batmış Səfəvi əsgərləri yorulub əldən düşürlər. Bu zaman Zülqədir xan danışıq üçün qalaya Biyəpüş hakimi Hüsyn Şamlunu göndərir.Hüseyn xan şamlu ilə çoxdan köhnə tanış olan Astara hakimi Əmir Həmzə qalanı ona təslim

etməyə razı olur.O əvəzində isə ona Şirvana getməyə icazə verilməsini şərt qoyur. Tərəflər razılığa gələndən sonra Astara hakimi Əmir Həmzə ona tabe olan əsgərlərələ Səfəvi qoşununun içindən sakitcə keçərək Şirvana tərəf üz tutur.O gedəndən sora isə Şindan qalası Lənkəran və Astara il birlikdə Zülqədar xana ümumi feodal qaydada iqta olaraq verilir.*(M.Ə.M.Xudaverdioğlu "Əxbarnamə".B.,2009.,səh.160).*1768-ci lldə Gilanlı Hidayət xan Taışa hücum edndə Talış xanı Cəmaləddin (Qara) xan öz dəstəsi ilə Şindan qalasına sığınır və oradan müqavimət göstərir.*(Bax:Azərbaycan tarixi.IX sinif dərslik kitabı.B.,2005.səh.130).*Rusiya tarixçisi S.Zavedski 1903-cü ildə Şindan qalasın olmuş və və öz xatirələrində belə yazmışdır: "”Çox hayıf olsun ki o əzəmətli Şindan qalasını yerli əhali dağıdır və onun kərpiclərindən evlər tikirlər.*”(Əfqan Şəfiyev.Azərbaycanın cənub bölgəsnin tarixi və mədəniyyət abidələriş.B.,2007.,səh.70)*Sonuncu dəfə Talış xanı Qara xan Gilanlı Hidayət xanın hücumundan qorunmaq üçün məhz bu qalaya sığınmışdır.

**7.Yekdəst qalası**(Təngərüd kəndi).Yekdəst qalası Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir.Qalanın tarixi Orta əsrlərə təsadüf edir.Qala müdafiə xarakterli olmuş və yadelli zülmünə qarşı mubarizədə sığınacaq yeri rolunu oynamışdır. Yekdəst qalası Astara rayonunun Təngərud kəndinin mərkəzindən 4 km aralıqda,yerli əhali tərəfindən "Təkə" adlanan zirvədə yerləşir."Yekdəst" sözü talış dilində "tək əl" mənasını verir.Bu qala müdafiə məqsədi ilə və yadelli işğalçılara qarşı mubarizədə sığınacaq yeri kimi tikilib.Yekdəst qalası kəndin ən hündür zirvəsində yerləşdiyindən,oradan ətrafı tam müşahidə etmək mümkündür.Qalaya gedən yolda qırmızı kərpicdən pilləkənlar, onun ərazisinin daşlıq olması, həm də ərazidə bulaq

yerləşməsi buranın əvvəllər yaşayış yeri olduğunu göstərir. Yekdəst qalasının qalıqlarını bu gün də görmək mümkündür.

## 3.Qədim qəbiristanlıqlar(15 ədəd)



**1.Görinəbi qəbiristanlığı** (Zəngüləş kəndi).Görinəbi qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Zınquləş(Züngüləş) kəndi ərazisində yerləşir. Görünəbi qəbiristanlığının tarixi Orta əsrlərə təsadüf edir.Görinəbi qəbiristanlığı Astara rayonunun Züngüləş kəndi ərazisində yerləşir. Qəbiristanlıq orta əsrlərə aid edilir.Bu yer,həmçinin "Gürü Nəbi","Vələd Nəbi" və "Quru Nəbi Piri" kimi də adlandırılır.Görinəbi qəbiristanlığının adı burada dəfn olunan Nəbi adlı şəxslə bağlıdır **[2].**Hirkan Milli parkının müfəttişi Mədət Kərimov "Sputnik.az" saytına verdiyi müsahibədə onun haqqında deyib: "Qəbiristanlıqda dəfn edilən Nəbi adlı şəxs haqqında çox da dəqiq məlumatım yoxdur.Lakin ağsaqqallarımızdan eşitdiyimə əsasən,bu şəxs İrandan köçüb gəlib və Züngüləş kəndində məskən salıb.Bu qəbiristanlıqda dəfn edilib.Quru Nəbinin seyid və böyük din xadimi olması ehtimal edilir".Yerli əhalinin sözlərinə görə, buraya ziyarətə gələnlər niyyət tutur,məzarın yanında şam yandırırlar,həmçinin dua edərək öz arzularına çatır və şəfa tapırlar.Deyilənə görə,vaxtilə məzarın üzərində türbə inşa edilib.Lakin bir gün kənd camaatı

görüb ki, məzar daşı pirdən aralıda, çöldə qalıb.Bunun necə baş verdiyini bu günə qədər kimsə bilmir.Bu səbəbdən də bir daha Nəbinin məzarı üzərində hər hansı tikili inşa edilməyib.Bu qəbiristanlıqda Nəbinin qəbri ilə yanaşı, çox sayda naməlum və üstü daşlarla örtülən məzarlar var.Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Qəbiristanlığın invertar nömrəsi 5771,sistem kodu isə AJA005573-dür. *Şəkil. Görənib qəbiristanlığı.*



**2.Hamiyəhi dədə qəbiristanlığı** (Dolu kəndi).Hamiyəhi dədə qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Dolu kəndi ərazisində yerləşir.Qəbiristanlığın tarixi orta əsrlərə aiddir.Beləki ümumiyyətlə bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Qəbiristanlığın sistem kodu 5776, sistem kodu isə AJA005578-dir.*Şəkil.Hamiyəhidədə qəbiristanlığı.*



**3.Köhnə qəbiristanlıq**(Təngərüd kəndi).Təngərüd köhnə qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Təngərüd kəndi ərazisində Pir Həbib adlı ziyarətgada yerləşir.Qəbiristanlığın tarixi Orta əsrlərə aiddir. Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 5764,sistem kodu isə AJA005566-dır. *Şəkil. Təngərüd köhnə qəbiristanlığı.*



**4.Köhnə qəbiristanlıq**(Pensər kəndi). Bu köhnə qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Pensər kəndi ərazisində yerləşir. Qəbiristanlığın tarixi Son orta əsrlərə təsadüf edir. Qəbiristanlığın invertar nömrəsi 5756,sistem kodu isə AJA005567-dir. *Şəkil. Köhnə qəbiristanlıq.*

**5.Köhnə qəbiristanlıq(**Qandalaş kəndi).Köhnə qəbiristanlıq yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Qandalaş kəndinin şimal-qərbində yerləşir.Qəbiristanlığın tikilmə tarixi Son orta əsrlərə təsadüf edir. Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Son Orta əslərə aid yerli əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.

Qəbiristanlığın invertar nömrəsi 6763,sistem kodu isə AJA005565-dir.

**6.Köhnə qəbiristanlıq**(Pensər kəndi).Bu köhnə qəbiristanlıq terli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Pensər kəndi ərazisində yerləşir. Qəbiristanlığın tikilmə tarixi son Orta əsrlərə aid edilir.Bu qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Son Orta əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar kodu – 5765, sistem kodu isə - AJA005567 – dir.



**7.Qədim daş qəbiristanlıq** (Hamoşam kəndi).Bu qədim qədim qəbiristanlıq yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Hamoşam kəndi ərazisində yerləşir.Qəbiristanlığın tikilmə tarixi Son Orta əsrlərə aiddir.Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Qəbiristanlığın inventar nömrəsi 5769,sistem kodu isə AJA005571-dir.*Şəkil. Hamoşam qəbiristanlığı.*



**8.Qəiristanlıq**(Vaqo kəndi).Bu köhnə qəbiristanlıq yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Vaqo kəndi ərazisində yerləşir.Qəbiristanlğın tarixi Orta əsrlərə təsadüf edir.Bu köhnə qəbiristanlıq Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli a rxeoloji abidə kimi qeydə alınmışdır.Bu qəbiristanlıq Qəbiristanlığın invertar növü 5766,sistem kodu isə AJA005568-dir. *Şəkil.Vaqo qəbiristanlığı.*



**9.Qəbiristanlıq(**Maşxan kəndi). Bu köhnə köhnə qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir. Qəbiristanlığın tarixi Orta əsrlərə təsadüf edir.Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Abidənin sistem kodu 5767,sistem kodu isə AJA005569-dur. *Şəkil. Maşxan qəbiristanlığı*



**10.Qəbiristanlıq** (Siyatük kəndi). Bu köhnə köhnə qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir. Qəbiristanlığın tarixi Orta əsrlərə təsadüf edir.Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin sistem kodu 5770,sistem kodu isə AJA005571-dur.*Şəkil.Siyatük qəbiristanlığı.*



**11.Qəbiristanlıq**(Sibiyyət kəndi). Bu qədim qəbiristanlıq yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Sibiyyət kəndi ərazisində yerləşir.Qəbiristanlığın tarixi orta əsrlərə təsadüf edir. Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Qəbiristanlığın invertar nömrəsi 5777,sistem kodu isə AJA005579-dur. *Şəkil.Sibyət qəbiristanlığ*



**12.Qəbiristanlıq**(Səncərədi kəndi). Bu qədim qəbiristanlıq yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonu ərazisində yerləşir. Qəbiristanlığın tikilmə tarixi orta əsrlərə təsadüf edir.Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Abidənin invertar nömrəsi 5779, sistem kodu isə AJA005581-dir.*Şəkil. Səncərədi qəbiristanlığı.*



**13.Qəbiristanlıq**(Artupa kəndi). Bu qədim qəbiristanlıq yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Artupa kəndi ərazisində yerləşir.Qəbiristanlığın tarixi orta əsrlərə təsadüf edir.Bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Qəbiristanlığın invertar nömrəsi 5780,sistem kodu isə AJA005582-dir. *Şəkil. Artupa qəbiristanlığı.*



**14.Pir Əbülqasım qəbiristanlığı** (Səraq kəndi).Pirəbülqasım qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Səraq kəndi ərazisində yerləşir.Qəbiristanlığın tarixi orta əsrlərə təsadüf edir.Ümumən bu köhnə qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Qəbiristanlığın invertar nömrəsi 5778,sistem kodu isə AJA005580-dır.*Şəkil.Pir Əbülqasım qəbiristanlığı.*



**15.Şeyx Dilim qəbiristanlığı** (Diqədi kəndi).Şeyxdilim qəbiristanlığı yerli əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Diqədi kəndi ərazisində yerləşir.Qəbiristanlığın tarixi orta əsrlərə təsadüf edir.Bu qəbiristanlıq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əslərə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Qəbiristanlığın invertar nömrəsi 5772,sistem kodu isə AJA005574-dür.*Şəkil.Şeyx Dilim qəbiristanlığı.*

## 4. Kurqanlar(12 ədəd)



**1.Baba Cəbrayıl kurqanı** (Təngərüd kəndi).Baba Cəbrayıl kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir.Kurqanının yaranma tarixi Tunc dövrünə təsadüf edir.Kurqanın invertar nömrəsi 817,sistem kodu isə AJA000840-dır.*Şəkil Cəbrayıl kurqanı*



**2.Baba Hummət kurqanı** (Maşxan kəndi).Baba Hümmət kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir və ümumən Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir.Kurqanın yaranma tarixi Tunc dövrünə

təsadüf edir.Beləki Baba Hümmət kurqanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır. Abidənin invertar nömrəsi 822,sistem kodu isə AJA000845-dir.*Şəkil. Baba Hümmət kurqanı.*

**3.Binabəy kurqanları**.(Hamoşam kəndi) Binabay kurqanları ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Binabay kəndi ərazisində yerləşir.Kurqanların yaranma tarixi Tunc dövrünə aiddir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır Binabəy kurqanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 833,sistem kodu isə AJA000856- dır və hal-hazırda mövcud deyil.



**4.Biyaylaq kurqanı(**Hamoşam kəndi).Biyaylaq kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir .Biyaylaq kurqanı Astara rayonunun Hamoşam kəndi yaxınlığında yerləşir.Biyayalaq kurqanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin tarixi Tunc dövrünə təsadür edir. Kurqanın invertar nömrəsi 824, sistem kodu isə AJA000847-dir. *Şəkil.Biyaylaq kurqanı*



**5.Korəoba kurqanları** (Karoba -3 ədəd Korəoba kəndi).Krəoba kurqanalrı ölkə əhəmiyyətli arxeoloji abidədir və Korəoba kurqanı Astara rayonunun Korəoba kəndi ərazisində yerləşir. Kurqanın yaranma tarixi tunc dövrünə təsadüf edir.Korəoba kurqanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır. Abidənin invertar nömrəsi 837, sistem kodu isə AJA000860-dır. *Şəkil.Koraoba kurqanları.*

**6.Kurqan**(Pensər kəndi).Bu kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Pensər kəndi ərazisində yerləşir. Kurqanın yaranma tarixi Tunc dövrünə təsadüf edir.Bu kurqan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Kurqanın invertar nömrəsi 819, sistem kodu isə AJA00842-dir.



**7.Kurqan abidəsi** (Artupa-Əxicbəl kəndi).Atrupa kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Atrupa yaxınlığındakı kəndi ərazidə yerləşir.Kurqanın yaranma tarixi tunc dövrünə aidir.Bu kurqan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə

alınmışdır.Abidənin invertar nömrəsi 829,sistem kodu isə AJA000852-dir. *Şəkil.Artupa kurqanları.*



**8.Kurqanlar** (3 ədəd-Divə kə qala qalıqları).Alaş kurqanları ölkə əhəmiyyətli arxeoloji abidədir və Alaşa kurqanları Astara rayonunun Alaşa kəndinin şimalında yerləşir. Kurqanların yaranma tarixi Tunc dövrünə təsadüf edir.Bu kurqan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 830, sistem kodu isə AJA000853-dür.*Şəkil. Alaşa kurqanları.*



**9.Pir Seyid Camal kurqanı** (Pensər kəndi). Pir Seyid Camal kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Pensər kəndi ərazisində yerləşir. Kurqanın yaranma tarixi Tunc dövrünə təsadüf edir. Pirseyid Camal kurqanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Kurqanın invertar nömrəsi 820, sistem kodu isə AJA000843-dür.*Şəkil..Pir Seyid Camal kurqanı.*

**10.Siyaku kurqanları**(4 ədəd).Siyaku kurqanları ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Siyaku kəndi

ərazisində yerləşir.Kurqanların yaranma tarixi Tunc dövrünə təsadüf edir.Siyaku kurqanları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır. Kurqanların invertar nömrəsi 827, sistem kodu isə AJA000850-dir.



**11.Təngərüd kurqanı.**Təngərüd kurqanı ölkə əhəmiyyətli arxeoloji abidədir və Təngərüd kurqanı Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir. Kurqanın yaranma tarixi Tunc dövrünə təsadüf edir.Təngərüd kueqanları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Kurqanın invertar nömrəsi 818,sistem kodu isə AJA000841-dir.*Şəkil. Təngərüd kurqanları.*



**12.Vaqo kurqanaları**. Vaqo kurqanları ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Vaqo kəndi ərazisində yerləşir. Kurqanın yaranma tarixi tunc dövrünə təsadüf edir.Ümumən Vaqo kurqanları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Tunc dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə

alınmışdır .Kurqanların invertar nömrəsi 821,sistem kodu isə AJA000844-dür. *Şəkil.Vaqo kurqanları.*

## 5.Nekropollar(4 ədəd)

**1.Daş-qutu nekrolpolu** (Əzəru –Azarud kəndi). Azarud daş-qutu nekropolu ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Azarud kəndi ərazisində yerləşir. Nekropolun tarixi e. ə. II minilliyin əvvəlinə təsadüf edir. Azarud daş-qutu nekropolu öz qədimliyinə görə dünyanın ən qədim nekropolundan hesab edilir.Bu nekropol Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən e.ə.II-I mnilliyə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar növü 832,sistem kodu isə AJA000855-dir.



**2.Koraoba daş-qutu nekropolu**. (Kürdoba kəndi).Korəoba daş-qutu nekropolu ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Korəoba kəndi ərazisində yerləşir.Bu nekropolun yaranma tarixi Dəmir dövrünə aiddir.Beləki, nekropol öz tarixinə görə dünyanın ən qədim nekropollarından biridir. Koraoba daş-qutu nekropolu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Dəmir dövrünə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 838,sistem kodu isə AJA000861-dir. *Şəkil.Korəoba daş-qutu nekropolu.*



**3.Miki dolmen nekropolu**.Miki dolmen nekropolu ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Miki kəndi ərazisində yerləşri. Nekropolun yaranma tarixi e. ə. II minilliyin sonu-I minilliyin əvvəlinə təsadüf edir. Nekropol öz tarixinə görə dünyanın ən qədim nekropollarındandır.Bu nekropol Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən e.ə. II-I minilliyə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 840, sistem kodu isə AJA000863-dür.*Şəkil.Miki dolmen nekropolu.*

**4.Xolobin daş qutusu nekropolu**(Rıvədılə kəndi). Xolobin daş qutusu nekropolu ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunun Rıvadıla kəndi ərazisində yerləşir. Xolobin nekropolu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən e.ə. V-I əsrlərə aid ölkə əhəmiyyətli rxeoloji abidə kimi qeydə alınmışdır Abidənin invertar nömrəsi 841, sistem kodu isə AJA000864-dür.

## 6.Şəhərgahlar(2 ədəd)

**1.Şəhərqo**(Şəhərgah)(Ərçivan kəndi).Şəhərgah yerli əhəmiyyətli memarklıq arxeoloji abidədir və Astara rayonunun Ərçivan kəndi ərazisində yerləşir. Şəhərgahın tarixi orta əsrlərə təsadüf edir. Şəhərgahın invertar nömrəsi 5781, sistem kodu isə AJA005583-dür.



**2.Çıləvliyo şəhər yeri.(**Sərək kəndi).Çələvliyo şəhər yeri ölkə əhəmiyyətli arxeoloji abidəsdir və Astara rayonunun Sərək kəndi ərazisində yerləşir. Abidənin yaranma tarixi X-XII əsrlərə aiddir. Abidənin invertar nömrəsi 825, sistem kodu isə AJA000848-dir. *Şəkil.Çıl Əvliyo şəhər yeri.*

## 7.Türbələr və türbə qalıqları(46 ədəd)

**1.Arta ocağı(**Artupa kəndi).Arta ocağı Astara rayonu Artupa kəndi ərazisində yerləşir.Burada iri nil ağacları var və müqəddəs ocağın kəraməti ilə maüxtəlif diləklərinə çatmış insanlar tərəfindən həmişə qurbanlar kəsilir.Qeyd etmək lazımdır ki, Arta adlı kənd Lerik rayonunun Osyedərə inzibati ərazi vahidində də var.Belə ki,Hind-İran mifologiyasında Arta adı Arilərdə ilahə adı olub və Ərdəbil şəhərinin qədim adlarından biri də Artavetidir və mənası da qədim farscadan "Artanın məbədi"deməkdir. *(Bax: Gevond,səh.72).*Belə ki, 730\731-ci ildə xəzər və türklərin 300 minlik ordusu *(Bax:Gevond, səh. 71-72;Təbəri, II,1530-31; İbn əl-Əsir,V,118).*Barçikin komandası altında ərəblərə qarşı əks-hücüma başlayıb Dərbənd,Daryal və digər keçidlərlə Arran ərazisinə soxuldu*(Bal'ami,səh.517).*Əl-Cərrah öz qoşunlarını Bərdə yolu ilə Ərdəbilə çəkdi və orada hadisələrin inkişafını gözləməyə başladı.Xəzərlər ərəb qoşunlarının harada yerləşdiyini bir gürcü knyazından öyrəndilər İki ordu Araz sahilində qarşılaşdı. Ərəblər xəzərlərin üstün qüvvələrinin təzyiqi altında Ərdəbilə tərəf çəkildilər; burada Savalan dağı yaxınlığında onların arasında bir gecə-gündüz davam edən böyük vuruşma oldu.Ərəblər tamamilə məğlub edildilər,Əl-Cərrah öldürüldü

*(Bax:История Агван,стр.261; əl-Malik,səh.79; Təbəri,II,1521; Əz-Zəhəbi, səh.56; Dərbəndnamə,səh.175-176; İbn əl-Əsir,V,118; "Aqvan tarixi"nə görə əl-Cərrah erm. erasının 179-cu ilində (28.V.730-727,V. 731)*, ərəb mənbələrinə görə əl-Cərrah 112-ci-hicri *(26.III.730-14.III, 731)*,ilində öldürülmüşdür.*(Bax: Baratov.Sit.gət.əsər,səh.79).*Xəzərlər uzun mühasirədən sonra Ərdəbili aldılar, şəhərin kişi əhalisini qırdılar, qadın və uşaqları isə aəsir apardılar *(Bax: İbn-əl-Əsir, hicri 112-ci il; Feofan, səh. 626;Gevond, səh. 72).*Sonra xəzər ordusu Azərbaycanı viran etdi,ölkənin şəhərlərini bir birinin ardınca tutub Diyarbəkir və Mosula çatdı*(Bax: əz-Zəhəbi,səh.56-57; İbn-əl-Əsir,V.118*)Gevond xəzərlərin basqını barədə belə məlumat verir:Onlar ,yəni "Hunlar torpağından, Çor keçidindən, maskutların torpağından keçərək Paytakaran ölkəsinə basqın etdilər;Araz çayından düz keçib Azərbaycana getdilər,sonra isə Artaveti, Qandzak-Şahastani, Atşi- (Bax:Bal'ami, səh. 520).Yerli camaat bu yerə "Əxicəbi " deyir və burada kurqaüstü qəbirlər də var. Bundan əlavə bu yerdə lağım(yeraltı tünel) da var.Belə ki 90-cı illərin əvvəlləri̇ndfə burada qanunsuz olaraq qazıntılar aparılmışdır və çoxlu sayda bəzək əşyaları tapılmışdır.

**2.Baba Cəbbar türbəsi**(Təngərüd kəndi).Baba Cəbbar türbəsi Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir.Türbə hündür təpəlikdəki palıd, şümşad və dəmir ağacı ilə əhatələnmiş kurqanın üstündə yerləşir.El arasında deyirlər ki,Baba Cəbbar Baba Cəbrayılın atası olmuşdur.Kurqanın lap üstündə qədim bir qəbiristanlıq da mövcuddur ki tədqiq olunmamışdır və burada dolmen və kromlex tipli qəbirlər var.

.



**3.Baba Cabrayıl türbəsi** (Təngərüd kəndi).Baba Cəbrayıl türbəsi Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir. Türbənin tikilmə tarixi Orta əsrlərə təsadüf edir.Türbə düzbucaqlı formada olmaqla divarları qırmızı kərpicdən hörülüb və türbənin damı kirəmitlə örtülüb.Beləki bu türbəni bir giriş qapısı və bir giriş pəncərəsi var və türbənin sahəsi 4,5x5,5 metrdir,hündürlüyü isə 2 metrdir.Türbə yalnız bir otaqdan ibarətdir və türbənin içərisində Baba Cəbrayıl adlı şəxsin qəbri yerləşir.Yerli camaatın dediklərinə görə Baba Cəbrayıl seyid olmuş və bir zamanlar təqiblərdən yaxa qurtarmaq üçün bu əraziyə pənah gətirmiş əshabələrdəndir.Türbədə 1993-cü ildə təmir-bərpa işləri aparılmışdır.Lakin sonradan baxımsızlıq ucubatından yararsız hala düşşən türbəni Astara rayonunun Şiyəkəran kənd sakini Ədalət Hidayət oğlu İbrahimov öz şəxsi maliyə vəsaiti hesabına abadaşdırmış və 2014- cü ildə Baba Cəbrayılın qəbri üstündə məqbərə tikdirmişdir.Bu yeni tikilən məqbərə öz eyvanı ilə birlikdə uzunluğu 8 metr, eni 6 metr, dama qədər hündürlüyü 3 metrdir.Türbə hündür təpəlikdəki palıd, şümşad və dəmir ağacı ilə əhatələnmiş kurqanın üstündə yerləşir. Bu abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarı ilə 817 invertar nömrəsi ilə Tunc dövrünə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydiyyata alınmışdır.*Şəkil.Baba Cəbrail türbəsi.Foto-İlham İlhami.*



**4.Baba Rəsul türbəsi**(Toradi kəndi). Baba Rəsul türbəsi Astara rayon mərkəzindən 30 km aralıda, Toradi kəndinin mərkəzində yerləşir.Türbənin yaranma tarixi - IX-XIII əsrlərə təsadüf edir və buraya hər yerdən ziyarətgaha gələnlər olur.Baba Rəsul XIV əsrdə yaşamış bir şəxsiyyət olmuş və yazılı mənbələrdə Baba Rəsulun 1400–cü ildə yaşadığı və onun Baba Cəbrayılın oğlu olduğu göstərilir.Baba Rəsulun qəbrinin üstündə bir məqərə inşa edilmiş və qəbir sahibinin sinə daşı həmin məqbərənin sol tərəfindəki divara bərkidilmişdir.Bu sinə daşı kəhrəbadan çox nəfis şəkildə hazırlanmış,üzərində Quran-i Kərimdən ayələr qabartma üsulu ilə ərəb qrafikası ilə işlənmişdir. Daş üzərindəki yazıdan məlum olur ki,bu məqbərənin tikintisində 29 kq duzdan da istifadə olunub.Məlumata görə,qəbrin üzərindəki məqbərə-ziyarətgahı,o,vəfat edəndən sonra orta əsrlərdə inşa edilmişdir. Bina qırmızı kərpicdən inşa olunmuş, qapısı qövsvari tağ şəkilli düzəldilmişdir.Ərazidə yeganə orta əsr tikilisidir ki, dövrümüzə qədər gəlib çatmışdır.Yerli əhalinin dediklərinə görə ürəyi xəstə olan (epilepsiya) şəxslər bu ocağa pənah gətirdikdə şəfa tapırlar.Baba Rəsulun varisləri Ərdəbilin Nəmin mahalında yaşayırlar.Bəzi yerli və yaşlı sakinlərin dediyinə görə gəlin daşları adı zalım əjdahanın toy məclisinin bütün üzvlərini daşa döndərməsi haqqında əfsanə ilə bağlıdır.Əcaib qayalardan biri yırtıcı başına bənzəyən formasına görə toy karvanının bütün üzvlərini daşa çevirdiyi güman edilən əjdahanın adını alıb. Ehtimal olunur ki,gəlin daşlarının bu adı alması qədim zamanlarda icra edilən ayinlərin əks sədasıdır.Bu türbə Baba Rəsul adlı bir ağır seyidin adı ilə bağlıdır və əsasən yaxın kəndlərin əhalisi tərəfindən ziyarət olunur.Rəvayət edildiyinə

görə Teymurləng (Orta Asiyada iri feodal hakimi olmuş) öz qoşunu ilə Torədi kəndindən bir neçə kilometr aralıqada yerləşən "Bİ"yaylağında dincəlirmiş.O,həmişə özünəməxsus Şahin quşunu pərvazlandırmaqdan böyük həzz alırmış.Bir dəfə quş Baba Rəsulun toyuq-cücəsindən aparmaq istəyəndə kamil şəxsiyyət onu tutub saxlayır.Xəbər Teymurləngə çatır və o, qəzəblənmiş halda cəlladı onun üstünə yollayır. Lakin əlində qılıncı daşa dönmüş kimi, yerə sərildiyini görürlər.Bu xəbəri Teymurləngə çatdırıldıqdan sonra qəzəbli halda özü Baba Rəsulun yanına gəlir.Möcüzədən sarsılaraq, bağışlanmasını xahiş edir.Allah Rəhmət Etsin!!!.Baba Rəsul terbəsi 1975-ci ild yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına məqbərənin ağacdan olandam örtüyü dəyişdirilərək,dəmir örtük təbəqəsi ilə əvəz olunmuşdur.Lakin Talış zonasının iqliminə xas olan intensiv yağışların yağması türbənin binövrəsini boşaltdığından türbə divarı 2003-cü ildə oturaraq çat verir.Bu səbəbdən də yerli bu prblemi həllə etmək üçün yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına ustalar Orucəli Babayev və Ağakişi Cövziyev həmən çat vermiş divarın bayır tərəfindən qırmızı kərpicdən olan bir divar sütunu hörmüşlər.Daha sonralar isə Baba Rəsul türbəsi 2018-ci ildə əsaslı şəkildə xeyriyyəçilərin şəxsi maliyə vəsaiti hesabına əsaslı təmir edilir.*Şəkil. Baba Rəsul türbəsi.*

**5.Baba Misi türbəsi**.Baba Misi türbəsi Astara ərazisində yerləşir və türbənin yaranma tarixi - IX-XIII əsrlərə təsadüf edir.Bu türbə Baba Misi adlı bir ağır seyidin adı ilə bağlıdır və əsasən yaxın kəndlərin əhalisi tərəfindən ziyarət olunur.

**6.Baba Cəbəl türbəsi**(Sığəloni kəndi).Baba Cəbəl türbəsi Astara rayonunun Sığəloni kəndi ərazisində yerləşir.Ocağın tarixi orta əsrlərə gedib çıxır.Ocağı yerli sakinlər əsasən dini aylarda ziyarət

edir və xəstələr burada şəfa tapır.Baba Cəbəl türbəsi də onun yanına pənah gətirmiş insanlara şəfa yeri və ümid yeri olur.



**7.Baba Məhəmməd türbəsi**. Baba Məhəmməd türbəsi Astara ərazisində yerləşir və türbənin yaranma tarixi - IX-XIII əsrlərə təsadüf edir.Bu türbə Baba Məhəmməd adlı bir ağır seyidin adı ilə bağlıdır və əsasən yaxın kəndlərin əhalisi tərəfindən ziyarət olunur.Eyni adda türbə Lerik rayonunun Coni kəndində də var. *Şəkil.Bobo Məhəmməd türbəsi.*

**8.Çəpinə tıbə türbəsi(**Şiyəkəran kəndi).Çəpinə türbəsi Astara rayonu Şiyəkəran kəndi ərazisində yerləşir və xalq arasında buna "Çıraq türbəsi" də deyilir.Türbənin yanında bir palıd ağacı var və deyilənlərə görə bu palıd ağacınınn 800-il yaşı var.Ağacın altında Çıraq deyilən bir şəxsin məzarı və üstündə də 1,5 metr uzunluqda olan sinə daşı var.Kənd sakinlərinin dediklərinə görə ,burad əlavə bir yazılı daş da olmuşdur.Buradakı sinə daşından həcmcə kiçik olan həmin daşı 1973-cü ildə AMEA-nın əməkdaşı yerli tarixçi Əsədulla İmaməliyevin vasitəsilə özləri ilə aparmışlar və həmən daşın indi də tarix müzeyində olduğu bildirilir.Yaşlı palıd ağacının altında yerləşən bu türbənin ətrafında təpəlik və kərpic qalıqları vardır.Yerli əhalinin dediklərinə görə burada XIII əsrdə məscid olmuşdur.Türbə ərazisi sovetlər dövründə çay bağı olmuş,sonradan abadlaşdırılmış və yeni qəbiristanlıq salınmışdır. Yerli sakinlərin dediklərinə görə uzun müddət övladı olmayan gəlinin saçını ağaca bağlayıb niyyət etdikdən sonra arzu çin olur. Çəpinə tıbə talışca "Çəpinə" – sol, "tıbə" isə türbə deməkdir.Çəpinə türbə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Çıraq türbə adı ilə 842 saylı invertar sayı ilə XI-XIV əsrə aid ölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.*(Əfqan Şəfiyev. Bax yenə orda. Səh.73)*

**9.Çıl Əvliyo**(qırx Övliya) **türbəsi**.(Sərək-Şüvi arası) Qırx Övliya türbəsiinin yaranma tarixi - IX-XIII əsrlərə təsadüf edir. Bu türbə Qırx Övliya ilə bağlıdır və əsasən yaxın kəndlərin əhalisi tərəfindən ziyarət olunur.Qeyd etməliyəm ki,eyni adda qəbiristanlıq Quba rayonunun Pirvahid kəndi ərazisində mövcuddur və şeyxlərə aiddir.Yerli sakinlərin dediklərinə görə orta əsrlərdə bu yerə 40 nəfər "əxi" birliyinin nümayəndələri gəlib məskunlaşıb və su müsəlmançşılığın mistik qolu olan sufizmin təlimlərini yaymışlar."Əxi" sözü ərəbcə qardaş deməkdir, məhz bu səbəbdən 40 nəfərlik övliya Sərək kəndiinin dağ zonasında üzərlərinə düşən vəzifələri yerinə yetirmişlər. Çıl Əvliyo deyilən yerdə şərq üslubu ilə daş üzərində qabardılmış dini bəzəkləri əks etdirən 2-daş qalmışdır.Yerli əhali bu daşları ziyarərət edir, üstündə şam yandırır. Daşın üzərində rəvayətə görə zeytun şirəsi tutulmuş və bu səbəbdən də ləkə qalmışdır.Çıl əvliyo türbəsinin yaxınlığında türbə qalıqları da aşakar edilmişdir.Rufan Axundov özünün "Astarada 20 gün " kitabında belə yazır: "Astara rayonunun Sərək kəndindəki çıl övlü qəbiristanlığı ilə sərhəd olan həyətyanı sahələri və kənd yolunun kənarında bier qədim türbə qalıqları mövcuddur.Çox yerdə torpaq üzərində yalnızq qalıqlanmış kərpic qırıqları, yaxud 6-7 metr diametrli kərpic və daş hörgülü təpəcik qalmışdır.Ayrı-ayrı yerılərdə türbələrin sərhədləri daha yaxşı izlənilir.Beləki, Sərək kənd sakini Tərlan Ramazanovun həyətində onlardan biri qeydə alınmışdır.Türbə 20x20x40 sm ölçüsü olan kvadrat formalı bişmiş kərpicdən hörülmüş,sahəsi 25 kv.metr planlıdır.Qərb

tərəfdən divar qalınlığında kiçik çıxıntılar var.Güman ki, vaxtı ilə burada portalı qapı yerləşirdi.Türbənin mərkəzində nəhəng ağac bitmişdir.Hal-hazırda tikili 6-7 sıra kərpic hörgüsü hündürlüyündə muhafizə edilmişdir.*(Belə ki burada IX-XII əsrlərə aid qədim şəhər yeri olmuş və o 825 invertar nömrəsi iləölkə əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.Tufan Axundov.B.,2009.səh.106)*



**10.Gəzəndaş türbəsi**(Ərçivan qəsəbəsi). Gəzəndaş türbəsi Astara rayonunun Ərçivan qəsəbəsində yerləşir və “Gəzəndaşt” kimi yerli əhali tərəfindən ən kəramətli ziyarətgahlardan biri sayılır. Türbənin yaranma tarixi-IX-XIII əsrlərə təsadüf edir.Gəzəndaş ziyarətgahı əsasən Baki-Astara magistralının düz üstündə Astara şəhərinə gedən istiqamətdə yolun sag tərəfində Ərçivan qəsəbəsinin cənubunda yerləşir. Deyilənə görə Şah İsmayıl Gəzandaş ziyarətgahında olub orda agac basdırmış,nəzir qoyubmuş.Ziyarətgah iki hissədən ibarətdir, birinci hissədə yaşı 500-dən çox Nil agaclarının altında tikili (şəhər) qalıqlarına rast gəlinir və güman edilir ki, əvvəllər həmin ərazilər qədim yaşayış məskəni olub.(tarixi faktları üzə çıxarmaq üçün arxeoloji qazıntılara ehtiyac var).İkinci hissədə üzə çıxmış iri daşlar mövcuddur. Qəzəndaş ziyarətgahı dam örtüyünü heç vaxt götürməyib və kimsə bir dəfə ziyarətgaha dam bağlamaq istəsə də sabahsı damın yerində olmadığını görür.(dilimizdə "dam götürməyən Qəzəndaş" sözü də daşlaşıb.) Deyilənə görə Sasani hökümdarı Nuşirəvan Şah (Ənuşirəvan 1 ci Xosrov 531-579) Ərçivanda Qəzəndaş ziyarətgahından ötərkən ağacliqlar arasinda(əvvəllər o tərəflərdə büs-bütün agacliq olub

1-ci Xosrov abadlıq işləri aparıb) gecələr işıq yandiğını görür.Bir qadından bunun sirrini soruşduqda qadin İlahidən gələn hikmət oldugunu, gecələr yanib,gündüzlər söndüyünü bildirir. Şah ziyarətgahın yanindakı axan çaya heyran olduğundan bir müddət oralarda məskən salır, sonra dağlara qalxır.Səidəli Kazımbəyoğlunun 1869-cu ildə fars dilində qələmə aldığı və Talış xanlığından bəhs edən "Cəvahirnameyi Lənkəran" kitabının Azərbaycan dilindəki "Səidiyyə" adlı tərcümə kitabında belə yazılır: "Astara mhalının Ərçivan kəndinin yuxarı başında çox gözəl tarixi abidə mövcuddur.Hal-hazırda Ərçivan Hal-hazırda Ərçivan kəndinin yerləşdiyi yer qədimdə mırdov(bataqlıq) olub.Oranın ətrafında "ğəzən dəşt" (gəzəndə çölü) adlandırılan çox səfalı və geniş bir məkan vardır.Rəvayətlərdə və el arasında dəfələrlə sölənildiyinə görə Şah İsmayıl Bahadır xan Səfəvi(şah İsmayılın müəll.) hicrətin 901-ci ilində(əsində 905-ci ildə, miladi təqvimi ilə 1499-1500-cü illər – müəll) taxta çıxmasının əvəlində qışlamanı həmin məkanda keçirmişdir"(B.,2005,səh.114).Bu kitabda bu yer "Qəzəndaş" kimi yox, "Qəzəndə dəşt" kimi qeyd olunub.Belə ki "Qəza" farca – qəza, "dəşt" isə - çöl deməkdir.Bu söz sonrdan isə təhrif olunaraq "gəzən daş" şəklinə salınmışdır. (Bax:Jurnalist Gülnar Əsədli "Nura Qərq olunmuş Astaram" kitabından. ) Şəkil. Gəzəndaş ziyarətgahı. Foto. Asim Yusifov. Digər rəvayətə görə isə guuya Allah tərəfindən göndərilən İmam Hüseynin qanı ilə yoğrulan bir daş vardır ki, o da gəzir.




**11.Hacı Əfqan türbəsi**(Hamuşam kəndi). Hacı Əfqan türbəsi Astara rayonunun Hamoşam kəndi ərazisində yerləşir.Ocağın tarixi orta əsrlərə gedib çıxır. Hamoşamda yaşamış XX əsrin əvvəllərində(1915-1918 –ci illərdə) Hamoşam dağlarına pənah gətirmiş Hacı Əfqan öz dövrünün nüfuzlu şəxslərindən olub. Savadlı tarixçi kimi bu gün də,yaddaşlarda yaşayır.Hacını həqiqətən dünyagörüşlü,təbiətən ağır, kamil bir şəxsiyyət olub.Məhz ona görə də məzarı bu gün ziyarətgah kimi tanınır.O,bu ərazilərdə İslamı təbliğ etmək məqsədi daşımışdır. Hacı Əfqan Hamoşamda yaşayarkən onun 105 yaşı olub və o elə öz vəsiətinə sasən elə Hamoşamda dəfn edilmişdir.Hacı Əfqanın məzarı üzrəində ilk öncə ağac materialından tikili inşa edilmişdir.Ağacdan olan tikili köhnəldiyindən bir neçə dəfə sökülərək yerində yenisi tikilmişdir.2007-ci ildə Hacı Əfqannın qəbri üzərində Rusiyada yaşayan hamoşamlı Səxavət Cəlil oğlu Xankişiyevin şəxsi maliyə vəsaiti hesabına qırmızı kəndindən əvvəlki ölçüyə uyğun olaraq uzunluğu 4,5 metr, eni isə 2,5 metr olan məqbərə inşa edilmişdir.Məqbərənin bir qapısı və sol tərəfdə bir kiçik pəncərəsi vardır.Ocağı yerli sakinlər əsasən dini aylarda ziyarət edir və xəstələr burada şəfa tapır. Hacı Əfqqan türbəsi də onun yanına pənah gətirmiş insanlara şəfa yeri və ümid yeri olur.*Şəkil.Hacı Əfqan türbəsi.*



**12.Xəlifə Baba türbəsi.**Xəlifə baba türbəsi Astara rayonu ərazisində yerləşir.Əsasən yerli sakinlər tərəfindən ziyarət olunur.İnsanlar buranı daima özlərinə pənah yeri bilmişlər *Şəkil.Xəlifə Baba ziyarətgahı.*

**13.Kanə hi**(Köhnə bağ)(Sım kəndi) **türbəsi.**Kanə hi türbəsi Astara rayonunun Sım kəndi ərazisində yerləşir.Abidə XVII əsr və ondan sonrakı dövrlərdə kəndə gələn Səfəvi şeyxlərinin nəslindən olan Baba Həmzənin övladlarının adı ilə bağlıdır. Tarixin yadigarı olan Sım kəndi şeyxlər dövründə(XVII - XX əsrin ilk illəri)yenidən inkişaf mərhələsinə qədəm qoymuşdur. İslam dinini yayan, təbliğ edən Sım şeyxləri dövrünün tarixi şəxsiyyətlərindən biri olan,"XIII yüz ildə monqolların işğal etdikləri ərazidə kortəbii sufi-dərviş ordenlərindən birinin banisi, ordenin və şeyxlər sülaləsinin adı müqəddəs sayılan Şeyx Səfiəddin İshaq əl-Musəvi-əl-Ərdəbillinin(1252-1334)"2 nəsli ilə bağlı meydana gəlmişdir."Kanə-hi" ziyarətgahında Şeyx Saleh, Şeyx Molla Fərəc Əfəndi ilə yanaşı daha iki qardaşı Şeyx Məmmədlə,Şeyx Sovqat uyuyur.Şeyx Molla Fərəcin iki nəvəsi, Şeyx Məmmədağa və Şeyx Molla Əzizağanın da məzarı bu qəbristanlıqdadır.Digər iki nəvəsi,Şeyx Hafis ikinci dünya müharibəsində həlak olmuş, Şeyx Molla Mirhəsən isə 2003-cü ildə 22 yanvarda dünyasını dəyişmişdir.Şeyx Molla Mirhəsən yarım əsrdən artıq yaşadığı Kijəbə qəsəbəsindəki Sultan Şeyx Məhəmməd Zalani ziyarətgahında dəfn olunmuşdur.Şeyx Molla Fərəc Əfəndinin dörd oğlu kənd qəbristanlığında dəfn olunmuşlar.



**14.Qəribə Seyid türbəsi(**Vaqo kəndi)Qəribə Seyid əhəmiyyətli türbəsi Astara rayonunun Vaqo kəndi ərazisində yerləşir. Ocağın tarixi orta əsrlərə gedib çıxır vəmyerli sakinlər əsasən dini aylarda ziyarət edir və xəstələr burada şəfa tapır. Qərib Seyid türbəsi də onun yanına pənah gətirmiş insanlara şəfa yeri və ümid yeri olur.*Şəkil.Qəribə Seyid türbəsi.*

**15.Mirbaba türbəsi**(Pensər kəndi).Bu türbə Astara rayonu Pensər kəndi ərazisində yerləşir və ocağın sahibi Mirbaba Mirfəttah oğludur.Türbə xsüusi daşlarla birotaqlı inşa edilib və Mirbabanın qəbri məqbərənin tən ortasındadır. Qəbrin üst hissəsi iki təbəqəli, qədim üslubda düzəldilmişdir.Hündürlüyü təqribə 70 sm, uzunluğu 2 metr olan bu qəbirüstü abidənin üstündə şam yandırmaq üçün xüsusi dəlik və su qoyulması üçün isə yer düzəldilib.*(Əfqan Şəfiyev. Bax yenə orda .səh.62)*

**16.Məhəmməd Mazandarani ziyarətgahı.**(Hamoşam kəndi).Məhəmməd Mazandaani ziyarətgahı Astara rayonunun Hamoşam kəndi ərazisndə yerləşir.İranın Mazandaran vilayətindən dağlarımıza pənah gətirmiş bu şəxs uzun illər Hamoşamda yaşamışdır.Tarixçinin dediyinə istinadən o, gözəl şeirlər yazırmış.Vəsiyyətinə görə Reqluba kəndinə gedən yol kənarında Qəvulda (iki dağ arası) basdırılıb.Qocaman palıd ağacının yanında üzü qibləyə sarı uyuyan qərib övliyanın ruhunu Mazandaran gələn Vətən küləyi oxşayır.

**17.Nur-e Nəbi türbəsi**( Zəngüləş kəndi).Kor Nəbinin adına. Nur-e Nəbi türbəsi yerli əhəmiyyətli ziyarətgahdıər və Astara

rayonunun Zingüləş kəndi ərazisində yerləşir.Ocağın tarixi orta əsrlərə gedib çıxır və yerli sakinlər əsasən dini aylarda ziyarət edir və xəstələr burada şəfa tapır. Nur-e Nəbi türbəsi də onun yanına pənah gətirmiş insanlara şəfa yeri və ümid yeri olur.



**18.Pir-e Sübo türbəsi**.(Kijəbə kəndi).Piri Sobo Salo türbəsi Astara rayonunun Kijəbə qəsəbəsi ərazisində yerləşir. Türbənin tikilmə tarixi IX – XIII əsrlərə təsadüf edir və əsasən yerli sakinlər tərəfindən ziyarət olunur. *Şəkil.Pir-e Sübo türbəsi.*



**19.Pir-e bılınd**(Sım kəndi).Pir-i bılınd Astara rayonunun Sım kəndi ərazisində yerləşir.Sım ərazisində yerləşən,təkcə Astara və onun ətraf rayonlarında deyil, İran İslam Respublikasında da tanınan,ağır ocaq kimi ziyarət edilən türbələrdən biri də “Pir-Bılınd”(“Uca-Pir”,“Ucada duran Pir”) türbəsidir.Türbə Sım-Şindan istiqamətində Uti xarabalığın qərbində yerləşir. Türbənin digər ziyarətgahlardan yaşının çoxluğunu qəbristanlığa qədəm qoyan hər kəs hiss edir.Çünki, ziyarətgahın bir çox qəbrləri artıq təbii şəkildə torpaqda itmiş və ya itməkdədir.Əksər qəbrlərin daş abidələrini mamır basmış, görünməz etmişdir.Türbənin və onun ətrafında mövcud olan yaşayışın qədimliyini ən azı Tunc dövrünə aid olduğunu 5-6 min ildən artıq yaşı olan ziyarətgah adının əvvəlində işlədilən “Pir" (“Pi”) sözü də təsdiqləyir. Qəbirüstü abidələr həm pilləli,həm də adi qaydadadır.“Pir-

Bılınd"ın mərkəzində təpədə yaşı bəlli olmayan palıd və digər ağacların kökləri altında qədim bir xarabalığın yeri müşahidə olunur.Təpənin quruluşu sanki kurqanı xatırladır.Kurqanın ətəyində yan-yana üç qəbir vardır.Həmin qəbirlərin üzərindəki nəhəng daş özüdə üç pilləlidir.Qəbristanlığa gələnlərin də ən çox ziyuarət etdiyi, üstünü mamırlar basmış bu üç qəbir üstü daşdır. Ölçüləri müxtəlif olan həmən abidələr şəkildən göründüyü kimi niyyət daşı hesab olunur.Ziyarətçilər niyyət tutub qəbir daşının üzərində kiçik bir daş parçası qoyurlar və inanırlar ki, niyyətləri hasil olacaq.Dini inanclara görə şəfa tapmaq üçün ziyarətçilər özünün və ya xəstələnən adamın paltarının tikəsindən qəbrin yanındakı kolun budağına-bağlayırlar.Bu ziyarətgahı digərlərindən fərqləndirən özünəməxsus xüsusiyyətlərindən biri də budur ki bu üç qəbrin hansının əsas ziyarətgah olması bilinir. Hələ XIX əsrin ortalarında həmin qəbrlərin üzərində Şeyx Abbasın övladları tərəfindən bir neçə dəfə ayrı-ayrı vaxtlarda "kolo"("məqbərə") tikilsə də bu tikililəri səhəri gün qəbrin 100-150 metrliyindəki dərədə axan çayda görmüşlər.Ona görə də indiyə kimi ziyarətgahda məqbərə tikilməmişdir "Pir-Bılınd" ziyarətgahının ətraf qəbristanlıqlardan fərqləndirən digər xüsusiyyətlərindən biri də onun haqqında xalq arasında yayılmış olan rəvayət və inancların sayca çoxluğudur.Bu da onun yaşının daha çoxluğundan irəli gəlir.Mövcud olan inanclara görə "Pir-e Bılınd" ziyarətgahında "peşto də sığ"("bel söykənən daş") adlanan daşın kəraməti ondadır ki, hər kəsin beli ağrayırsa,bu daşın yanına gedər,üç dəfə belini həmin daşa söykiyər,özü ilə gətirdiyi bir sancağı daşın üstünə qoyar və beləliklə ağrılardan azad olub və şəfa tapar.



İndi də yaxın və uzaq kəndlərin əhalisi bu daşın şəfa verici qüvvəsindən istifa dəedirlər. Haqqında danışılan bel söykənilən daş rayonumuzun başqa ziyarətgahlarındada mövcuddur. Qəbirstanlığın girəcəyindəki niyyət daşı da“Pir-Bılınd” ziyarətgahındakı inanclardan biridir.Təzə evlənənlər və ya uşağı olmayanlar niyyət daşının yanına gedər, niyyət tutar ki, uşağı olar və ya olmaz . Sonra daşın dibindəki uyuğdan bir ovuc torpaq götürər, əgər ovucundaki torpaqda hər hansı bir həşərat və ya canlı olarsa, deməli niyyəti baş tutar. Digər bir inanca görə isə niyyət daşının yanına gələn şəxs çubuqlardan nənni və ya beşik düzəldə,onu niyyət daşının yanındakı uyuğdan asar. Sabahısı gün gəlib nənniyə baxar. Əgər onun içində hər hansı bir budaq tikəsi,ağac qırıntısı,yarpaq və sair cism olarsa,deməli,həmən adamın övladı olacaq.Belə olduqda həmin şəxs nənninin içindəki cismi götürüb uşağı olanda əvvəl onun beşiyindən,sunradan isə (ayaq tutub yeriyəndə) boynundan asar ki,övladı gələcəkdə bütün şər bəlalardan hifs olunsun.Sım və onun ətraf ərazilərinin tarixini qiymətləndirmək üçün əlimizdə bu türbə ilə bağlı daha bir inanc haqqında məlumat vardır.“Pir-Bılınd” ziyarətgahının şərq tərəfində“Krana do” deyilən aşağı tərəfdən oyuğu olan qoz ağacından göyöskürək xəstəliyinə tutulmuş uşaqların müalicəsində istifadə olunur. Bu haqqında Abdulla Əhmədovun dedikləri: “Mən uşaqlıqda kiçik dayım Şeyx Mirhəsənlə çox vaxtı bir yerdə olardım.O, getdiyi yerlərə məni də aparırdı. Bir gün meşəyə gedirdik,mən göy öskürəyə tutulmuşdum.Yolda ösksürməyə başladım,az qala nəfəsim kəsilirdi.Dayım məni tez türbəyə apardı.Orada məni bir qoz ağacın gövdəsindəki yerin üsdündə olan yarıqdan üç dəfə o fərəç, bu tərəfə keçirtdi.O

ogündən öskürəyi sağalmağa başladı. Dayımın göstərişi ilə nəzir olaraq üç ədəd çiy yumurta aparıb "Krana donun yarğında qoydum".Sımda olan "Kanə - hi" ("köhnə əkin yeri") ziyarətgahı buraya orta əsrlər də gəlmiş şeyxlərin adı ilə bağlıdır. Qəbristanlıqda təxminən 600-dən çox qəbir müşayidə olunur. Ziyarətgahı əsas biri Şeyx Abbasın iki oğlu-şeyx Saleh və Şeyx Molla Fərəcdir.Dövrünün böyük şəxsiyyətlərindən biri olan Ərdəbil şeyxi Şeyx Səfiəddinin nəslindən olan Sim şeyxləri islam dininin yayılması ilə əlaqədər Sıma təşrif buyurmuşlar. Ümumiyyətlə, dövrünün nüfuzlu şəxsiyyətlərindən olan şeyxlər nəslinin nümayəndələri hal-hazırda da Astara rayonunun müxtəlif yaşayış məntəqələrində,o cümlədən,Sım,Səlivə,Miki kəndlərində və Kijəbə qəsəbəsində yaşayırlar. *Şəkil. Pir-e Bılınd türbəsi*

**20.Pir-e Həbib.**Pir-e Həbib Astara rayonunun Təngərüd kəndinin ərazisində,kəndin yuxarı başında,"içəri məhəllə" adlanan ərazidə yerləşir.Abidə əsasən məhərrəm aylarında ziyarə olunur və az ziyarət olunan pirlərdəndir.Bu pirin qeydiyyat nömrəsi 5764-dür və qeydiyyatda qədim qəbiristanlıq kimi qeyd olunmuşdur,lakin elə həmin qəbiristanlıqda da eyni adda pir yerləşir.Bu qədim türbə orta əsrlərə aid edilir,lkin digər deyimlərə görə isə pirin tarixi Təngərüd kəndinin tarixindən də əvvələ gedib çıxır*(Bax: İlham İlhami.Təngərüd,Maşxan və Pensər abidələri.Mədəniyyət qəzeti.,səh.75)*.Bu pir Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 5764 nvertar nömrəsi ilə Orta əslərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.



2**1.Pir-e Ərəb** (Piyəkənarrüd kəndi).Pir-e Ərəb Astara rayonu Piyərüdəkənarrüd kəndi ərazisində yerləşir.*Şəkil.Pir-e ərəb türbəsi.*



**22.Pir-e Pəndər.**Pir-e Pəndər Astara rayonu ərazisində yerləşir.Əsasən yerli sakinlər tərəfindən ziyarət olunur.Bu ocağın ərazisində üstündə heç bir yazısı olmayan və qəribə başdaşıları olan qədim bir qəbiristanlıq var.*Şəkil.Pir-e Pəndər.*



**23.Pir-e Əbülqasım** (Şüvi-Siyətük arası).Pir-e Əbülqasım Astara rayonunun Şüvi-Siyətük kəndləri arasında yerləşir.Adından da göründüyü kimi öz adını Əbülqasım adlı bir zatdan götürmüşdür.Bu adam öz dövrünün kəramət sahiblərindən biri olmuşdur.Bu ocaq az ziyarət olunan ocaqlardandır və əsasən də yerli sakinlər tərəfindən ziyarət olunur.*Şəkil.Pirəbülqasım türbəsi.*



**24.Pir-e Davud türbəsi**.Pir-e Davud türbəsi Astara rayonu ərazisində yerləşir.Adından da göründüyü kimi bu terbənin adı Davud adlı şəxsdən götürülmüşdür. Yerli əhali bu ziyarətgaha pənah aparıb şəfa tapır.*Şəkil.Pir-e davud türbəsi.*



**25.Pir-e Hacı türbəsi**.Pir-e Hacı türbəsi Astara rayonu ərazisində yerləşir.Adından da göründüyü kimi bu türbə öz adını Hacı adlı bir şəxsdən götürmüşdür.O, öz dövrünün kəramət sahiblərindən olmuşdur.Əsasən yerli əhali tərəfindən ziyarət olunur.*Şəkil.Pir-e Hacı*

**26.Pensər piri.**Pensər piri Astara rayonunun Pensər kəndi yaxınlığında,Astara-Lənkəran şose yolunun sağında yerləşir. Pir hündürlüyü təqribən 10 metr olan bir təpəlikdə yerləşir və burada şərq üslubunda bir günbəzi olan məqbərə var.Məqbərənin ətrafı çay daşları ilə əhatələnmiş.burada çoxlu sayda müxtəlif növ ağac-nil ağacı, bir neçə şümşad və qaragöz vardır.



**27.Seyid Kərim türbəsi** (Maşxan kəndi).Seyid Kərim türbəsi Astara rayonunun kəndi ərazisində yerləşir.Bu türbə orta əsrlərdə yaşamış Seyid Kərimin məzarı üstündə inşa edilmişdir. Türbənin tikilmə tarixi IX-XIII əsrlərə təsadüf edir.Lakin 1995-ci ildə burada yeni bir türbə inşa edilib.Türbənin iç sahəsi 3,5x4,5 metr olmaqla hündürlüyü 2,20 metrdir.Türbə əsasən mişar daşlarından tikilib və türbənin dam örtüyü qırmızı kirəmitlə işlənib.Türbənin içərisi yalnız sərdabədən ibarətdir və bu sərdabədə Seyid Kərim adlı zatın qəbri yerləşir.Türbənin qarçısında iki ədəd yan-yana tarixi təqribən 600-700 –il olan iri nil ağacı vardır.Həmən şəfa ocağının təqribən 7-8 metr aralığında olan üzbəüz təpəlikdə torpaqdan bayıra çıxan ağac köklərində yerli əhalinin inancına görə,xəstə doğulmuş körpə uşaqları, dil açmayan,yeriməyənləri, üç dəfə o tərəfə bu tərəfə keçirməklə "mualicə" prosesinin yerinə yetirmiş olurlar və inanca görə xəstələr şəfa tapırlar.Orada olan başdaşılar üzərində yazılar övcud olmuşdur,lakin onları qorumaq üçün üzərinə yaşıl rəng çəkildiyindən onları oxumaq çətindir. Kənd sakinlərinin inanclarına görə Seyid Kərim peyqəmbər nəslindən olub.Belə ki, AMEA-nın elmi əməkdaşı, tarix elmlri doktoru, professor Məşədixanım Nemətova və Azərbaycan republikası Mədəniyyət Nazirliyi abidələrin qorunması və istifadə sektorunun müdiri , memarlıq ittifaqının üzvü, texnika elmləri namizədi İslam Göyüşovun köməyi ilə tədqiq olunaraq oxunmuşdur. Tədqiqat zamanı alimlər belə qənaətə gəlmişlər ki, Seyid Kərimin türbəsində olan başdaşı-kitabə böyük tarixi, mədəni və siyasi əhəmiyyətə malik olan bir salnamədir. Məhz bu yazıdan məlum olur ki, bu başdaşı 1472-ci ilə aiddir və orada dəfn olunan şəxs mövlanadır."Mövlana" sözü ərəbcədən

tərcümədə İslam dinini tədqiq edən alim" deməkdir.Əfqan Şəfiyev özünün kitabında Mövlana Seyid Kərimin yaşadığı dövrü Qaraqoyunlulara aid edir, lakin bu Hülakülər dövrünə təsadüf edir.*(Bax: Əfqan Şəfiyev.Astara rayonunun tarixi-memarlıq abidələri.,B.,"Nurlan" 2008".səh.45.Şəkil.Seyid Kərim türbəsi.)*



**28.Seyid Əhməd ibn Kərim türbəsi**(Maşxan kəndi).Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir.Türbənin tikilmə tarixi 1472-ci ilə təsadüf edir. Əhməd ibn Kərim türbəsi Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir.Belə ki,Seyid Əhməd yeddinci imam Musa kazımın nəslindəndir. Seyid Əhmədin məzar daşı məhz burada yerləşir və onun üzərində ərəb-fars dillərində yazılar var və bu yazılar 1956-cı ildə tarix elmləri doktoru Məşədixanım Nemətova tərəfindən oxunub tərcümə edilmişdir.Bun yerli əhali trəfindən Maşxan ocağı da deyilir. Maşxan – "Ma – şeyxam" söz birləşməsindən əmələ gəlib və "Mən şeyxəm, mən müqəddəsəm," mənasını verir. Ziyarətgah Soltan Əhmədin , daha doğrusu Seyid Əhmədin adı ilə bağlıdır.Tarixçi-alim Məşədixanım Nemət və Zərbi Ələsgərov öz əsərlərində bu qədim ziyarətgah barəsində ətraflı məlumat vermişlər.

"Maşxan kənd qəbiristanlığında yerli əhalinin" Seyid Əhməd piri" adlandırıldığı bir məqbərədə Soltan Əhmədin epitayası mühafizə olunur. Ərəb –fars dillərində olan kitabədə yazılıb:
"Bu qəbir Soltan Əhməd ibn Kərimdir.Səkkiz yüz yetmiş altıncı il tarix (vəfat etmişdir.)".Hicri 876-cı il 1471-1472-ci miladi ilinə müvafiqdir.Farsc kitabəsi mənzumdur. Yerli əhalıi həmin

məqbərənin sahibi haqda müxtəlif rəvayətlər söyləyirlr. Deyilənlərə görə XIV əsrdə bu yerlərdən köçüb getmək stəyən və əslən Ərdəbil şeyxlərindən olan seyid Əhməd Maşxanda gecələməli olur.O,ev sahibinin səhərə qədər yatmadığıı görür.Səhər isə ev sahibinin və kənd sakinlərinin torpaq və su sə dava-dalaş saldıqlarının şahidi olur.Seyid Əhməd camaatı Skitləşdirmək istəyir,lakin heç kim onun sözünə qulaq asmaq istəmir.Onda seyid Əhməd ləbbadəsinin cibindən ilan çıxardır.İlanı meydanın ortasına qoyub tütəyi \ çalmaqla ilanı oynadır.Camaat heyrətə gəlir. Soruşurlar ki, bu necə olur ki, ilan onun əmri ilə oynayır? O da cavab verir ki, mən seyidəm, şeyxəm,bütün canlılar məni eşidir,sözümə baxır.Siz də eşidin,onda Allah da sizi bağışlayar.Xalq arasındakı №ilanı Seyid Əhmədin əli ilə tutarlar" ifadəsi də o vaxtdan qalıb.

Təxminən 40-50 yaşlarında kəndə gələn seyid Əhməd 30 il burada yaşadıqdan sonra dünyadan köçür.(1461-1493).Kənd camaatı onu hörmətlə dəfn edir,məzarını türbəə çevirirlər. Elə o vaxtdan bu ocağa ən çox ilanvuran,ilandan qorxub müxtlif xəstəliklər tapanlar pənah gətirirlər.Bu ocaq Astara rayon sakini,xeyirxah,nəcib,səxavətli insan Nazim Böyükağa oğlu Quliyev tərəfindn abadlaşdırılmış,ziyarətgahın ətrafı mərmər piltələrlə,müxtəlif ornamentlərlə bəzədilmişdir. (Bax:Məşədixanım Nemətova. Azərbaycan pirləri.Bakı,1992, səh. 40).Seyid Əhməd ibn Kərim türbəsi formaca düzbucaqlıdır və bir giriş qapısı var. Türbənin qapısından içəri dəhliz (10 kv. metr) yerləşir və dəhlizdən sonra içəridəyə doğu getdikdə daha bir otaq var və bu otağın içərisində isə sahəsi 35 kv. metr olan bir qəbir yerləşir. Bu qəbirdə öz dövrünün ağır seyidlərindən sayılan Seyid Əhməd adlı zat yatır və türbənin döşəməsi torpaq, tavanı isə taxta materialındandır.Bu türbə son zamanlara qədər dağılmış vəziyyətdə idi, lakin 1990-cı ildə burada təmir-bərpa işləri aöparılmış və türbə restavrasiya olunaraq yararlı hala

salınmışdır.Türbənin XIX əsrin əvvəllərində tikildiyi qeyd olunur.1995-ci ildə bu türbə yenidən tikilmişdir.Maşxan kəndində yerləşən Seyid Əhməd Ziyarətgahında orta əsrlərə aid çoxlu sayda abidələr-baş daşları, sinə daşları, əli daşı və böyrək daşları vardır ,lakin hələ tədqiq olunmamışdır.*(Bax: Əfqan-Şəfiyev., Astara rayonunun trixi - memarlıq abidələri., B.”Nurlan”.səh. 44).*Sinə və baş daşlarının üzərində ərəb qrafikası ilə, oyma üsulu ilə işlənmiş yazılar, Quran ayələrindən nümunələr qeyd olunmuşdur.(Mənbələrə əsasən Seyid kərim hicri 876-cı ildə vəfat edir ki, bu da miladi tarixi ilə 1472-ci il deməkdir.Seyid Əhməd piri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 4131 invertar nömrəsi ilə 1472-ci ilə aid yerli əhəmiyyətli memarlıq abidə kimi qeydə alınmışdır.Türbənin invertar nömrəsi 4131, sistem kodu isə AJA003930-dur. *Şəkil.Qədim daş.*



**29.Səncər Gilani türbəsi**(Alaşa yolu üstündə).Seyid Səncər türbəsi Astara rayonunun Səncərədi kəndindən Alaş kəndinə gedən yolun sol tərəfindəı yerləşir. Türbənin tarixi orta əsrlərə aiddir və türbə orta əsrlərdə Gilandan buraya pənah gətirib məsgən salmış Seyid Səncər Gilani adlı şəxsə məxsusdur.Türbədə cümə axşamları şamlar yandırılır və rəvayətə görə kəndin adı bu şəxsdən götürülmüşdür.*Şəkil.Seyid Səncər türbəsi.*



**30.Seyid Cəmaləddin piri** (Pensər kəndi). Seyid Cəmaləddin piri Lənkəran-Astara şose yolunun üstündə (Butəsər) kənd qəbiristanlığında yerləşir. Bu türbə yerli camaat tərəfindəın "Seyid Cəmalədiin piri" adlandırılır.Beləki XII əsrdə Suriya,İraq və Ərəbistanda seyidlərə divan tutulmuş və onlar təqib olunmuşlar. Bu təzyiqlərə məruz qalanlardan biri olan seyid Cəmaləddin öz ailəs ilə ilk öncə Gilana gəlmiş,sonralar Qəzvində yaşamış və Qəzvindən isə Butəsərə(indiki Pensər kəndi) gəlmiş və oradan da Malvan kəndinə köçb orada daimi yaşamışdır.Oranı özünə məskən seçən seyid Cəmaləddin ağa dini təbliğata başlamış və bir neçə görkəmli şəxsiyyətlər yetişdrmişdir.O,yetişdirdiyi tələbələri ilə bilrikdə dini işlərlə məşğul olarmış.*Şəkil.Seyid Cəmaləddin piri*

Seyid Cəmaləddin ağanın əsl peşəsi pambıqçılıq olmuşdur.O,əkilmiş pambıqı yığdıraraq öz bütün ailə üzüvləri, müridləri və tələbələri üçün paltar toxutdurar,artıq qalan pambığı satdırıb çəltiyə, düyüyə dəyişdirib öz əyyarlarına saxlayarmış.Seyid Cəmaləddinin ən məşhur tələbələrindən biri də Tacəddin İbrahim olmuşdur. Seyid Cəmaləddindən təhlis alan Şeyx Tacəddin sonralar Şeyx Zahid adı ilə məşhur olmuşdur.XIV əsrdə yaşamış mütəfəkkir Tfəkkürlü ibn Bəzzaz seyid Cəmləddini hündürboy,enlikürək,qüvvətli,qpçaq,igid, cəsarətli bir şəxs kimi göstərmişdir.Bəzi tarixçilərin yzdıqlarına görə seyid Cəmaləddin ağa 60-100 il arası ömür sürmüşdür.lakin Məşədixanım Nemətin yazsığına görə ,seyid Cəmaləddin ağa 44 ildən bir az artıq yaşamış,651-ci ilin şəvval ayının 4-də (28 noyabr 1253-cü il) Pensər kəndində vəfat etmiş və elə oradaca dəfn edilmişdir.

Cəmale melləte din,Qotbe ovliyayi xoda,
Ke astaneye obud,qibleye əbdal
Be hecrət rəft.

**Tərüməsi: Astanası abadların qibləsi sayılan ,Allah övliyasıın qütbü, millət din camalı.** O, hcri 651-ci il Şəvval ayının 4 –də (28 noyabr 1253-cü il), bazar ertəsi dünyadan köçmüşdür.Seyid Cəmaləddin ağanın Şeyx Zahiddən başqa daha iki tələbəsi olmudur. Onlardan biri "Gijə" təxəllüsü ilə tanınmış Pirə Məhəmməd idi. Ehtimal ki Astararayonundakı Kijəbə kəndinin adı Pir Məhəmmədin ləqəbi ilə bağlı olub.Seyid Cəmaləddin dini təbliğçilik fəaliyyətini fəaliyyətini təkcə yaşadığı bölgədə həyata keçirməmişdir.O,öz nəzəriyyəsini Şirvanda yayamaq üçün olu və şagirdi Seyid Sədullanı Bakıya göndərmişdir.Seyid Sədulla Bakıda "Xeyriyyə" cəmiyyəti yaradaraq sufiliyi təbliğ etməyə başlamışdır.Bununla bağlı Bakı şəhərində İçərişəhər dairəsində sağlamlıq mərkəzinin yerləşdiyi binanın baştağında ərəbcə nəsx xətti ilə yazılmış kitabədə məlumat verilmişdir.Orada olan kitabə Tarix elmləri doktoru Məşədixanım Nemət tərəfindən oxunmuşdur və orada belə yazılmışdır:Bu xeyriyyə idarəsinin bina olmasına, peyğəmbərliyin məşəli, risalətin tacı Seyid Cəmaləddinin oğlu, seydlərin görkəmlisi, xeyirat sahibi,Allahın mərhəmətinə çatmış Seyid Sədulla əmr etmişdir*"(Bax: Məşədxanım Nemət.səh.38).* Digər bir məlumat isə Seyidəli Kazımbəyoğlu tərəfindən verilmişdir və orada belə deyilir: "Əlamut ölkəsinin başçısı baxmayaraq ki yolunu azmışlardan idi, hər beş yüz dinar qırmızı qızıl nəzir kimi Seyid Cəmaləddinə göndərmişdir.Şeyx də onun bir hissəsini kasıblara bağışlamışdır" *(Bax: Səidiyyə.,B.,2005,səh,səh.58).* Onun digər tələbəsi isə Babul idi və onun haqqında məlumat azdır.Sovetlər dövründə Seyid Cəmaləddin ağanın məqbərəsi təzyiqlərə məruz qalmış,sökülmüş və hətta yandırılmışdır.Lakin allahsevən insanlar ağanın

məqbərəsini uenidən öz zəhməti hesabına tikib bərpa etmişlər.1937 və 1953-cü illərdə ağanın məqbərəsi tamamilə yandırılaraq dağıdılmışdır.1956-cı ildə Pensər ağsaqqallarının ,o cümlədən Ağadada Camalov,Məşədi Abdul Şabanov,Məşədi Məlik babayev,Şeyx Sultan Məmmədov və başqalarının səyi nəticəsində ağanın binası gecələr,soetlərdən gizli bərpa edilmişdir.1958-ci ildə ziyarərgahın rəhbəri Kərbəlayi Həzrətqulu məqbərə binasını södürmüş və hazırladığı layihə əsasında yenidən tikdirmişdir. Deyilənlərrə görə, burada çoxlu mərmər başdaşıları var imiş ki, bunlar da 1918-ci ildə yanğın nəticəsində tələf olmuşdur.1924-cü il məlumatına görə,Seyid Camal türbəsi iki otaqdan ibarət olmuşdur.Otaqlardan birində Seyid Camal dəfn olunmuş, ikincisində isə iki qəbir daşı varmış və onlardan biri Asfahabad şahının qəbri olmuşdur.Efitafiyaya əsasən əbidənin İsfəhbod –salar-baş sərərdə Pir Hüseynin 911-ci lsə(1408-1409) vəfat etmiş qızı Xudavənd xatuna aid olduğu qeyd etmək olar. Məqbərə binası qırmızı(bişmiş) kərpicdən hörülmüş,içərisində restavrasiya işləri aparılmışdır.Hər iki otaq xalı-xalça ilə döşənilmiş və imamların şəkilləri ilə bəzədilmişdir.Bu müqəddəs qəbiristanlığın içərisində 14X8m enində çadır,bir çarhovuz tikilmiş,(su ilə doldurulmuş) *Bax:Azərbaycan Məscidlərinin Ensiklopediyası. Bakı-2001.səh.28-31).*Seyid Cəmaləddin piri 1995-ci ildə təmir olunmuşdur.*Şəkil.Seyid Camaləddin piri*



3**1.Seyid Gülüstan piri.**Seyid Gülüstan piri Astara rayonu ərazisində yerləşir. Bu ziyarətgah əsasən yerli sakinlər tərəfindən ziyarət olunur və ona pənah gətirənlərə şəfa verir.*Şəkil.Seyid Gülüstan piri.*

**32.Səqliston türbəsi**(Zərbəlin kəndi).Qırmızı gilli,səfalı yer.Gülüstan deməkdir Astara rayonu Zərbəlin kəndi ərazisində yerləşir.Bu pir az ziyarət olunan pirlər syahısındadır və əsasən yerli sajinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.Bu pir haqqında məlumat çox azdır.

**33.Süfi Rövşən ocağı**(Şümrüd kəndi).Sufi Rövşən türbəsi Astara rayonu Şümrüd kəndi ərazisində yerləşir.Adından da göründüyü kimi bu ocaq öz adını Sufi Rövşən adlı zatdan götürmüşdür.Bu ocağ əsasən yerli sakinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.İnsanlar bu ocağa gələrkən burada şəfa tapmaq ümidi ilə ayrılırlar.Bu pir haqqında məlumat azdır.Ziyarətgaha yerli sakinlər müqəddəs aylarda baş çəkirlər.



**34.Şeyx Məhəmməd Dilimi türbəsi**. Şeyx Məhəmməd Dilimi türbəsi yaranma tarixi - IX-XIII əsrlərə təsadüf edir.Bu türbə Şeyx Məhəmməd adlı bir ağır seyidin adı ilə bağlıdır və əsasən yaxın əhali tərəfindən ziyarət olunur.*ŞəkilŞeyx Məhəmməd Dilmi türbəsi.*

**35.Şeyx Şəmsəddin türbəsi.**Şeyx Şəmsəddin türbəsi tanınmış ziyarətgahlardan biridir və Astara rayonu kəndi ərazisində yerləşir.Ziyarətə əsasən yerli sakinlər və ətraf kəndlərin sakinləri də ziyarət edir.Bu ocaq zaman-zaman ona pənah gətirən insanların ümid yerinə çevrilmişdir.Bu pir az ziyarət olunan pirlər syahısındadır və əsasən yerli sajinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.Bu pir haqqında məlumat çox azdır.



**36.Şeyx Nəsrullah türbəsi** (Sipyət kəndi).Şeyx Nəsurullah türbəsi Astara rayonunun Sipyət kəndi yaxınlığında, Bakı-Astara əsas yolundan təqribən 30 km, əhalinin yaşayış yerindən isə təqribən 4 km.aralıda yerləşir. Türbənin tarixi XIV-XV əsrlərə təsadüf edir və bu ərazidə həmən dövrün görkəmli və müdrik şəxsiyyətləri – Şeyx Nəsrullah,Şeyx Mir Abbas, Şeyx Vəliəddininin qəbirləri yerləşir.Ziyarətgah ərazisində yerləşən bulaqdan yuxarıda kiçik bir təpədə məscidin olması söylənilir."Şeyx Nəsrullah" ziyarətgahı ərazisində ağır çəkiyə malik namaz daşı var.Ziyarətə gələnlər bu daş üstündə namaz qılırlar.Talış bölgəsində əfsanəvi səciyyə daşıyan gəlin daşları da bu ərazidə yerləşir.Şeyx Mir Abbasın məzarı Mir Baba Həmzə və Şeyx Mir Ələmdən fərqli olaraq Şimali Azərbaycanda, Astara rayonun Pəlikəş inzibati ərazisinə daxil olan və hal-hazırda heç kəsin yaşamadığı "Pü" kəndinin ərazisində yerləşən Şeyx Nəsrulla ziyarətgahındadır. Minlərlə qəbri, bir hektardan çox ərazisi tamamilə müxtəlif növ qocaman ağaclarla örtülmüş bu ziyarətgahın iki əsas övliyası yuxarıda adları çəkilən şeyxlərdir.Qəbristanlığın girəcəyində hər iki övliyanın qəbri üzərində məqbərə ucaldılıb.Şeyx Mir Abbas həm də Şeyx Nəsrullanın əmisidir.Sonsuz olan Şeyx Nəsrulla haqqında öyrənə bildiklərimdən belə məlum oldu ki,o özündən əvvəlki şeyxlərdən kəramətdə heçdə geri qalmırmış.Şeyxlə bağlı xalq arasında yayılmış rəvayətlərin birində deyilir ki, keçmişdə böyük nüfuz sahibi olan Abid adlı bir imkanlı şəxs ömrünün sonlarında Həcc ziyarətinə getməyi qərara alır.Ziyarətə getməmişdən əvvəl İslam qanunlarına uyğun hamı ilə halallaşır, uğurlu bir gündə Həcc ziyarətinə yolad üşür.Gün o gün olur ki Həcc mərasimi başa

çatır.Gecəni Kəbə ətrafında digər zəvvarlar kimi keçirdən Abid yuxuda görür ki,ağsaqqal,uzun əbalı,nurani bir kişi ziyarətçilərə bir-bir deyir: "Sənin ziyarətin qəbul olundu", "sənin ziyarətin qəbul olundu".Elə ki, gəlib ona çatdı – "sənin ziyarətin qəbul olunmadı "dedi və keçib yoluna davam etdi.Abid yuxudan ayılır.Səhər vətənə qayıtmaq fikrindən daşınır.Düz bir il Ərəbistanda(Məkkə şəhərində) qalıb gələn Həcc mövsümünü gözləyir.Onun yuxusu isə yenidən əvvəlki tək təkrar olunur. Aradan illər keçir Abidin yeddinci Həcc ziyarətində yuxusuna girən nurani kişi onun Hacı olduğunu nəhayət ki, ona söyləyir. Abid bu illər ərzində daha da qocaldığından çox uzaqlarda olan məmləkətinə getməyə nə taqəti, nə də pulu qalmışdır.O, hamının tanıdığı, hörmətlə yanaşdığı bir üləmanın yanına məsləhətə getməyi qərara alır.Başına gələn əhvalatı əvvəldən-axıra ona danışır və onun Abidə rəhmi gəlir.Ona məsləhət görür ki,səhər sübh namazı vaxtından əvvəl Kəbənin qapısı ağzına gəlib gözləsin.Yaşıl əbalı,alçaq boylu,belində "tolə ğəyş"("cökə ağacının qabığından kəmər") nişanələri olan bir şəxs hər gün beş vədə namazını qılmaq üçün sizin məmləkətdən buraya gəlir.Çalış namaz vaxtı onu gözdən qaçırmayasan.Mənə söylədiklərini ona da danışarsan və xahiş edərsən ki,sənə kömək etsin. Abid deyilən vaxtda yaşıl əbalı şəxsin gəlişini görəndə çox sevinir.Dünən üləmanın dediyi bütün nişanələrini özündə daşıyan həmvətəninə yaxınlaşıb başına gələn əhvalatı ona danışır.Sonda ondan xahiş edir ki,onu da özü ilə məmləkətinə aparsın.Həmən şəxs əvvəl Abidə evinə dönmək üçün yol pulu təklif edir.Abid isə dönə-dönə ondan xahiş edir ki, ona rəhm edib özü ilə məmləkətinə aparsın. Nəhayət, yaşıl əbalı şəxs razılıq verir.Namazdan sonra Abid yaşıl əbalı şəxsin nişan verdiyi yerdə onunla görüşür.Həmin şəxs Abidə deyir ki,ayaqlarını ayaqlarımın üzərinə qoy,belimi möhkəm qocaqla və gözlərini yum və mən aç deməyincə gözlərini açmayasan.Abid bütün deyilənlərə əməl edir və bir azdan onun

qulaqlarına səs gəlir–aç gözlərini - abid gözlərini açır.Bura Həcc ziyarətinə getməzdən əvvəl hər cümə günü ziyarət etməyə və "Yasin" oxumağa gəldiyi "Səyd Cəmul" ("Seyid Camal") türbəsi idi. Həminşəxs ondansoruşur: -Buranı tanıyırsan? Cavab: -Bəli. Sual:- Evinə gedə bilərsən? Cavab:- Bəli. Sual:- Bax gör o gələnlər kimdir? Abid arxaya baxdı,uzaqdan bir dəstə adam gəlirdi,sonra yol-yoldaşına tərəf döndü, ancaq ona əvəzsiz yaxşılıq etmiş həmin şəxs yox idi.Dörd tərəfinə boylandı,amma yaşıl əbalı şəxs qeyb olmuşdu.Abid vətəninə sağ-salamat gəldiyi üçün Allaha min dəfə şükür etdi.Daha sonra əzizləri ilə görüşmək üçün doğma evinə tələsdi.Aradan aylar ötür,həqiqətdə baş vermiş,lakin qeyri-adi görsənən bu hadisə hər tərəfə yayılır.Sonra məlum olur ki, bütün bu nişanələrə malik olan şəxs böyük kəramət sahibi Şeyx Nəsrulladır.Şeyxin bu qeyri-adi kəramətini təsdiqləyən ikinci bir rəvayətdə deyilir ki, bir dəfə atası Şeyx Nəsrullanı yanına səsləyir,lakin səs verən olmur.İkinci dəfə səsləyir, yenə də səs-səmir gəlmir.Ata oğlunu üçüncü dəfə səsləmək istəyərkən Şeyx Nəsrulla özünü qapıdan içəri salır.Heç vaxt atası oğlunu iki dəfə çağırmazdı. Atasının bircə səsinə hay verərmiş.Ona görə də ata oğlu ilə maraqlanır ki, nə üçün gecikdin. Şeyx Nəsrulla atasından üzür istəyib deyir: -Ata, məni birinci dəfə səsləyəndə "Kəbə" də artıq namazımı qılıb qurtarmışdım. İkinci səsinizdə yarı yoldaidim.Şeyxlə bağlı üçüncü rəvayətdə deyilir ki,Şeyx Nəsrulla dostları ilə bulaq başında söhbət edirmiş.Onlar: "Öz kəramətini bizə göstər" deyə, ona sataşırlar. Şeyx təsbehini suya atır.Şirhaşırla axan su təsbehi aparır.Şeyx,"Gedək təsbehimi evimin yanında olan bulaqdan götürəcəyəm"deyib, onlarla bir yerdə gəlib təsbehi axar bulağın başında götürür".Digər rəvayətə görə bir gün Nəmindən Şeyx Nəsrullanın qonağı gəlir və Şeyx sözarası qonağa deyir:- Bugü nsizəelə bir yemək verərəm ki,heç yeməmiş olasız. Süfrəyə yemək gətirilir.Qonaq görür ki,bu həmişə yediyi südlüaşdır.Ona görə də deyir: Şeyx:-Bəs deyirdin

ki,heç yemədiyiniz yemək verəcəyəm?Bu ki,südlüaşdır.Şeyx deyir:-Doğrudan da siz beləsini ömründə yeməmisiniz. Sonra pəncərəsinin pərdəsini çəkib,evin tinində "Küjqo"("Maral") sağan arvadını qonağa göstərir.Qonaq başa düşür ki,Şeyx verdiyi vədəəməl edib.İstər Cənubi Azərbaycanda(Ərdəbildə),istərsə də Şimali Azərbaycanda(Astara rayonunda) Şeyx Nəsrullanın nə atasının adını, nə də onun haqqında yuxarıda verilən rəvayətlərdən başqa məlumat yoxdur.Mir Baba Həmzənin övladlarından Şeyx Müstəfir,Şeyx Exsan, şeyx Molla Babanın adlarını tədqiqat apardığım ərazidə tanıyanlar çoxdur.Lakin adlarını çəkdiyim bu üç Şeyxin həyatı barədə heç kimdəm əlavə bir məlumat öyrənə bilmədim.Səbəb budur ki,XX əsrin əvvəllərində(1920 -1938-ci illər) onlardan bəhs edən şəcərələr dövlət məmurları ("NKVD) "tərəfindən aparılmışdır.Bununla yanaşı Məmmədova Xanımnisanın14 verdiyi məlumatdan belə aydın oldu ki,yuxarıda adı çəkilən Şeyx Molla Babanın eyni adlı nəvəsi Şeyx Molla Babanın məzarı Astara rayonun Kijəbə qəsəbəsinin Burzubənd kəndi ərazisində yerləşən "Şeyx Sultan Məhəmməd Zalani" ("Zoləzo") qəbristanlığındadır.Adı çəkilən sonuncu Şeyxin oğlu Şeyx Molla Kamal Əfəndinin məzarı isə qonşu Səlivə kənd qəbristanlığındadır. Şeyx Molla Kamal Əfəndi adından göründüyü kimi Şeyxlər nəslinin dərin təhsil görmüş nümayəndələrindəndir. O, çoxillik təhsilini Kürdüstanda (İraqda) almışdır.Eyni zamanda Şeyx İlahi vergisinə, qeybdən bilmə kəramətinə malik olmuşdur.
*Şəkil. Şeyx Nəsrulla və Şeyx Abbasın türbəsi. (Sim kəndi)*

**37.Şeyx Mir Abbas türbəsi**(Sm kəndi).Şeyx Mir Abbas türbəsi Astara rayonunun Sım kəndində olan "kanə hi" adlı qədim qəbiristanlıqda yerləşir.Şeyx Abbas Baba Həmzənin oğludur. Şeyx Mir Abbasın məzarı Mir Baba Həmzə və Şeyx Mir Ələmdən fərqli olaraq Şimali Azərbaycanda,Astara rayonun Pəlikəş inzibati ərazisinə daxil olan,hal-hazırda heç kəsin

yaşamadığı "Pü" kəndinin ərazisində yerləşən Şeyx Nəsrulla ziyarətgahındadır.Minlərlə qəbri,bir hektardan çox ərazisi, tamamilə müxtəlif növ qocaman ağaclarla örtülmüş bu ziyarətgahın iki əsas övliyası yuxarıda adları çəkilən şeyxlərdir. Qəbristanlığın girəcəyində hər iki övliyanın qəbri üzərində məqbərə ucaldılıb.Şeyx Mir Abbas həm də Şeyx Nəsrullahın əmisidir.Bu nəslin nümayəndəsi olan Şeyx Abbasın(Bax şəcərə-1) həyatı əsasən Astara rayonunun Sım kəndində keçib.Hələ Şeyx Mir Abbasın dövründə Pəlikəş inzibati ərazisi,xüsusən "Pü" kəndi və onun ətrafı uzun illər Şeyxlərin yaylağı olması ətraf ərazilərdə heç kimə sirr deyildir.Onların Sım kəndində daimi məskunlaşması isə Şeyx Abbasın və onun övladlarının adı ilə bağlıdır.Digər nəslin nümayəndələrindən fərqli olaraq Şeyx Abbasın adı əhalinin iqtisadiyyatı ilə bağlı daha çox səslənir. Sımın mərkəzində Şeyx Abbas əhalinin tələbatını nəzərə alaraq əvvəl bir su dəyirmanı tikdirib.Bu dəyirmanda dörd oğlu növbə ilə şərik işləyib. Sonra kəndin müxtəlif yerlərində hər oğlu üçün bir su dəyirmanı inşa etdirib. Sımda isə,ümumiyyətlə,yeddi belə su dəyirmanının fəaliyyət göstərməsi ətraf əhaliyə məlumdur. Son dövrlərədək həmin dəyirmanlardan ikisi,hal-hazırda isə biri əhalinin istifadəsindədir. Əvvəlki dövrlərdə fəaliyyət göstərən su dəyirmanlarından ikisinin yeri indi belə adlanır: "penə üsyo həmo"("Yuxarı dəyirman hamarlığı") və "Jinə üsyo həmo" ("Aşağı dəyirman hamarlığı").Bu gün fəaliyyət göstərən su dəyirmanı "Jinə üsyo həmo"nun 50 metrliyindədir.Şeyx Abbasın XVIII əsrin sonunda inşa etdirdiyi su dəyirmanının qalıqları (daş çarxlar) hələ də kənd ərazisinin müxtəlif yerlərində açıq səma altında qalmaqdadır.Sım kənd sakini Abbasov İskəndərin16 verdiyi məlumata görə bir gün(XIX əsrin II yarısı)"Şindoni ğalə"nin ətəyindəki otlaqda ot biçən yeddi-səkkiz Sım sakini onlarla bir yerdə işləyən Şeyx Molla Fərəc Əfəndi qardaşı Şeyx Salehin kəramətindən həmkəndlilərini agah etmək üçün

qardaşına üz tutub çiçəklərin üstündə uçuşan arılardan birini göstərib soruşur:Şeyx:-deyə bilərsən bu bizim hansı pətəyin arısıdır?Cavab:-Allahın köməkliyiilədeyəbilərəm.Sonra göstərilən arının ayaqlarına nazik bir sap bağlayıb, onun hansı arı pətəyindən olduğunu söyləyib arını buraxır.Həqiqətən da otlaqdan qayıdan biçinçilər Şeyx Salehin nişan verdiyi arı pətəyinin yanına gələndə,ayağına sap bağlanmış arını pətəyin qabağında uçuşa görürlər.Şeyx Abbasın kiçik oğlu Şeyx Molla Fərəc Əfəndi də dövrünün təhsil almış şeyxlərindən biri olub.O, Ərdəbildə(İran İslam Respublikasında) ilk təhsilini almışdır. Şeyx Molla Fərəcin 90 yaşlı nəvəsi Şeyx Molla Mirhəsən(Bax şəcərə-I) söylədiklərindən belə məlum oldu ki, 4-5 yaşlarında olarkən babası onu dizi üstə oturdub,başına əl sürtüb əzizləyər, oxuduğu "Fatihə", "İxlas" və sair Quran sürələrini əzbərləyib, təkrarlamağtapşıraramış.Şeyx Molla Mirhəsən babası haqqında el içində geniş yayılan,anası Şərabanu xanımdan dəfələrlə eşitdiyi bir hadisəni xatırlayaraq deyir: -Bir dəfə Ərdəbildə qonaq olarkən,gənc Şeyx namaz qıldıqdan sonra ev sahibindən icazə alıb qurani Kərimin mübarək surələrindən birini Allah yolunda oxumağa başlayır.Oxuyub qurtardıqdan sonra əlindəki "Müqəddəs kitab"ı hələ yerinə qoymamış eşidir ki,ev sahibəsi nadinclik edən bir uşağına acıqlanıb deyir: -Oğlum, dinc otur.Qonağımız "Yasin"in qol-qıçını necə sındırdısa, mən də sənin qol-qıçını eləcə sındıraram.Bu deyilənləri eşidən cavan Şeyx ev sahibəsinin eyhamından başa düşür ki, "Yasin"i yaxşı oxumayıb. O, heç bir söz demədən bir gün sonra Sıma qayıdır.Bir müddət sonra isə evdəkilərlə xudafizləşib "Kürdüstan"a təhsil almağa gedir.Şeyx Molla Fərəc 25 il dini və dünyavi təhsil aldıqdan sonra, Əfəndi dini rütbəsi ilə doğma kəndinə dönür.Digər bir rəvayətə görə isə ilk təhsilini Ərdəbildə alan gənc Şeyx "Kürdüstan"a gedir ki, imtahan verib, tam dini biliyə sahib olmaq barədə ruhani məktəbindən bir sənəd alsın. İraqda qonaq olduğu evdə namaz qılıb, sonra ev

sahibəsindən “Yasin”i17 oxumağa icazə alır.Oxuyub qurtarandan sonra eşidir ki, ev sahibəsi nadinclik edən oğluna deyir: -Oğlum dinc otur. Əgər dinc qalmasan qonağımız “Yasin”in qol-qıçını necə bağladısa,mən də sənin qol-qıçını eləcə bağlayaram.Məktəbə də gedərkən imtahan verməyə yox, elm öyrənmək üçün gəlməsini deyib,düz 25 ildən sonra tam təhsilini başa vurub vətəninədönür. Doğma kəndinə qayıtdıqdan sonra, evlərinin yaxınlığında, “Şeyx Abdulla” türbəsinin bir-neçə metrliyində məscid tikdirir (sonradan bərpa olunan məscid indi əhalinin istifadəsindədir) və ətraf kəndlərdən yanına gələn yüzlərlə şagirdinə din və şəriət haqqında biliklər öyrədir.Firdovsinin “Şahnamə”,Sədinin “Gülüstan” və “Bostan”,Nizami Gəncəvinin və Məhəmməd Füzulinin divanlarından dərs demişdir.Pəlikəşdən Molla Nafe Əfəndi, Təngərüd kəndindən Mir Yəhya,Piyəkənərüd kəndindən Molla Əmir,Gilgün1kəndindən Şeyx Molla Osman Şeyx Fətulla oğlu və s. öz dövrünün dini biliciləri Şeyx Molla Fərəc Əfəndinin məktəbindətəhsil almışlar.Şeyx Molla Fərəc Əfəndi 107 yaşında (1915-ci ildə), həyat yoldaşı Şinənoz xanım isə XX əsrin ilk illərində Sım kəndində dünyasını dəyişmişlər.

**38.Şeyx İzacəddin” ziyarətgahı.**(Hamoşam kəndi).Şeyx İzacəddin türbəsi Astara rayonu Hamoşam ərazisində arasında yerləşir.Adından da göründüyü kimi bu ziyarətgah öz adını Şeyx İzacəddin adlı bir zatan götürmüşdür.Ehtimal ki Şeyx İzacəddin öz dövrünün kəramət sahiblərindən olmuşdur.Bu ocaq da digər ocaqlar kimi insanıların pənah gətirdiyi ziyarətgahlardan biridir.Bu pir az ziyarət olunan pirlər syahısındadır və əsasən yerli sajinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.Bu pir haqqında məlumat çox azdır.

**39.Şeyx Anbər türbəsi** (Bacalar –Tınqov arası). Şeyx Minbər türbəsi Astara rayonu Bacalar və Tınqov kəndləri arasında

yerləşir.Bu pir az ziyarət olunan pirlər syahısındadır və əsasən yerli sajinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.Bu pir haqqında məlumat çox azdır.



**40.Şeyx Saleh ocağı**.Şeyx Saleh ocağı Astara rayonunun Sım kəndinin “kanə Sim” deyilən məhəlləsindəki qəbiristanlıq ərazidə yerləşir.Bu ziyarətgah deyilənlərə görə öz adını Orta əsrlərdə o ərazidə yaşamış Saleh adlı şeyxdən götürmüşdür.Tarix elmləri doktoru Məşədixanım Nemət orta əsrlərdə müsəlman şərqində ərəbcə “şeyx” , “həzrət”, farsca “pir” , azərbaycanca 2baba” , “ağa” sözlərinin ləqəb olub,bu adların böyük ruhani alimlərə,təriqət başçilarina verildiyin yazır”(Azərbaycanda pirlər.B.,1992,səh.6). Şeyx Saleh də Seyid Cəamləddin və Baba Cəbaryıl kimi bu ərazilərdə İslamı yayamaq üçün Sima gəlmiş və burada sufiliyi yayamağa başlamışdır. Ömrünün ən gözəl çağlarını burada keçirən Şeyx Saleh burada öz dini məktəbini açaraq şagirdlər hazırlamışdır.O öz ömrünü Simda başa vumuş və elə onun vəsiyyəti ilə onu bu ərazilərdə dəfn etmişlər.İnsanların ona onlan sonsuz inamı və sevgisi zaman-zaman onun məzarı başına yığılmalarına səbəb olmuşdur.Beləki,Şeyx Salehin məzarı başına gələn insan lar onu ziyarət etmiş və qəbri üstündə məşəllər yandırmışlar.Yağış aylarında islanmamaq üçün insanlar müxtəlif zamanlarda onun məzarı üzərində ağac materiallarından tikililər tikmişlər.Lakin bu tikililər zamanla eroziyaya uğrayaraq köhnəlmş və insanların ziyarətini çətinləşdirməyə başlamışdır.Bu problemi həll etmək üçün 1998 ci ilin maya ayında yerli sakinlər tərəfindən yenə ağac

materialından taxtadan bir talvar tikilmiş və günümüzə qədər qalmaqdadır.Bu tikilinin ölçüsü 2x3 metr olmaqla bir qapısı və sağ tərəfdə kiçik bir nal pəncərəsi vardır.Günümüzdə bu kənddə Şeyx Salehin nəslindən olanlar yaşayarı və olar yerli sakinlər tərəfindən "şeyxon" – yəni talışca olan "şeyxlər adlandırmışlar.



**41.Şıxunüləsi türbəsi**(Hamoşam kəndi).Bu türbə Astara rayonunun Hamoşam kəndindən şimal-şərqdə yerləşir.Bu ziyarətgahın sahibinin Şeyx İracəddin olduğu bildirilir və deyilənlərə görə onun Şeyx Miracəddin adlı kiçik bir qardaşı olmuşdur.Şeyx İracəddin öz dövrünün kəramət sahibi olmuş və yerli sakinlər tərəfindən daim ehtiramla yad edilən və sayılan bir zat olmuşdur.Ziyarətgahın ətrafında geniş bir qəbiristanlıq da var.Onun qəbri üzərində əvvəllər tikili olmuş, lakin sonradan dağılmışdır və hal-hazırda yalnız bu türbənin binövrəsi bilinir.Deyilənlərə görə Şeyx İracəddin ərazidə məskunlaşmış qeyri-müsəlman,atəşpərəstləri və yəcuciləri islama dəvət etmişdir.*Şəkil.Şıxunüləsi türbəsi.*

**42.Şüşə məqbərə**(Şahağac kəndi).Şüşə Astara rayonu Şahağac kəndi ərazisində yerləşir.Bu məqbərə insanlar tərəfindən zaman-zaman inanc yerinə çevrilmişdir. Bu pir az ziyarət olunan pirlər syahısındadır və əsasən yerli sajinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.Bu pir haqqında məlumat çox azdır.



**43.Şah Mahmudi piri.**Şah Mahmudi piri Astara rayonu ərazisində yerləşir.Əsasən yerli əhali tərəfindən ziyarət olunur. Bu pir az ziyarət olunan pirlər syahısındadır və əsasən yerli sajinlər və ətraf kəndlərin sakinləri tərəfindən ziyarət olunur.Bu pir haqqında məlumat çox azdır.*Şəkil.Şah Mahmudi piri*



**44.Türbə**(Şahağac kəndi).Bu türbə yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Şahağac ərazisində yerləşir. Türbənin tikilmə tarixi XII əsrə təsadüf edir.Türbə cənub bölgəsində yerləşən ən qədim memarlıq abidələrindəndir.Bu türbə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XII əsrə aid yerli əhəmiyyətli memarlıq abidə kimi qeydə alınmışdır. Türbənin invertar nömrəsi 4125,sistem kodu isə AJA003924-dür.*Şəkil.Şahağac türbəsi*

**45.Türbə qalıqları**(Ərçivan kəndi). Türbə qalıqları yerli əhəmiyyətli memarlıiq abidəsidir və Astara rayonun Ərçivan kəndi ərazisində yerləşir.Abidənin tikilmə tarixi XIII əsrə aiddir. Abidənin invertar nömrəsi 4118,sistem kodu isə AJA003917-dir.



**46.Zoləzo piri**(Burzbənd kəndi). Zoləzo türbəsi Astara rayonunun Burzbənd kənd qəbiristanlığı ərazisində yerləşir.Pir düzbucaqlı formada olmaqla bütünlüklə taxta materialı ilə hörülüb və türbənin damı dəmir təbəqə ilə örtülmüşdür.Türbənin içərisində, orta hissədə bir qəbir var və deyilənlərə görə burada dəfn olunan şəxs İranda yaşamış Şeyx Məhəmməd adlı şəxsdir.Onun ərəb mənşəli olduğu və təqiblərdən yaxa qurtarmaq üçün buraya pənah gətirdiyi söylənilir.Onun bu ərazilərə dəqiq gəlmə tarixi məlum deyil, ehtimal ki VIII əsrdə gəlmiş-dir.Lakin digər məlumatlara görə Şeyx Məhəmməd bu əraziyə 1000-1300 il bundan əvvəl gəlmişdir.Abidənin sahəsi 4x5 metr,hündürlüyü isə 2, 20 metrdir. Bu pir ərazisindəki qəbiristanlığında Baba Həmzənin övladlarından olan Şeyx Şəms dəfn olunmuşdur və o böyük kəramət sahibi olmuşdur.Şeyx Molla Babanın eyni adlı nəvəsi Şeyx Molla Babanın məzarı “Şeyx Sultan Məhəmməd Zalani” (“Zoləzo”) qəbristanlığındadır.O,135 il ömür sürmüş,beş övlad sahibi Şeyx Şəmsinin həm də yuxarıda adları çəkilən şeyxlərin “əmisi oğlu”olduğun uöyrəndim. Fətullayev Sabirin atası Şeyx Molla Mirhəsəndən eşitdikləri bu yaxınlığı bir daha təsdiq edir. O, 1969-cu ildə olmuş bir əhvalatı belə xatırlayır : Ramazan bayramı idi.Ailəmizlə birlikdə “Zoləzo” türbəsinə ziyarətə getmişdik və yuxarı qəbristanlıqda təpənin üstündəki qəbri ziyarət etdikdən sonra atam bizi məzarın ətrafına toplayıb dedi: - Bu məzar böyük kəramət sahibi olan “əmioğlu”muz Şeyx Şəmsinindir.Atam Şeyx Molla Abbas ömrünün son çağında vəsiyyət edib dedi ki,nə vaxt övladlarım hökumət işində çətinə düşərsə gəlsin Səlivəyə məzarımın başına.Qəbrimin sol tərəfində

dayanıb dərdini, arzusunu desin. Mən sizi eşidərəm.Əgər sizə qarşı haqsızlıq edilibsə,cəddim köməyiniz olar,qələbə qazanarsınız.Birdən Səlivəyə gəlmək sizin üçün çətin olsa onda “Zoləzo” da bizim “əmioğlu”muz Şeyx Şəmsinin məzarı başına gedin.Mənə danaşacaqlarınızı ona deyərsiniz və o mənə çatdırar. Amma məzar başında ağlamayasınız, yoxsa göz yaşlarınız sizin üzünüzü görməyə imkan verməz.Burzubənd kənd sakini Hidayətov Yədullanın verdiyi məlumata görə Şeyx Şəmsinin dörd əmisi və özündən yaşca balaca olan Şeyx Lətif adlı qardaşı olub.Atası Şeyx Məhyəddin əvvəllər Astara rayonun Ovələ kəndində yaşamış, sonra qardaşları ilə birğə qonşu Burzubənd kəndinə köç etmişlər. 250-300 il əvvəl bu ərazidə yaşayan tayfa ağsaqqalı Şeyx Şəmsi vəfat etdikdən sonra qəbristanlığın yuxarı başında,təpənin üzərində qoyulan məzarı ziyarətgah kimi əhalinin inanc yerinə çevrilmişdir.Qotur və qarayara xəstəliklərinə mübtəla olan şəxs Şeyxin məzarı başında Allahdan imdad diləsə tezliklə şəfa tapar.Ən çox məzar başına gələnlər körpəsi yeni dünyaya gəlmiş analardır.Hələ uşaqikən övladlarını ziyarətə gətirirlər ki, bir çox xəstəliklərdən Allahın izni ilə ömür boyu hifz olunsun. 1993-cü il 16 may tarixində Şeyxin nəslindən olanların köməyi ilə məzarın üzərində məqbərə ucaldılıb. Məqbərə Şeyxin qəbri ilə yanaşı daha üç naməlum qəbrin də üstünü örtmüşdür. Şeyx Şəmsi haqqında şifahi xalq rəvayətlərin birində deyilir ki,onun tayfa başçısı olduğu bir zaman Ərəbistandan gəlmiş Hacı Canbaba adlı mömün bir dostu olur. Onlar kəramətdə bir-birindən heç də geri qalmazmışlar. Hər ikisi Allahın onlara bəxş etdiyi kəramət nəticəsində dünyanın bir çox elmlərinə və qeybdən bilmə qabiliyyətinə malik olublar. Bu kəramət sahibləri haqqında Allah bəndəsinin söylədiyi hər bir söz-söhbətdən onlar agah olarmış.Bütün bunlarla yanaşı Şeyx Şəmsi həm də Allahın ona bəxş etdiyi kəramət nəticəsində hər gün sübh namazını Kəbədə qılarmış.O,bununla həmişə öyünərmiş.Belə

anlarda dostu Hacı Canbabanın ona doğru olaraq söylədiyi məsləhətlərini belə eşitməzmiş. Heç nə Allahdan gizli qalmadığı kimi, Şeyxin bu əməli də Tanrıya sirr deyildi.Günlərin bir günü Şeyx Şəmsi Allah-Təala tərəfindən bu hərəkətinə görə cəzalanır. Onun hər gün Kəbəyə getmək hikməti əlindən alınır.Hacı Canbabaya verilir.Böyük bir kəramətdən məhrum olan Şeyx Şəmsi öz əməlindən ona xətər toxunduğunu başa düşür.Dərd-qəm çəkməyə başlayır.Ağlamaqdan gözləri tutulur.Hacı Canbaba dostunun bu iztirablarına dözməyib köç edib uzaqlara,Arana doğru gedir.Baba Həmzə nəslinin böyük kəramətə sahib digər bir övladı Şeyx Əbdülbağır Əfəndidir.Əlihəsən Həmzəyev tərəfindən yaradılmış,babası Şeyx Əbdülbağır Əfəndinin Miki kəndində fəaliyyət göstərən ev muzeyində olarkən onu da öyrəndim ki, Şeyxə məxsus kitab və əlyazmalar təkcə burada yox,həm də Respublika Əlyazmalar Fondunda saxlanılır.Astara rayonun Miki kəndində anadan olmuş,İraqda çoxillik dini və dünyavi təhsil almış,riyaziyyat,münəccimlik,ilahiyyat,tarix və s. elmlərə dərindən bələd olan Şeyx Əbdülbağır Əfəndi 85 yaşında (1851-1936-cı ilin I yarısında)doğulduğu kənddə də vəfat etmişdir. Şeyxin vəsiyyətinə görə məzarı Miki kənd qəbristanlığında(“Baba Məmməd qəbristanlığında”)qoyulmuş və tezliklə ətraf əhalinin ziyarətgahına çevrilmişdir.*Şəkil.Zoləzo piri.*

## Astara məscidləri(32 ədəd)

| № | Şəhər, qəsəbə, kənd | Məscidin adı |
|---|---|---|
| 1 | Astara şəhəri | Qum məscidi |
| 2 | Astara şəhəri | Giləkəran kənd məscidi |
| 3 | Astara şəhəri | Səməd Vurğun küçəsi məscidi |
| 4 | Astara şəhəri | İmam Zaman məscidi |

| | | |
|---|---|---|
| **5** | **Kijəbə qəsəbəsi** | qəsəbə məscidi |
| **6** | **Siyakü kəndi** | Cümə məscidi |
| **7** | **Kakalos kəndi** | Cümə məscidi |
| **8** | **Pensər kəndi** | Cümə məscidi |
| **9** | **Pensər kəndi** | Hacı Teymur Cümə məscidi |
| **10** | **Maşxan kəndi** | kənd məscidi |
| **11** | **Sım kəndi** | kənd məscidi |
| **12** | **Lovayın kəndi** | kənd məscidi |
| **13** | **Sığaloni kəndi** | kənd məscidi |
| **14** | **Vəznəş kəndi** | kənd məscidi |
| **15** | **Təngərüd kəndi** | Həzrət Əli məscidi |
| **16** | **Artupa kəndi** | kənd məscidi |
| **17** | **Məscidməhəllə kəndi** | kənd məscidi |
| **18** | **Vaqo kəndi** | kənd məscidi |
| **19** | **Rüdəkənar kəndi** | kənd məscidi |
| **20** | **Qapıçı məhəllə kəndi** | kənd məscidi |
| **21** | **Suparibağ kəndi** | kənd məscidi |
| **22** | **Selekəran kəndi** | kənd məscidi |
| **23** | **Ərçivan qəsəbəsi** | Məhəmməd Hənəfiyyə məscidi |
| **24** | **Səncərədi kəndi** | kənd məscidi |
| **25** | **Balaca Şahağac kəndi** | kənd məscidi |
| **26** | **Şuvi kəndi** | kənd məscidi |
| **27** | **Şiyəkəran kəndi** | kənd məscidi |
| **28** | **Şahağacı kəndi** | kənd məscidi |
| **29** | **Alaşa kəndi** | kənd məscidi |
| **30** | **Hamuşam kəndi** | kənd məscidi |
| **31** | **Toradi kəndi** | kənd məscidi |
| **32** | **Miki kəndi** | Şeyx Əbdülbağır |

| | | |
|---|---|---|
| | | məscidi |



**1.Astara şəhəri**“Qum”**məscidi**. Astara şəhər Qum məscidi yerli əhəmiyyətli memarlıq abidə-sidir və məscid Astara şəhəri Qum küçəsi №157-də yerləşir. Məscidin tikilmə tarixi əsas giriş qapısı üstündəki daş kitabədə hicri-qəməri 1325-ci il cəmadi əl-axər ayında tikildiyi yazılıb. Bu da mildi təqvimlə 1898-ci ilə təsadüf edir.*(Bax:Azərbaycan Respublikası Məscidlərinin Ensiklopediyası.B.,2001,səh28).*Məscidin həyətyanı sahəsi 1200 kv,metr,kişilər üçün nəzərdə tutulmuş ibadət zalının sahəsi iki hissədən ibarət olub,hər birinin ayrı-ayrılıqda sahəsi 7x4 metrdir. Astara şəhəri Qum məscidinin əsas binası bişmiş kərpiclərdən inşa olunub.İçərisi qum, siment məhlulu ilə suvanıb və əhənglə ağardılıb.Tavanı taxta və fanerlə örtülüb.Məscidin döşəməsindən tavana qədər 5,5 metr,mehrabın hündürlüyü 4,5 metrdir. Məscidin minbəri taxtadandır və 5 pillədən ibarətdir. Məscidin ibadət zalında beş tağvari pəncərə qoyulub.Məscidin həyətində yardımçı otaqlar tikilmişdir və məscidin dam örtüyü qırmızı kirəmitdəndir.Bundan əlavə məscidin güldəstə formasında olan günbəzi səkkizgüşəli olub,şəbəkələrlə işlənilmişdir.Həyətyanı sahə asfaltla döşənilib.Onun tikintisinə H.Z.Tağıyevin maddi yardım göstərdiyi qeyd olunur.Sovetlər dönəmində bu məscid bağlanmış və bir çox məscidlər kimi öz fəaliyyətini dayandırmışdır.1992-ci ildə burada təmir işləri bərpa işləri aparılıb.Məscid Astara şəhəri Qum küçəsində yerləşir.*(Bax: Azərbaycan respublikası Məscidlər Ensiklopediyası).*Məscidin sahəsi 221 kv.m,tutumu isə 200 nəfərdir.Qum məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci

il tarixli 132 saylı Qərarına əsasən XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidə kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4114,sistem kodu isə AJA003913-dür.*Şəkil. Astara şəhər "Qum" məscidi.*



**2.Astara şəhər "stansiya" məscidi.**Astara şəhər stansiya məscidi yerli əhəmiyyətli tikilidir və məscidin tikilmə tarixi XIX əsrə təsadüf edir.Məscidin ölçüsü 240 kv.metr və tutumu isə 200 nəfərdir. Məscid Astara şəhəri ərazisində yerləşir.Bu "stansiya"məscidi yerli əhəmiyyətli tikilidir və Astara şəhəri ərazisində yerləşir.Məscid yerli sakinlərin və ağsaqqallarının təşəbbüsü ilə tikilmişdir.Astara şəhər "stansiya"məscidi qırmızı kərpicdən tikilmişdir.Məscidin sahəsi 300metr$^2$,uzunluğu 20 metr,eni isə 12 metrdir.Bu məscid Astara rayonunun yaxşı məscidlərindən biridir.Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir,qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir.İnteryerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır.Qadınlar olan yerdə də şəbistan vardır.O şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq, qapı-pəncərələri, tavanı, dayaq sütunları, kum örtüyünün konstruksiyası ağac materialından, dam örtüyü isə kirəmitdəndir.Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür.Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr,eni isə 2 metrdir.

Məscidin invertar nömrəsi 4122,sisitem kodu isə AJA003921-dir.*Şəkil. Cahanbaxış məscicdi.*

**3.Astara şəhər**“İmam Zaman ağa”**məscidi.**Astara şəhər “İmam Zaman ağa” məscidi Astara şəhərində yerləşir. Məscidin tikilmə tarixi XIX əsrə təsadüf edir və məscid kənd sakini xeyriyyəçi Hacı Həsən Salmanov tərəfindən qırmızı kərpicdən tikilmişdir və məscidin sahəsi 200kv. metr,uzunluğu 25 metr, eni isə 12 metrdir. Bu məscid Astara rayonunun yaxşı məscidlərindən biridir və məscidin fasadında iki qapı və beş ensiz, hündür pəncərələr vardır. Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır, pəncərələr şəbəkəlidir. Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir və interyerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır,qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girməkolar. Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq, qapı-pəncərələri, tavanı, dayaq sütunları, kum örtüyünün konstruksiyası ağac materialından , dam örtüyü isə kirəmitdəndir.Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür.Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2, 5 metrdir. *Şəkil. Astara şəhər ”stansiya” məscidi.*



**4.Artupa kənd məscidi.**Artupa kənd məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir.Ümumən məscidin tikilmə tarixi hicri-qəməri təqvimi ilə 1303-cü ilə təsadüf edir- miladi yəni 1903-ci ildə tikilmişdir.1854-69 cü ilə aid olan Rusiyan imperiyasının

yaşayış məntəqələri adlı kitabda Artupa kəndində 1 məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Местъ Российской Империи – 1854-69).*Həyətyanı sahəsi 500 metr$^2$,iç sahəsi 6,5x18-dir.Düzbucaqlı formada olan bu məscid qırmızı kərpicdən tikilib və divarlarının qalınlığıə 0,60 metrdir.Məscidin üç qapısı və altı pəncərəsi var və qapı-pəncərələri tağvari formadadır.Məscidin döşəməsi torpaq, tavanı isə taxta ilə işlənib və mehrab bişmiş kərpiclə işləniv.Minbəır taxtadan olmaqla beşplləlidir.Damı kirəmitlə örtülüb.Günbəzin hündürlüyü 2,5 metrdir və dörd güşəyə malikdir və onun üst hissəsi kirəmitlə işlənib.Məscidin qadınlar şöbəsi iki mərtəbəlidir və hər bir mərtəbənin sahəsi 6,5x4 metrdir.Birinci və ikinci mərtəbə arasındakı arakəsmə taxtadandır və şöbənin tavanı 3 taxta sütun üzərində dayanır. Artupa kənd məscidi camaatın şəxsi vəsaiti hesabına tikilib və sovetlər dönəmində anbar kimi istifadə olunub.1989-1990-cı illərdə təmir zamanı dam örtüyü tamamilə dəyişdirilib.Məscidin sahəsi 105 metr$^2$ və tutumu isə 120 nəfərdir.Artupa məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1903 –cü ilə aid yerli əhəmiyyətli memarlıq abidə kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4127,sisitem kodu isə AJA003926-dır. *Şəkil.Artupa kənd məscidi.*




**5.Alaşa kənd məscidi.**Alaşa kənd məscidi Astara rayonunun Alaşa kəndi ərazisində yerləşir.Məscidin sahəsi 102 metr$^2$,tutumu isə 90 məfərdir və məscid kənd sakini xeyriyyəçi Nəhmətov Abdulla Şahpələng tərəfindən 2004-cü ildə qırmızı kərpicdən

tikilmişdir.Məscidin sahəsi 200 metr$^2$, uzunluğu 25 metr,eni isə 12 metrdir.Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir,qapı və pəncərələr tağlıdır, pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır və interyerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir.İnteryerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır,qadınlar olan yerdə də şəbistan vardır və oşəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var. Məscidin döşəməsi torpaq, qapı-pəncərələri,tavanı,dayaq sütunları,dam örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir. Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür. Məscid pilləkənləri daşdandır və beş pilləsi var və ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2,5 metrdir.*Şəkil.Alaşa kənd məscidi.*



**6.Bala Şahağac kənd məscidi.** Bala Şahağac məscidi Astara rayonunun Bala Şahağac kəndi ərazisində yerləşir.Bala Şahağac məscidi yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına 1898-ci ildə tikilib istifadəyə verilmş və Təngərüd kəndindəki hz.Əli məscidinə bənzəyir. Məscidin iç sahəsi 21x8 metr,sahəsi 214 metr$^2$, tutumu isə 200 nəfərdir.Məscid formaca düzbucaqlıdır və əsasən mişar daşı ilə tikilib.Məscidin döşəməsi torpaq,tavanı isə taxtadandır.Məscidin iki qapısı və üç pəncərəsi var.Qapılar və pəncərələr tağvari formalıdır və taxtadan düzəldilib.Məscidin damı dəmir təbəqə ilə örtülüb.*Şəkil. Bala Şahağac kənd məscidi.*



**7.Ərçivan qəsəbəsi**”Məhəmməd Hənəfiyyə” **məscidi I.**Məhəmmdə Hənəfiyyə məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Ərçivan qəsəbəsi ərazisində yerləşir.1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Ərçivan kəndində 1 məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Местъ Российсской Империи – 1854-69).*Məscidin tikilmə tarixi XIX əsrə aiddir və bu məscidin yaşı 500 ildən çoxdur.Kənd sakinlərinin sözlərinə görə məscidin əsası 1460 cı ildə qoyulmuşdur.Məscid Şeyx Zənd Gilani və ya Məhəmməd Hənifə adlanır.(Məhəmməd Hənifə I İmam Əli(ə) oğludur.Deyilənlərə görə məscidin bünövrəsi qeybdən gəlib.Rəvayətə görə Şeyx Ənd Glani Ərçivan kəndinin ilk sakini olub.O,Keysani müharibəsində 60 yaşında meraca gedibdir.Şeyx Zənd Gilani VII İmam Museyi –Kazım ə.s-nın qız nəvəsidir.Məscidin yanında təkiyə də tikilmiş,sonralalr isə söküntüyə məruz qalsa da ,yer bu gün də görünür.Məscidin həyəti böyük qəbiristandır.Səfəvilər dövlətinin banisi, balaca İsmayıl Ağqoyunlu sultanı Rüstəm Mirzənin təqiblərindən qorunmaq üçün 6 il Lahicanda yaşayıb,1499-cu ilin avqustunda isə tərəfdarları ilə Astara rayonunun Ərçivan kəndinə gələrək 1499-1500-cü ilin qışını burada keçirib.O, Məhəmməd Hənəfiyyə məscidinə nəzir qoyub,ziyarət etdikdən sonra fatehlik fəaliyyətinə başlamışlar.XIX əsrdə məscid yenidən tikilmiş, bir neçə dəfə təmir olunmuşdur.1917-ci ildə məscid yandırılmışdır.80-cı illərdə Astara rayon Partiya Komitəsinin katibi işləmiş Çingiz Fərəcov tərəfindən təmir edilmşdir.Vaxtilə məscidin həyətində neft fantan vurub və kənd camaatı ondan istifadə edirdi..İç sahəsi 22x6 metrdir və divarları isə bişmiş

kərpiclə hörülüb.Məscid kişilərin və qadınların ayrıca ibadət etməsi məqsədilə iki hissədən ibarətdir və qadınlar olan hissə ikimərtəbəlidir.Binanın dam hissəsində azan vermək üçün 7 pilləli ağac materialdan minarə tikilib.Əvvəllər məscid iki mərtəbədən ibarət olub və məscidin döşəməsi qırmızı kərpic, tavanı isə taxtadandır.Sovet dövründə Məhəmməd Hənəfiyyə məscidi bağlanmış, məscidin imamı Ayətullah Şeyx Möhsün elə öz həyətindəcə məhkəməsiz olaraq güllələnmişdir. Bolşeviklər həm məsciddən,həm də hüseyniyyədən təsərrüfat anbarı,kitabxana,klub və 1980 –cı ildə isə muzey kimi istifadə etmişlər.Mehrabı sadə formaya malik olub hündürlüyü 3 metrdir və minbər 1984-1985-ci illərdə düzəldilib.Məscidin həyətində Hüseyniyyə binası da (16x5 metr) yerləşib.Tarixi məlumatlara görə şah İsmayıl Xətai Şirvana yürüşü zamanı burdan keçərkən bu məsciddə namaz qılıb.Sovetlər dövründə anbar,hal-hazırda məscidin axundunun oturduğu otaq isə kitabxana kimi istifadə olunub.Hüseyniyyə binası isə anbar və kitabxana kimi də istifadə olunub.1990-cı ilə qədər məsciddə bərpa işləri aparılmışdır.Bundan sonra məscid və hüseyniyyə divarları bişmiş kərpicdən hörülmüş,tavanı isə taxta ilə hörülmüş.Sonralalr dağıntılara məruz qalmış bu tarixi abidənin özülü üzərində yeni məscid tikilib.Məscidin tikilməsində diqqət cəlb edən amillərdən biri də odur ki,bu ibadətgah qiblə səmtinə deyil,qiblənin əks fəaliyyətəbaşlamışdır.Bu məscid Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidə kimi qeydə alınmışdır.Məscidin sahəsi 180 metr$^2$, tutumu isə 200 nəfərdir.Abidənin invertar nömrəsi 4117,sistem kodu isə AJA003916-dır.*Şəkil.Hənəfiyyə məscidi.Astara rayonu Ərçivan qəsəbəsi.*



**8.Giləkəran kənd məscidi**. Giləkəran kənd məscidi Astara rayonunun Giləkəran kəndi ərazisində H.Əliyev küçəsi № 204-də yerləşiyerləşir.Məscidin tikilmə tarixi XIX əsrin axırlarına təsadüf edir.1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Giləkəran kəndində 1 məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Месть Российсской Империи – 1854-69)*.Məscidin həyətyanı sahəsi 600 $^{2}$metr.iç sahəsi 22x8 metr, məscidin sahəsi 181,8,tutumu isə 150 nəfərdir.Giləkəran kənd məscidi bişmiş kərpicdən tikilmişdir.Məscid divarlarının qalınlığı 0,60 metrdir və məscidin minbəri taxtadandır və üçpilləsidir.Giləkləran məscidinin iki giriş qapısı var.(kişilər və qadınlar üçün). İbadət zalında beş pəncərə var.Məscididin tavanı taxta,döşəməsi isə kərpicdən olmaqla üstündən suvaq çəkilmiş və əhənglə ağağrdılmışdır və məscidin damı kirəmirtlə örtülüb. Məscidin damında günbəz var günbəz dördgüşəlidir və hündürlüyü 2,5 metrdir.Giləkəran məscidi Sovetlər dönəmində abnbar, kitabxana və sair məqsədlər üçün istifadə edilib.1990-cı ildə məsciddə təmir-bərpa işləri aparıldıqdan sonra fəaliyyətə başlamışdır.*Şəkil.Giləkəran kənd məscidi.*




**9.Hamoşam kənd məscidi.** Hamoşam kənd məscidi Astara rayonunun Hamoşam kəndi ərazisində yerləşir.Məscidin sahəsi 20 metr$^{2}$.tutumu isə 30 nəfərdir.Məscid yerli əhali tərəfindən şəxsi vəsaitlə 1923-cü ildə tikilmişdir, lakin zaman-

zaman sonra o yararsız hala düşmüşdür.Bu səbəbdən də kənd sakinləri və xeyriyyəçiləri tərəfindən yeni məscidin tikilməsi üçün vəsait yığılmış və Hamoşam kəndində yeni məscid binası tikilməyə başlanmışdır. Məscid dağın yamcında yerləşir.Məscid digər məscidlərə nisbətən çox hüündür və muasir üslibda tikilmişdir. Məscid divarları mişar daşlarından tikilmiş və onun damı isə yaşıl rəngli məxnməri dam örtüyü ilə örtülmüşdür.Məscidin giriş hissəsində dördkünc formalı talvar var və onun eyni ölçüdə 12ədəd pəncərəsi var.Bu pəncərələrin hündürlüyü iki metr, eni isə 1 metrdir və pəncərələrin üst hissəsi tağvari formadadır.Ayrıca olaraq qeyd etmək istəyirəm ki,Hamoşam məscidinin divarları çöl tərəfdən xüsusi plitkalarla hörülmüşdür.Məscidin damında iki ədəd kvadrat formalı azan verən yer var və bu azanverən yerlərin damı da yaşıl rənglidir.Məscidin içərisində muiasir üslübda hər bir şərait yaradılmışdır və içərisi iki hissəyə bölünmüşdür. Bundan əlavə məscidin içərisində akt zalı, məscid ehsanatlarının saxlanılması üçün yerlər və kitabxana vardır.*Şəkil. Hamoşam kənd məscidi.*



**10.Kələdəhnə kənd** “Sahib-əz-zəman ”**məscidi.** Kələdəhnə kənd məscidi Astara rayonunun Kələdəhnə kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi 1988-ci ilə təsadüf edir və bişmiş kərpicdən tikilib.Məscidin İç sahəsi 24x8,5 metrdir.Məscidin damı dəmir təbəqə ilə örtülüb.Məscidin iki qapısı və üç pəncərəsi var və qapı və pəncərələr tağvari formadadır və taxtadan hazırlanıb.Məscid qoşa minarəyə malikdir və minarələr bişmiş kərpicdən hörülüb.Minarələr dairəvi formadadır, onların yuxarı hissəsi dəmir təbəqə ilə işlənib

və qübbənin üstndə dəmirdən aypara rəmzi qoyulub.*Şəkil. Kələdəhnə kənd " Sahib-əz-zəman "məscidi.*



**11.Kakalos kənd**"Cümə" **məscidi.**Kakalos kənd "Cümə" məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir bu məəscid və Astara rayonunun Kakalos kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi haqqında məlumatlar müxtəlifdir.Beləki Kakalos məscidinin tikilmə tarixi 1899,1900 və 1907-ci illər göstərilir. Məscidin həyətyanı sahəsi 600 metr$^2$, iç sahəsi 24x9 metr- sahəsi 194 metr$^2$, tutumu isə 200 nəfərdir.Məscid formaca düzbucaqlı olan bu məscid bişmiş kərpicdən tikilib və məscidin ibadət zalı iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünür.Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir və hər bir mərtəbənin sahəsi 9x4 metrdir.İbadət zalının tavanı taxtadır və məscidin i beş pəncərəsi və dörd qapısı var.Qapı və pəncərələr tağvari formadadır və məscidi damı kirəmitlə örtülüb.Günbəz dördgüşəlidir və hündürlüyü iki metrdir və məscid səki üzərində yerləşir.Sovetlər dönəmində anbar kimi istifadə olunub, lakin 1989 –cu ildən yenidən dindarların istifadəsinə verilmişdir.Kakalos məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1907 –ci ilə aid yerli əhəmiyyətli memarlıq abidə kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4129,sistem kodu isə AJA003928-dir.*Şəkil. Kakalos kənd "Cümə" məscidi.*



**12.Kijəbə qəsəbə məscidi.**Kijəbə kənd məscidi Astara rayonunun Kijəbə qəsəbəsində yerləşir.Bu məscid Kijəbə kənd sakini və xeyriyyəçi Füzuli Həbib oğlu İsayevin şəxsi maliyə vəsaiti hesabına 2004-cü ilin may ayından başlanmış və elə həmən ilin noyabr ayuında tamamlanıb istifdadəyə verilmişdir.Məscidin sahəsi 207 metr$^2$,tutumu isə 200 nəfərdir və kənd xeyriyyəçisi İsayev Fizuli Həbib oğlunun təşəbbüsü ilə 2004-cü ildə yerli ustalar tərəfindən qırmızı kərpicdən tikilmişdir. Məscidin sahəsi 200kv. metr, uzunluğu 25 metr, eni isə 12 metrdir və bu məscid Astara rayonunun yaxşı məscidlərindən biridir və məscidin fasadında iki qapı və beş ensiz, hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır, pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır və interyerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir.Məscid ortadan iki hissəyə ayrılmışdır,qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq, qapı-pəncərələri, tavanı, dayaq sütunları, kum örtüyünün konstruksiyası ağac materialından, dam örtüyü isə kirəmitdəndir. Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2,5 metrdir.Mscidin sol tərəfində hündürlüyü 18 metr olan azan vermək üçün minarəsi də var.*Şəkil. Kijəbə qəsəbə məscidi.*



**13.Qapıçıməhəllə kənd məscidi**. Qapıçıməhəllə kənd məscidi Astara rayonunun Qapıçı -Məhəllə kəndində yerləşir. 1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Qapıçıməhəllə kəndində kəndində 1 məscidin olduğu göstərilir. *(Bax:Списки Населенных Месть Российсской Империи – 1854-69).*Lakin yerli əhali Qapıçıməhəllə məscidinin 1905 –ci ildə yerli əhalinin şəxsi vəsaiti hesabına tikildiyini deyirlər.Astaralı tədqiqatçı əfqan Şəfiyev öz kitabında bu məscid haqda belə yazır: Qapıçıməhəllə kəndində VII-VIII əsrlərdə mövcud olan karvansara və məscid olub.*(Bax:.Əfqan Şəfiyev. Azərbaycanın cənub bölgəsinin tarix və mədəniyyət abidələri.B.,2007.səh.16).*Məscidin sahəsi 300 metr$^2$.iç sahəsi 13x4,5 metr,sahəsi 88,4 metr$^2$ və tutumu isə 80 nəfərdir. Məscidi düzbucaqlıdır və divarları bişmiş qırmızı kərpiclə hörülüb. Divarların qalınlığı 0,70 metrdir və məscidin iç tərəfdən divarları siment məhlulu ilə suvanaraq ağardılıb.Döşəmə torpaq,tavan isə taxta və fanerlə işlənib,minbər də, taxtadan düzəldilib,beşpilləlidir.Mehrab divarın içindədəir,qəhvəyi rənglə boyanıb və tavanadək hümdürlüyü 3 metrdir.Günbəz dəmir təbəqə ilə işlənib, hündürlüyü 2 metrdir və 4 gözlüyüvar. Məscidin damı qırmızı kirəmitlə örtülüb və məscid kənd camaatının şəxsi vəsaiti hesabına tikilib.Qapıçı-Məhəllə kənd məscidi hündürlüyü 1,20 metr olan səki üzərində yerləşir. Məscid sovetlər dönəmində bağlanaraq təsərrüfat anbarına çevrilmiş,lakin 1990-cı ildə SSRİ dağıldıqdan sonra qapıları yenidən dindarların üzünə açılmışdır.*Şəkil. Qapıçıməhəllə kənd məscidi.*

**14.Lovayın kənd məscidi.**Lovayın kənd məscidi Astara rayonunun Lovayın kəndi ərazisində yerləşir.Məscidin sahəsi 152 metr$^2$,tutumu 150 nəfərdir və qırmızı kərpicdən tikilmişdir.Məscidin sahəsi 200 metr$^2$, uzunluğu 25 metr,eni isə 12 metrdir.Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir,qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir və interyerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır, qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var və məscidin döşəməsi torpaq,qapı-pəncərələri, tavanı, dayaq sütunları, kum örtüyünün konstruksiyası ağac materialından, dam örtüyü isə kirəmitdəndir.Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür və məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var və bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2, 5 metrdir.



**15.Maşxan kəndi məscidi.** Maşxan kənd məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir.1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Maşxan kəndində 2 məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Местъ Российсской Империи – 1854-69).*Məscidin tikilmə tarixi 1905-ci ilə təsadüf edir.Məscidin sahəsi 153 metr$^2$. tutumu isə 153 nəfərdir və qırmızı kərpicdən tikilmişdir.Məscidin sahəsi 200kv. metr, uzunluğu 25 metr,eni isə 12 metrdir və bu məscid Astara

rayonunun yaxşı məscidlərindən biridir.Məscidin fasadında iki qapı və beş ensiz, hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir və interyerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır.Qadınlar olan yerdə də şəbistan vardır.O şəbistana sol tərəfdən girməkolar. Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq, qapı-pəncərələri,tavanı,dayaq sütunları,dam örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir. Məscidin hörmə,xarratlıq işlərini isə yerli ustalar görmüşdür. Məscid pilləkənləri daşdandır və beş pilləsi və ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr,eni isə 2,5 metrdir.Mmaşxan məscidi Sovet dönəmində digər məscidlər kimi bağlanmış və ondan təsərrüfat anbarəı kimi istifadə olunmuşdur.Lakin 1989-cu ildə yenidən qapıları dindarların üzünə açılmışdır.Maşxan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1905-ci ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4130, sistem kodu isə AJA003929-dur. *Şəkil. Maşxan kəndi məscidi.*



**16.Məscidməhəllə kənd məscidi.** Məscidməhəllə kənd məscidi yerli əhəmiyyətli tikilidir və Astara rayonu Məscidəməhəllə kəndi ərazisində yerləşir. Məscidin tikilmə tarixi 1903- ilə təsadüf edir və qırmızı kərpicdən tikilmişdir. Məscidin sahəsi 105,1 metr$^2$ tutumu isə 120 nəfərdir. Məscidin sahəsi 200 metr$^2$,

uzunluğu 25 metr,eni isə 12 metrdir. . Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir və interyerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır, qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq,qapı-pəncərələri,tavanı, dayaq sütunları, kum örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir. Məscidin hörmə,xarratlıq işlərini isə yerli ustalar görmüşdür. Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var və bu pəncərələrin hündürlüyü 3 metr,eni isə 2 metrdir.Məscidməhəllə məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1903-cü ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4132,sistem kodu isə AJA003931-dir. *Şəkil.Məscidməhəllə kənd məscidi.*

**17.Miki kənd** “Şeyx Əbdülbağır“**məscidi.**Miki kənd “Şeyx Əbdülbağır” məscidi Astara rayonunun Miki kəndi ərazisində yerləşir.Məscidin sahəsi 50 metr$^2$, tutumu isə 40 nəfərdir. Məscid 1984-cü ildə yerli sakinlər tərəfindən tikilmişdir. qırmızı kərpicdən tikilmişdir.Məscidin sahəsi 200 metr$^2$,uzunluğu 25 metr,eni isə 12 metrdir.Bu məscid Astara rayonunun yaxşı məscidlərindən biridir.Məscidin fasadında iki qapı və beş ensiz, hündür pəncərələr vardır. Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir,qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir. İnteryerə

suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır,qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq,qapı-pəncərələri,tavanı,dayaq sütunları,dam örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir.Məscidin hörmə,xarratlıq işlərini isə yerli ustalar görmüşdür.Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2,5 metrdir.



**18.Pensər kənd** "Hacı Cahanbaxış" **məscidi - I.**Məscid yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Pensər kəndində yerləşir. Məscidin tikilmə Məscid Astara rayonunda,Pensər kəndinin Seyid Cəmaləddin Qaraxan küçəsində yerləşir. İbadət evi hicri-qəməri təqvimi ilə 1304-cü ildə (1886) kənd sakini Hacı Cahanbaxış tərəfindən inşa edilib.Məsciddə eyni anda 200 nəfər ibadət edə bilər.İbadətgah düzbucaqlı formadadır və qırmızı kərpicdən tikilib. Məscidin döşəməsi kərpicdən,tavanı isə taxtadandır. Tavan dörd sütun üzərində dayanır.İbadət evinin damı kirəmitlə örtülüb.İbadətgahın taxtadan tağvari formada pəncərələri və üç giriş qapısı var.Qapıların üst hissəsi və pəncərələr şəbəkə ilə işlənib.Məscidin giriş hissəsini yağışdan qorumaq üçün onun önünə dam artırılıb. İbadət evi iki hissədən ibarətdir: kişilər və qadınlar şöbəsi.Qadınlar şöbəsi ikimərtəbəlidir və oranın girişi ayrıdır. İbadətgahın mehrabı və dördpilləli minbəri var.Məscidin günbəzi dördguşəlidir və güldəstə formasındadır.Günbəzin üst hissəsi kirəmitlə örtülüb.İbadətgahın ərazisində hüseyniyyə binası da mövcuddur.Sovet dövründə məscid anbar,1984-cü

ildən isə kitabxana kimi istifadə edilib. 1994-cü ildə məscidin fəaliyyəti bərpa olunub. Astara rayonu Cahanbaxış məscidi yerli əhəmiyyətli abidə hesab edilir.Məscidin həyətyanı sahəsi 800 metr$^2$,iç sahəsi isə 9x21 metr, sahəsi 240 metr$^2$,tutumu isə 200 nəfərdirdir.Formaca düzbucaqlıdır və qırmızı kərpicdən tikilib və döşəməsi bişmiş kərpic, tavan nisə taxta ilə işlənib.Məscidin tavanı 4 taxta dirək üstündə dayanıb.Məscidin üç qapısı var və qadınlar şöbəsi iki mərtəbədən ibarətdir.Onun sahəsi 4x9 metrdir və mehrab sadə formaya malikdir və əhənglə ağardılıb, pəncərələr rəngli şüşələrlə işlənib və damı isə kirəmitlə basılıb. Məscidin günbəzi dördgüşəlidir və güldəstə formasındadır və günbəzin üst hissəsi kirəmitlə örtülüb.Məscidin pəncərələrinin hündürlüyü 3,5 m.eni isə 2 metrdir və qapıların da hündürlüyü 2,5 m.dir.Hacı Cahanbaxış məscidinin yan tərəflərində də eyni ölçüdə ağac materialından iki pəncərə var.Məscidin damı kirəmitdəndir və məscidin damında azan vermək üçün dördkünc minarə var və məscidin içərisi də digər məscidlər kimi ortadan iki hissəyə ayrılmışdır.Bu hissənin yarısı kişilərə,yarısı da qadınlara aiddir və əlavə məscidin içərisində bir neçə sütun var ki,bunlar da məscidin tavanını saxlayır.Məscidin tavanı ağac materialından olmaqla xüsusi ustalıqla işlənmişdir.Məscidin ön tərədində mişar daşlarındann kiçik tikili var və bu tikilinin damı dəmir materialındandır.Hacı Cahanbaxış məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4122, sistem kodu isə AJA003921-dir.*Şəkil.Pensər kəndi Hacı Cahanbaxış məscidi.*



**19.Pensər kəndi** “Hacı Teymur “ **məscidi. II.** Hacı Teymur məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Pensər kəndində yerləşir.Məscidin tikilmə tarixi XIX əsrə aiddir və tarixi hicri-qəməri təqvimi ilə 1314-cü, miladi 1896-cı ildə Hacı Teymur adlı şəxs tərəfindən tikilmişdir.1901-ci ildə əsaslı təmir edilmiş və həyətyanı sahəsi 600 metr$^2$,iç sahəsi isə 23x8 metr, sahəsi 420 metr$^2$, tutumu isə 200 nəfərdir.Məscid düzbucaqlı formadadır və qırmızı bişmiş kərpicdən tikilmişdir.Tavanı dörd böyük sütun üzərində dayanmışdır və məscidin döşəməsindən tavanına qədər hündürlüyü 4,5 metrdir.İki giriş qapısı var və məscidin yanında bişmiş kərpicdən tək minarə ucaldılıb.Minarənin hündürlüyü 15 metrdir və üst hissəsi dəmir təbəqə ilə işlənib.Məscidin mehrabı sadə olmaqla hündürlüyü 2,5 metrdir və mehrabdan sağ tərəfdə qadınlıar şöbəsi yerləşir.Qadınlar olan hissə iki mərtəbədən ibarətdir və hər bir mərtəbənin ayrı-ayrı sahələri 45 metr $^2$dir. Məscid,hündürlüyü 1,20 metr olan səki üzərində yerləşir və giriş qapı tərəfdə divarda daş kitabə həkk edilib və bu kitabədə məscidin tikilmə tarixi yazılıb.Sovet ddönəmində məscid bağlanaraq ilk öncə təsərüfat anbarı kimi,1984-cü ildən klub kimi fəaliyyət göstərmişdir.Nəhayət 1994-cü ildə məscid yenindən dindarların istifadəsinə verilmişdir.Hacı Teymur məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4123"sistem kodu isə AJA003922-dir.*Şəkil. Pensər kənd Hacı Teymur məscidi.*

**20.Rudəkənar kənd məscidi.**Rudəkənar kənd məscidi Astara rayonu Rudəkənar kəndi ərazisində yerləşir.Məscidin tikilmə tarixi 1989-ci ildə kənd sakinlkəri tərəfindən tikilmişdir.1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Rüdəkənar kəndində 2 məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Местъ Российсской Империи – 1854-69).*Məscidin Həyətyanı sahəsi 30 kv. metr. iç sahəsi 11x9 metr,sahəısi 81,2 metr$^2$,tutumu isə 75 nəfərdirdir və formaca düzbucaqlıdır və əsas etibarı ilə bişmiş kərpicdən tikilib.Məscid divarların qalınlığı 0,60 metrdir.Döşəməsi torpaq. tavanı taxtadandır və damın örtüyü qırmızı kirəmitdəndir. Məscidin Mehrabı taxtadan düzəldilib və dördpilləlidir və mehrab sadə formaya malikdir və əhənglə ağardılıb.Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşir və məscid kənd camaatının şəxsi vəsaiti ilə tikilib.



**21.Siyaku kənd məscidi.**Siyaku kənd məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Siyaku kəndi ərazisində yerləşir.1854-1869 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Siyaku kəndində 1(bir) məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Местъ Российсской Империи – 1854-69).*Lakin bəzi mənbələr məscidinin tikilmə tarixi 1905-ci ilə təsadüf edir.Siyaku məscidi Astara rayonunun Siyaku kəndi ərazisində yerləşir.Siyaku kənd məscidinin tikilməsi kənd sakini Hacı Şeyx Mə-həmməd adlı şəxsin təşəbbüsü ilə olmuşdur.Belə ki, Hacı Şeyx Məhəmməd 1868-ci ildə Astara rayonunun Siyaku kəndində anadan olmuşdur.Onun Atası Şeyx Əli əfəndi 1804-1893-cü illərdə

dövrün xeyirxah insani, eşq və irfan sahiblərindən olmuşdur. Şeyx Əli əfəndi 1870-ci ildə kənd sakinlərinin birgə köməyi ilə Siyaku məscidini tikmişlər və bu məscid Astara rayonunun dağ kəndlərinin ilk bişmiş qırmızı kərpicdən olan məscid binası olmuşdur.Lakin hazırki məscidin binası isə 1900-cü ildə tikilmişdir.Bütün qonşu kəndlər həmin məsciddə ibadət etməyə gəlmiş və burada dini dərslər almışlar.Şeyx Əli oğlu Hacı Şeyx Məhəmməd Misirdə,Mədindədə,İstanbulda təhsil almışlar.Bir çox deyimlərə görə iyirminci əsrin əvvəllərində bakıda dövrün məşhur xeyriyyəçi si olan Tağıyev Hacı Şeyx Məhəmmdə və Pensər kənd sakini məşhur molla Hacı Osman Əfəndini öz yanına dəvət etmişdir. Məsciddə iştirak edənlərdən biri Şeyxi sınamaq üçün sorğu-suala tutmuş və onun böyük kəramətvə elm sahibi olduğunu görmüşdür. Hacı Zeynalabidin Tağıyev də onun kəramətini,elmini bəyənmuiş və nəyə ehtiyacı olduğunu soruşmuşdur.Şeyx isə ondan məscidin tavanı nı təmir etmək üçün kömək istəmişlər.Qayıtdıqdan sonra H.Z,Tağıyev paraxodla Astaraya məscidin təmirtrri üçün material göndərmişdir. Məscidin təmirindən qalan materialları Şeyx Məhəmmdə qonşu məscidlərə paylammışdır.Sovet höküməti qurulduqdan sonra hacı Şeyx Məhəmmd kimilər təqiblərə məruz qalmıçlar.Onlar Quran və digər dini vəsaitlrəi müxtəlif sandıqlarda yerləşdirib gizlətmişlər.Həmin illərdə ölkəmizin digəır bölgələrində olduğu kimi,rayonumuzda da din xadimlərinə divan tutulmuş, hətta işgəncələrə məruz qalmışlar.Belə işgəncələrdən boyun qaçıran Şeyx qonşu Anbaran kəndinə ailəsi ilə birlikdə köçmüşdür.Sərhədlər bağlandıqdan sonra vətən həsrəti ilə yaşayan Şeyx 1949-cu ildə vəfat etmişdir.Atası şeyx Əlinin tikdirdiyi məscid,Siyaku “Cümə” məscidi kimi fəaliyyət göstərir və tutumuna görə rayonun iri məscidlərindən biri sayılır. Məhəmmədin yaşadığı evindən heç bir əlamət qalmasa da, üstündə oturub daima zikr edən köhnə,qədim daşları sanki onun

ruhunun əbədi yaşadığını xatırladır.Həyətyanı sahəsi 1000 metr$^2$, iç sahəsi 7x122 metr-sahəsi 252 metr$^2$, tutumu isə 240 nəfərdir. Düzbucaqlı formaya malikdir və qırmızı bişiş kərpicdən tikilib. Divarların qalınlığı 0,70 metrdir.Tavan üç taxta sütun üzərində dayanıb.İç divarları qum-sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb.Bir giriş qapısı və yeddi pəncərəsi vardır.Mehrabın hündürlüyü 3 metrdir və sement məhluylu ilə suvanıb.Minbər taxtadan düzəldilib və üçpilləlidir.Günbəz dördgüşəlidir və üstü kirəmitlə örtülüb.Məscid açıqşəkilli neyvana malikdir və hündürlüyü 1,50 metr olan səki üzərində yerləşir.Məscidin həyətində mədrəsə fəaliyyət göstərmişdir.Sovetlər dönəmində anbar kimi istifadə olunub.1987-ci ildə kənd camaatının vəsaiti hesabına təmir bərpa işləri aparılıb.Məscid sovet dönəmində bağlansa da 1989-cu ildə onun qapıları yenidən dindarların üzün açılmışdır.1990-cı ildə yerli sakinlərin şəxsi maliyə vəsaiti hesabına məsciddə “Ehsan zalı” tikilmiş və onun ölçüsü 30x4 metr olmuşdur.Lakin bu zal zamanla darısqal olduğunu göstərəndən sonra 2022-ci ildə kənd sakinləri yığışaraq öz şəxsi vəsaitləri hesabına o zalı sökərək onu genişləndirib 30x9 ölçüsünə gətirib çıxarmışlar.Siyaku kənd məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1905 –ci ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4138,sistem kodu isə AJA0033937-dir.*Şəkil. Siyaku kənd məscidi.*



**22.Seləkəran kənd məscidi.** Seləkəran kənd məscidi Astara rayonunun Seləkəran kəndi ərazisində yerləşir.Seləkəran kəndi ərazisində ən qədim məscid 1886-cı ildə xalq tərəfindən inşa edilmişdir.Qədim məscid böyük

olmasa da,təziyələr vaxtı bura bütün yerlərdən əali axışıb gəlmişdir.Köhnə məscidin həyətində qədim qəbiristanlıq da olub.Köhnə məscidin kənarlarında iki günbəzi də olmuşdur. Seləkəran ərazisində yeni məscid əhali tərəfindən 1904-cü ildə tikilmişdir.Məscidin həyətyanı sahəsi 3500 metr$^2$, iç sahəsi 60 m$^2$,tutmu isə 50 nəfərdir.Məscid düzbucaqlı formada olmaqala, döşəməsi torpaqdan, tavanı isə faner və taxtalardan tikilmişdir.Məscid divarları iç fasad tərəfdən sement məhlulu ilə suvanıb.Məscidin iç divarları göy rənglə boyanıb və məscidin minbərinin dörd taxta pilləsi,iki giriş qapısı və üç pəncərəsi var.Məscidin sahəsi 200 metr$^2$,uzunluğu 25 metr,eni isə 12 metrdir.Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır və bu pəncərələrin hündürlüyü 3 metr,eni isə 2,5 metrdir.Məscidin sağ tərəfində isə bir qapı və iki uzun pəncərə yerləşir,qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır və nteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir.İnteryerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq,qapı-pəncərələri, tavanı,dayaq sütunları,dam örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir.Məscid pilləkənləri daşdandır və beş pilləsi var. *Şəkil.Seləkəran kənd məscidi.*



**23.Səncərədi kənd məscidi.** Səncərədi kənd məscidi Astara rayonunun Səncərədi kəndi ərazisində yerləşir.Məscid 1900-cu ildə yerli əhali tərəfindən tikilmişdir.Məscidin həyətyanı sahəsi 6000 metr$^2$, iç sahəsi 16x8, 5-metr,sahəsi 153 metr$^2$,tutumu isə 180 nəfərdir.Məscid düzbucaqlı formada olmaqala daşdan,

döşəməsi tor-paqdan,tavanı isə faner və taxtalardan tikilmişdir. Səncərədi məscidinin damı qırmızı kirəmitdən,günbəzi isə düzbucaqlı formadada olmaqla hündürlüyü hündürlüyü 2,5 metrdir.Səncərədi məscidinin iki giriş qapısı var və məscid ortadan iki hissəyə (kişi və qadınlar üçün) ayrlmışdır. Məscidin tavanı 4 azbes boru sütun üzərində dayanmışdır.Məscid özü hündürlüyü 2,5 metr olan səki üzərində yerləşir. *Şəkil.Səncərədi kənd məscidi.*



**24.Sığaloni kənd məscidi**. Sığəloni kənd məscidi məscid Astara rayonunun Sığəloni kəndi ərazisində yerləşir.Məscid 1996-ci ildə yerli xeyriyyəçi Xanağa Qurbanov tərəfindən tikilmişdir. Məscidin İç sahəsi 9x15 metr-sahəsi 170 metr$^2$, tutumu isə 150 nəfər dir.Düzbucaqlı formaya malikdir və qırmızı kərpicdən tikilib.İç divarları qum-sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb.Əsas ibadət zalı iki hissədən-kişilər və adınlar şöbəsindən ibarətdir.Şöbələr taxta arakəsmələr ilə ayrılıb. Məscidin iki giriş qapısı və dörd pəncərəsi var.Döşəməsi torpaq, tavanı isə taxta və fanerlə işlənib.Sığəlon kənd məscidinin hündürlüyü 1,70 metr olan səki üzərində yerləşib.Məscidin hündürlüyü 12 metr olan qoşa minarəsi var.Minbərlər qırmızı kərpicdən tikilib,qübbəsi dəmir təbəqə ilə işlənib.Məscid kənd sakini xanağ kişi tərəfindən tikilib.*Şəkil. Sığəloni kənd məscidi.*



**25.Suparibağ kənd məscid.** Suparibağ kənd məscidi məscid Astara rayonu Suparibağ kəndi ərazisində yerləşir.Suparibağ məscidi 1906 –cı ildə yerli sakinlər tərəfindən tikilmişdir.Həyətyanı sahəsi 1500 metr$^2$, iç sahəsi 5x16 metr,sahəsi 100,5 metr$^2$, tutumu isə 90 nəfərdir.Suparibağ kənd məscidi formaca düzbucaqlıdır və bişmiş kərpicdən tikilib.Məscidin döşəməsi torpaq.tavanı isə taxtadır, damı kirəmitlə örtülüb.Günbəz səkkiz güşəlidir.Günbəz dəmir təbəqə ilə işlənib.Məscidin iki giriş qapısı var.Qapılardan biri kişilər,o biri isə qadınlar şöbəsinə aiddir.İbadət zalında dörd ədəd pəncərə qoyulub.İç divarları sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb.Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib.*Şəkil.Suparibağ kənd məscidi.*



**26.Sım kənd məscidi.**Sım ərazisində Ərdəbildən Sım dağlarına pənah gətirmiş Şeyx Mirabbasın nəticəsi Şeyx Abbas Sımda dəyirmanla yanaşı məscid də,tikdirmişdir.Məscid XIX əsrin əvvəllərində mədrəsə kimi fəaliyyət göstərmiş məsciddə hətta qonşu rayonlardan da təhsil almağa gəlirmişlər.Təxminən 1830-1840-cı illərdə tikilmiş qədim abidə – məsciddə namaz qıldığım an zaman-zaman Quran qiraət etmiş,dünyagörmüş insanların avazının sanki duyurmuş kimi ani olaraq təsirləndim.Sım kənd məscidi yerli əhəmiyyətli tikilidir və Astara rayonunun Sım kəndi ərazisində yerləşir.Məscidin sahəsi 40 metr$^2$, yuyumu isə 30 nəfərdir.Məscid Əhali tərəfindən,1905-ci ildə tikilmişdir və

onun divarlarıqırmızı kərpicdən tikilmişdir.Məscdin sahəsi 200 metr$^2$,uzunluğu 25 metr,eni isə 12 metrdir.Bu məscid Astara rayonunun yaxşı məscidlərindən biridir.Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir,qapı və pəncərələr tağlıdır, pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır.İnteryerdə tavana dayaq məqsədilə beş sütun yerləşdirilmişdir.İnteryerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır, qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girməkolar.Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq, qapı-pəncərələri, tavanı, dayaq sütunları, kum örtüyünün konstruksiyası ağac materialından,dam örtüyü isə kirəmitdəndir. Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür. Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2,5 metrdir.*Şəkil. Sım kənd məscidi*



**27.Şahağac kənd məscidi.** Şahağac kənd məscidi əhəmiyyətli yerli memarlıq abidəsidir və Astara rayonunun Şahağac kəndi ərazisində yerləşir.Məscid 1901-ci ildə yerli sakin Mirəhməd xan Talışxanov tərəfindən tikilmişdir. Həyətyanı sahəsi 1200 metr$^2$, iç sahəsi 8,5x18 metr,sahəsi 288 metr$^2$,tutumun isə 200 nəfər dir.Məscid formma etibarı ilə düzbucaqlıdır və hündürlüyü 1 metrə çatan səki üzərində yerləşir.Məscidin damı kirəmitlə örtülüb, mehrabı isə sadə formadadır və ağ rənglə boyanıb. Minbər ağac materialından olmaqla dördpilləlidir, məscidin döşəməsi döşəməsi kərpic, tavan

isə taxtadandır.Tavan 4 taxta sütun üzərində dayanmaqdadır.Məscidin iki qapısı və dörd pəncərəsi var və divarlarının qalınlığı 80 sm.dir.Minarələrin hündürlüyü 12 metr olmaqla dairəvi formadadır və bişmiş kərpiclə işlənib. Minarə bir şərətəyə malikdir və onun yuxarı hissəsi səkkizgüşəlidir. Minarənin qübbəsinin üstü isə qırmızı kərpiclə örtülüb.Böyük Şahağac kənd məscidinin içərisində ayrıca qa-dınlıar şöbəsi var və sahəsi 3x8,5 metrdir.Məscid sovetlər dönəmində anbar kimi istifadə olunub.Lakin 1987-ci ildə məscidin fəaliyyəti bərpa edilmişdir.1988-ci ildə məsciddə dövlət vəsaiti hesabına təmir-bərpa işləri aparılıb.Şahağac məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4124, sistem kodu isə AJA003923-dür.*Şəkil. Şahağac kənd məscidi.*



**28.Şiyəkəran kənd məscidi.** Şiyəkəran kənd məscidi yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonu Şiyəkəran kəndi ərazisində yerləşir. 1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Şiyəkəran kəndində 1 məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Местъ Российсской Империи – 1854-69).* Məscidin tikilmə tarixi 1900 –cü ilə təsadüf edir,lakin o köhnə məscid zaman-zaman yağış suları nəticəsində sülümüş və yararsız hala düşmüşdür.Elə bu səbəbdəndə 1906-cü ildə kənddə yeni məscid tikilmişdir.Məscidin həyətyanı sahəsi 4500 metr$^2$, iç sahəsi isə 6x18 metrsahəsi 100 metr$^2$,tutumu isə 95 nəfərdir. Məscid düzbucaqlı formadadır və başdan-başa qırmızı kərpiclə

inşa olunub.Məscid hündürlüyü 80sm olan səki üzərində yerləşib.Divarlarının qalınlığı 60 sm.dir.Döşəməsi torpaq,tavanı isə taxtadandır.Tavan üç taxta sütun üzərində dayanıb,mehrabı sadə formaya malikdir və divarın içindədir.Məscidin damı kirəmitlə örtülüb.Məscidin iki giriş qapısı var.İbadət zalında 2 böyük,3 kiçik pəncərə qoyulub.Sovetlər dövründəanbar kimi istifadə olinub.Lakin 1990-cı ildə qapıları yenidən dindarların zünə açılmışdır.Şiyəkəran məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1900-cu ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Məscidin invertar nömrəsi 4133, sistem kodu isə AJA0033932-dir. *Şəkil.Şiyəkəran kənd məscidi.*



**29.Şuvi kənd məscidi.**Şuvi kənd məscidi rayonunun Şuvi kəndi ərazisində yerləşir.Məscid 1900-cü il ildə yerli sakinlər tərəfindən tikilmişdir.Məscidin iç sahəsi 14x7 metr,həyətyanı sahəsi 800 metr$^2$, sahəsi 101 metr$^2$,tutumu isə 95 nəfərdir.Bu məscid düzbucaqlı formadadır.Məscidin döşəməsi qırmızı kərpiclə, tavanı isə fanerlə işlənmişdir,damı isə qırmızı kirəmitlə örtülmüşdür.Sovetlər dönəmində anbar kimi istifadə olunub.Lakin 1984-cü ildə məscidin qapıları yenidən dindarların üzünə açılmışdır.*Şəkil. Şuvi kənd məscidi.*



**30.Təngərüd kənd** - “Hz. Əli“ **məscidi.**Təngərüd kənd “Hz. Əli" məscidi məscid Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir. 1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Təngərüd kəndində 1(bir) məscidin olduğu göstərilir.*(Bax:Списки Населенных Месть Россиийсской Империи – 1854-69).*Məscidin 1989-cu ildə yerli sakinlər tərəfindən tikilmişdir. Məscidin həyətyanı sahəsi 1000 kv metr,iç sahəsi 20x9 metr,sahəsi 280 metr$^2$, tutumu isə 200 nəfərdir.Məscidin divarları bişmiş kərpiclərdən tikilib,döşəməsi isə torpaq,tavanı isə taxta materialındandır.Damı dəmir təbəqə ilə örtülüb və məscidin hündürlüyü 15 m olan qoşa minarəsi var. Minarələr də bişmiş kərpiclərdən inşa olunub.Minarələrin qübbəsinin yuxarı hissəsi dəmir təbəqə ilə işlənib.Məscidin günbəzinin hündürlüyü 2 metrdir.Məscidin iç divarları semenr məhlulu ilə suvanıb.Məscidin iki giriş qapısı və bu qapı-pəncərələri taxtadan düzəldilib.Digər məscidlərlə eyni quruluşa malikdir.*Şəkil. Təngərüd kənd məscidi*

**31.Toradi kənd məscidi.**Toradi kənd məscidi Astara rayonunun Toradi kəndi ərazisində yerləşir.Məscidin sahəsi 20 metr$^2$, tutumu isə 30 nəfərdir.Məscid 1907-ci ildə yerli sakinlər tərəfindən qırmızı kərpicdən tikilmişdir. Məscidin sahəsi 200kv. metr, uzunluğu 25 metr,eni isə 12 metrdir.Bu məscid Astara rayonunun yaxşı məscidlərindən biridir.Məscidin fasadında iki qapı və beş ensiz,hündür pəncərələr vardır.Məscidin sağ tərəfində isə bir qapı və iki pəncərə yerləşir, qapı və pəncərələr tağlıdır,pəncərələr şəbəkəlidir.Hər üç qapının qarşısında artırma vardır. İnteryerdə tavana dayaq məqsədilə beş sütun

yerləşdirilmişdir və nteryerə suvaq çəkilmiş və üzərinə boya sürülmüşdür.Məscid ortadan iki hissəyə ayrılmışdır,qadınlar olan yerdə də şəbistan vardır və o şəbistana sol tərəfdən girmək olar. Məscidin minbər və mehrabı var.Məscidin döşəməsi torpaq, qapı-pəncərələri,tavanı, dayaq sütunları,küm örtüyünün konstruksiyası ağac materialından, dam örtüyü isə kirəmitdəndir. Məscidin hörmə, xarratlıq işlərini isə yerli ustalar görmüşdür. Məscid pilləkənləri daşdandır və beş pilləsi var.Məscidin ön tərəfdə eyni ölçüdə beş taxta pəncərə var.Bu pəncərələrin hündürlüyü 3 metr, eni isə 2,5 metrdir.



**32.Vaqo kənd məscidi.**Vaqo kənd məscidi yerli əhəmiyyətli tikilidir və Astara rayonunun Vaqo kəndi ərazisində yerləşir.1854-69 –cü ilə aid olan Rusiyan imperiyasının yaşayış məntəqələri adlı kitabda Vaqo kəndində 1 məscidin olduğu göstərilir. *(Bax:Списки Населенных Местъ Российской Империи – 1854-69)*. Məscidin sahəsi-174 kv. metr, tutumu isə 180 nəfərdir. Məscid 1905-cı ildə yerli sakinləri tərəfindən tikilmçişdir. Məscid Astara rayonun digər məscidləri kimi ənənəvi quruluşa malikdir.Vaqo kəndi ərazisində ilk məscid hələ 1905-ci ildə tikilmişdir.Sonradan bu məscid yararsız hala düşmüş və sonradan kənd xeyriyyəçiləri tərəfində təmir olunmuşdur.Məscidin tikintisində kəndin bütün sakinləri yaxından iştirak etmişdir. Məscid yerli ustalar tərəfindən tikilmişdir.Məscidin invertar nömrəsi 4128,sistem kodu isə AJA003927-dir. *Şəkil.Vaqo kənd məscidi.*

## 9.Təkiyyələr(1 ədəd)

**1.Təkiyyə**(Təngərüd kəndi).Bu təkiyyə yerli əhəmiyyətli memarlıq abidəsididir və təkiyyə Astara rayonunun Təngərüd (Tanqərü) kəndi ərazisində yerləşir.Məhərrəm aylarında şiələr bu təkiyyəyə yığışaraq gizli surətdə imam Hüseyn tənziyyəsini saxlayarlarmış. Təkiyyənin invertar nömrəsi 4105,sistem kodu isə AJA003904-dür.

## 10.Hamalar(4 ədəd).



**1.Məşhədi AbuTalıb hamamı** (Pensər kəndi). Astara rayonunun Pensər kəndi ərazisində yerləşən XIX əsrə aid tarix-memarlıq abidəsidir. Hamam 1886-cı ildə kənd xeyriyyəçisi olan Məşədi Abutalıbın sifarişi ilə inşa edilmiş və kənd sakinlərinin istifadəsinə verilmişdir.Bundan əlavə Məşədi Abutalıb kəndin ərazisində iki binadan ibarət bir məscid də tikdirib.Hamam iki hissədən ibarətdir.Giriş hissəsində, binanın ortasında hovuz var. Hovuzun kənarlarında daşdan hörülmüş kürsü, kürsünün içində isə yarımdairəvi taxçalar vardır.Hamam 1886-cı ildə kənd xeyriyyəçisi olan Məşədi Abutalıbın sifarişi ilə inşa edilmiş və kənd sakinlərinin istifadəsinə verilmişdir.1855-ci ildə Astara rayonunun Pensər kəndində anadan olmuş Məşədi Abutalıb Hazı Cahangir oğlu öz dövrünün tanınmış tacirlərindən olub və ömrünün çox hissəsini ticarətlə keçirib.O, hamamın tikilməsi üçün Cənubi Azərbaycandan ən səriştəli ustaları Astaraya dəvət edərək bina tikilməsini sifariş edib.[1]Məşədi Abutalıb hamamın tikintisində atasının həyətindəki kərpic kürəsində kəsilən

kərpiclərdən, yumurta sarısı və külün qarışığından alınan məmulatdan istifadə etməyi üstün tutub. Həmçinin o, hamamın tikintisində özü şəxsən iştirak edib.Bundan əlavə Məşədi Abutalıb kəndin ərazisində iki binadan ibarət bir məscid də tikdirib.Hamam iki hissədən ibarətdir.Giriş hissəsində, binanın ortasında hovuz var.Hovuzun*[Zakiroğlu, Rahim. "XIX əsrin möcüzəli hamamları". sputnik.az. Sputnik Azərbaycan. 20.06.2016.]*kənarlarında daşdan hörülmüş kürsü, kürsünün içində isə yarımdairəvi taxçalar var ki, bu da hamamdan istifadə edən sakinlərin ayaqqabılarının qoyulması üçün tikilib.Dörd tərəfdə geyinmə-sorunma yerləri hazırlanıb.Çimmə otaqları isə dörd hissəyə ayrılıb.Aşağı zirzəmidə qalanan odunların istiliyi həm hamamı qızdırır,həm də yuxarı otaqlara buxar verirdi.[1].Lənkəran rayonundakı Hacı Qurban və Hacı Mirzə hamamlarından fərqli olaraq, Məşədi Abutalıb hamamının çimmə zalı tikilinin əsas oxundan bir qədər kənarda inşa edilib ki, bu da binanın xarici görünüşünü bir qədər pozmuşdur. [*Саламзаде, А. В. Архитектура Азербайдана XVI-XIX вв. Баку: Издательство Академии наук Азербайджанской ССР. 1964*.]Məşhədi Abutalıb hamamı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4121, sistem kodu isə AJA003920-dir.*Şəkil.Məşhədi Abu-Talıb hamamı (Pensər kəndi).*

**2.Hamam**(Şahağac kəndi).Bu hamamı yerli əhəmiyyətli memarlıq abidəısidir. Hamamın tikilmə tarixi 1910-cu ilə təsadüf edir.Deyilənlərə görə Şahağac kəndindəki bu hamamı Bəşir adlı bəy adlı şəxs tikdirmişdir.Bu hama öz dövrünün ən yaxşı hamamlarından olduğu üçün buraya ətraf yerlərdən insanlar təmizlənməyə gəlirdilər.1910-cu ildə tikilmiş bu haham 1990-cı ilə qədər fəaliyyət göstərmişdir.Hal-hazırda hamam istifadəyə

yararsız haldadır.Hamam Astara rayonunun Şahağac kəndi ərazisində yerləşir.Şahağac hamamı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1910-cu ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır. Hamamın invertar nömrəsi 4126, sistem kodu isə AJA003925-dir.



**3.Kərbəlayı Həmid Abdulla hamamı(**Ərçivan qəsəbəsi). Kərbəlayi Həmid Abdulla hamamı — Astara rayonunun Ərçivan qəsəbəsində yerləşən tarix-memarlıq abidəsi, hamam. 1806-cı ildə xeyriyyəçi Kərbəlayi Həmid Abdulla tərəfindən tikdirilib. Hamam, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci ildə verdiyi 132 nömrəli qərar ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb. Hamam 1806-cı ildə Kərbəlayı Həmid Abdulla tərəfindən Astara rayonunun Ərçivan qəsəbəsində tikilib.[1] Hamamın üstündə səkkiz günbəz var. Yumurta sarısı və adi odun külünün qarışığı ilə tikilib.Hamamın suyu cəmi bir tiyanla qızdırılıb.Sovet işğalından sonra hamam kolxozun tabeliyinə verilib. Hamamı sonuncu dəfə 1980-ci ildə təmir edilib və həmin ilin sonuna kimi yerli əhalinin istifadəsində olub.[2].Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci ildə verdiyi 132 nömrəli qərar ilə isə hamam yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb.[5].Hamam illərdir istifadəsiz qaldığı üçün günbəzlərindən bir neçəsi dağılıb, binası yararsız hala düşüb.[7] Əsaslı bərpaya ehtiyacı var.[8].Abidənin invertar

nömrəsi 4116, sistem kodu isə AJA003915-dir.*Şəkil. Kərbəlayı Həmid Abdulla hamamı/*

**4.Mir Əhməd hamamı**(Şahağac kəndi).Bu hamam 1905-ci ildə Talış xanı Mir Əhməd xan tərəfindən inşa olunmuş və Astara rayonunun Şahağac kəndi ərazisində mövcud olmuşdur, lakin sonradan sökülmüşdür.

## 12. a Heykəllər və Fiqurlar(34 ədəd)

**1.Azər Əsədullayevin büstü.**Azər Əsədullayevin büstü Astara rayonu Maşxan kəndindəkiabidə kompleksində qoyulub.Bu abidə kompleksi 5 may 2022-ci ildə yaradılıb.Azər Əsədullayev birinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın müdafiəsuinə və düşməndən azad olunmasına qalxıb.O da hər bir vətən oğlu kimi silaha sarılaraq erməni faşistləri ilə qızğın döyüşlərə girib və qəhrəmancasına şəhid olub. Qeyd edək k, Azər Əsədullayevin bacısı oğlu Əli Cəfərov da İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olub və büstü də elə bu abidə kompleksində yerləşir.(https://cenublu.az/aktual/astara-qardasiva-oglu-sahid-olan-qadin-abida-bulaq-kompleksinin-acilisindaistirak-edib/

**2.Arif Heydərovun büstü**(Astara şəh.).Bu abidə kompleksi 1997-ci ildə Astara şəhərinin Sərhəd komendaturasının həyətində General-leytenant Arif Heydərovun şərəfinə qoyulmuşdur.



**3.Ağahəsən Nəhmətovun büstü.** Ağahəsən Manulu oğlu Nəhmətov 17 iyun 1925-ci ildə Astara rayonunun Sərək kəndində anadan olmuşdur.O, İkinci Dünya müharibəsində Sovet ordu sıralarında alman faşistlərinə qarşı vuruşmuş və çoxlu alman əsgərlərini məhv etmişdir.Göstərdiyi şücaətlərə görə "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür.O, 15 may 2003-cü ildə vəfat etmişdir.Ölümündən sonra 2004-cü ildə Astara şəhər Qəhrəmanlar Parkında büstü qoyulmuşdur.



**4.Astara "Zəfər parkı" abidə kompleksi**.Astara ―Zəfər parkı‖ kompleksi Astara şəhərində yerləşir. Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə 124 astaralı qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.Onlardan 41 nəfəri Vətən müharibəsində həlak olub. Vətənin igid oğullarının xatirəsini əbədiləşdirmək məqsədilə Astara şəhərində Zəfər Parkı inşa edilib. Şəhərin Heydər Əliyev prospektində tikilən parkın ərazisi 1400 kvadrat metrdir.‖Zəfər Parkı‖ Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü ərəfəsində - iyunun 25-də istifadəyə verilib. Bu münasibətlə keçirilən mərasimdə rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri və Aqşin Əliyev Astara tarixi-memarlıq və arxeoloji abidələri 130 qazilər iştirak ediblər. https://ikisahil.az/post/229733-astaradazefer-parki-istifadeye-verilib-foto*).Şəkil.Astar "Zəfər parkı"*



**5.Böyükxanım Əliyevanın büstü**(Astara şəh.). Böyükxanım Abdulla qızı Əliyeva 1926-cı ildə Bakının Əmircan qəsəbəsində anadan olmuşdur. ,Azərbaycan Dövlət Tibb Universiteti bitirmişdir.Onu Astara ilə bağlayan onun Astara rayonunun Ərçivan kəndindəki baş həkim vəzifəsində çalışmasıdır. Soralar isə o,Astara Rayon Mərkəzi Xəstəxanası üzrə ilk partiya təşklatı katibi vəzifəsində çalışmışdır.O,səhiyyə sahəsində göstərdiyi yaxşı işinə görə əməkdar həkim və Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.Böyükxanım Əliyeva bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir və müxtəlif orden və medallarla təltif edilmişdir.O, 1999-cu ldə vəfat etmiş və Ərçivan qəsəbəsindəki Məhəmməd Hənəfiyyə qəbiristanlığında dəfn edilmişdir.2000 –c ildə Astara şəhər Qəhrəmanlar parkında onun da büstü qoyulmuşdur.*Şəkil.Böyükxanım Əliyevanın büstü.*

**6.Böyük Vətən muharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi** (Astara şəhəri).Yerli əhəmiyyətli Bağ-park, monumental və xatirə abidəsidir və Abidə Astara şəhərində yerləşir. Abidənin invertar nömrəsi 5619, sistem kodu isə AJA5422-dir və 1971-ci ildə tikilmişdir.



**6.Bayraq başlığı**.Bu bayraq başlığı maddi-mədəniyyət abidəsidir. Deyilənlərə görə bu bayraq başlığı Səfəvi hökmdarı Şah İsmayıl ətaiyə aidddir və dövrümüzə qədər qorunub saxlanılmışdır.Belə ki, mənbələrə görə Şah İsmayıl Səfəvilər dövlətinin qurulmasında xüsusi rolu olmuş talışlara özünün əsas bayrağını hədiyyə etmişdir.*Şəkil.Bayraq başlığı.*



**7.“Çaydərən qız” heykəli**. Çaydərən qız heykəli abidə kompleksidir və Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir. Abidə əsasən Sovet dövründə “Şəfəq” sovxozunda ən qabaqcıl çay dərən qızıl timsalında yaradılmışdır.Çaydərən qız heykəlinin hündürlüyü 5 metrə yxındır.*Şəkil.Çaydərən qız heykəli.*

**8.Əli Cəfərovu büstü.**Əli Cəfəovun büstü Astara rayonunun Maşxan kəndi ərazisində yerləşir. Bu büst 5 may 2022-ci ildə qoyulmuşdur.Əli Cəfərov İkinci Qarabağ müharibəsində, vətənin dar günündə silaha sarılıb torpaqlarımızn müdafiəsinə qalxmışdır. Kəşfiyyatçı olaraq vətənə qulluq edən Əli Cəfərov 2013-cü ildə xidmətini başa vurub.O,torpaqlarımızın ərazi bütövlüyü uğrunda başlanan haqq savaşına könüllü qoşulub. Talış və Suqovuşan kəndlərinin,Murovdağ yüksəkliyinin düşmən işğalından azad olunmasında böyük şücaət göstərib.3 noyabr Aqşin Əliyev Astara tarixi-memarlıq və arxeoloji abidələri 132

2020-ci ildə qəhrəmancasına şəhid olub.Ölümündən sonra ―Vətən uğrunda‖ və ―Suqovuşanın azad olunmasına görə‖ medalları ilə təltif edilib. Əli Cəfərov 1993-cü il avqustun 29-da Astara rayonunun Maşxan kəndində dünyaya göz açıb.Birinci Qarabağ müharibəsinin şəhidi Nizami Əliyev adına Maşxan kənd tam orta məktəbi bitirib. Uşaqlıqdan sərbəst güləşlə məşğul olub, müxtəlif yarışların qalibi kimi bir çox mükafatlara layiq görülüb. Həqiqi hərbi xidmətə 2011-ci ilin oktyabrında yola düşüb. Ağdamda xidmət edib. Xidmət müddəti bitdikdən sonra 2013-cü ilin aprelində doğma kəndinə qayıdıb. Sonra Bakıya gələrək Xırdalanda yerləşən "Abşeron Taxıl" MMC şirkətində operator vəzifəsində işə düzəlib.Əli Cəfərov 4 noyabr, səhər saatlarında qəhrəmancasına şəhid olmuşduer və elə həmin gün axşam torpağa tapşırılmışdır.Əli Cəfərov işlədiyi müddətdə kollektivin rəğbətini qazanıb,sevimlisi olub."Abşeron Taxıl" MMC-nin şöbə rəisi Abdulla Abbasovun dediklərindən: "Əli kollektivdə hamının hörmətini qazanmışdı. Yaxşı işçi idi.O, şəhid olmazdan əvvəl də bizim üçün çox dəyərli idi. İndi də əzizdir bizim üçün. "Abşeron Taxıl" MMC-nin ərazisində kollektivin təşəbbüsü ilə Əli Cəfərovun xatirəsinə bulaq açmışıq. Rəhbərliyin göstərişi ilə 2021-ci ilin sonuna kimi Əlinin maaşı hər ay maaş kartına köçürülür.Bütün şəhidlərimiz əzizdir.Biz onları unuda bilmərik və unutmamalıyıq".Əlini kimsə unuda bilmir: nə dostları, nə qonşuları, nə də qohumları.Hamı üçün doğma olub. https://525.az/news/177606-veten-oglu-sehid-eliceferovun-xatiresine.



**9.Damğalı daşlar**(Sım kəndi).Damğalı daşlar yerli əhəmiyyətli arxeoloji abidəsdir. Abidənin yaranma tarixi orta əsrlərə təsadüf edir. Abidə Astara rayonunun Sım kəndinin Utey ərazisində yerləşir.Bu damğalı daşlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən Orta əsrə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır. Abidənin invertar nömrəsi 5773,sistem kodu isə AJA005575-dir. *Şəkil.Damğalı daşlar.*

.



**10.Daş qoç fiquru(**Biu kəndi).Daş qoç fiquru yerli əhəmiyyətli Xalq daş-heykəltaraşlıq abidə-læridir. Abidənin tarixi orta əsrlərə təsadüf edir. Daş qoç fiqur abidəsi Astara rayonunun Biu kəndi ərazisində yerləşir. Abidənin invertar nömrəsi 6105, sistem kodu isə AJA005907-dir.*Şəkil. Daş qoç fiquru.*



**11.Daş qaban fiquru(**Asbəniz kəndi).Bu Daş qaban fiquru yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsidir və abidə Astara rayonunun Asbəniz kəndinin “Asbə hi" (at bağı) adlı yerində yerləşir.Abidənin invertar nömrəsi 6106, sistem kodu isə

AJA005908-dir. Şəkil.Daş qaban fiquru



**12.Daş insan heykəli**.(Hamoşam kəndi). Daş insan heykəli yerli əhəmiyyətli tapıntıdır və Astara rayonunun Hamoşam kəndinin qərb tərəfində,Diqoband adlanan dağ yamacının şərq ətəyində yerləşir.Daş heykəlin tapıldığı yer el arasında “Tıbə bın" (bax talışca Türbə dibi) adlanır. Abidənin bu cür tapılması sübut edir ki,onlara laqeyd münasibət var, çünki bu daş heykəlinin yerləşdiyi ərazi fərdi yaşayış evi tikmək üçün həyətyanı sahə kimi verilmiş və elə ev tikmək üçün aparılan qazıntılar zamanı tapılmışdır.Bu daş heykəl görünüşünə əsasən qadını xatırladır və onu hündürlüyü 94 sm, eni isə yuxarı hissədə 45 sm,heykəlin qalınlığı isə 14 sm-dir. Heykəlin yuxarı hissəsi üçbucaq şəkilindədir.Daş heykəlin qabaq hissəsində onun üzü oyulmuş,baş hissəsi isə yatay dairəvi formada təsvir olunmuşdur. Bundan əlavə heykəlin ön hissəsində sinəsinə yapışmış formada onun qolları təsvir olunmuş və hər iki qolları qurşağına basılmış, lakin sol əli sağ ələ nisbətən bir az aşağıya dartılmış formadadır.Daş heykəlin gövdə hissəsi onun bədəninin digər hissəslərinə nisbətdə azca enli olması onun qadın olmasına işarə verir. Sonra isə onun qurşaq hissəsində kəsişmə formasında iki kant təsviri var.*Şəkil. Daş heykəl.*

**13.İnsan başının daş heykəli**(Miki kəndi).Daş heykəl yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsidir və abidə Astara rayonunun Miki kəndinin “Asbə hi” adlı ərazisində yerləşir. Abidənin invertar nömrəsi 6107,sistem kodu isə AJA005909-dur.



**14.Yəhər formalı daş fiqur** (Miki kəndi).Yəhər formalı daş fiqur yerli əhəmiyyətli Xalq daş-heykəltəraşlıq abidəsidir və Astara rayonunun Miki kəndi ərazisində yerləşir.Abidənin invertar nömrəsi 6108, sistem kodu isə AJA005910-dur. *Şəkil.Yəhər formalı daş.*



**15.İlya Kaverinin büstü**(Astara şəh.).Bu abidə kompleksi 1910-cu -ci ildə Astara şəhərində , Sovet İttifaqı Qəhrəmanı İlya Ananyeviç Kaverinin şərəfinə ucaldılmışdır.İlya Kaverin İkinci Dünya müharibəsində Ukrayna cəbhəsində tançı kimi vuruşmuş və çoxlu hitlerçi qıraraq igidliklər göstərmişdir.İlya Kaverin Alman faşistləri tərəfindən iğal edilmiş Ukraynanın paytaxtı Kiyev şəhəri uğrunda vuruşaraq onun azad edilməsində iştirak etmişdir.O döyüşlərin birində şücaət göstərərək 12 ədəd “Tiger” adı ilə məşhur olan alman tanqını məhv etmişdir.O,Kiyevin azad edilmısi uörunda göstərdiyi şücaətlərə görə 10 yanvar 1944-cü ildə Sovet İttifqı Qəhrəmanı adına layiq görülmüş və “Lenin ordeni” ilə təltif edilmişdir.İlya Kaverin bunda həvəslənərək daha da irəli getmiş və Qərbi Ukrayna və Polşa ərazilərində gedən döyüşlərdə iştirak edərək Berlinə hücuma keçən Sovet ordu sıraları ilə irəli getmişdir.O müharibədən sağ-salamat qayıtmış və Astarada sovxozda çalışmışdır.İlya Kaverin 19 noyabr 1963 –cü ildə vəfat etmiş və

elə Astara şəhərində də dəfn edilmişdir. Onun vəfaatından sonra 2000-ci ildə Astara şəhərindəki “Qəhrəmanlar parkı”nda onun da büstü qoyulmuşdur.*Şəkil.İlya Kareninin büstü.*



**16.Mirzə Cəbiyevin büstü**(Hamoşam kəndi).Bu abidə kompleksi 2000-ci ildə Astara rayonunun Hamoşam kəndində Sovet İttifaqı Qəhrəmanı Mirzə Cəbiyevin şərəfinə qoyuluşdur.Mirzə Ağamurad oğlu Cəbiyev 22 fevral 1925 –ci ildə Astara rayonunun Hamoşam kəndində anadan olmuşdur.1943-cü ildə həqiqi-hərbi xidmətə çağrılmış və Sovet ordu sıralarına qatılmışdır.O,İkinci Dünya müharibəsi dövründə Belorus, Litva və Poşaq cəbhələrində alman-faşistlərinə qoşulmuşdur.O,Sovet ordu sıralarında rəşadətlə vuruşaraq Berlinə qədər gedib çıxmışdır.1945-ci il aprelin 6-da Geniqsberq şəhəri ətrafında döyüşlərdə baş leytenant kimi komandiri olduğu bölmənin önündə kanalı keçərək 5 Fortu zəbt etmiş və qələbə bayrağını sancmışdır.Bu döyüşdə o ağır yaralanmışdır.Mirzə Cəbiyev Göniqsberqin alınması zamanı göstərdiyi rəşadətə görə 19 aprel 1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş V.İ,Lenin ordeni ilə təltif olunmuşdr.Mirzə Cəbiyev müharibədən kapitan rütbəsi ilə qayıdaraq elı Astarada da işləmişdir.O, 10 fevral 1978 –ci ildə Bakı şəhərində vəfat etmiş və onun nəşi qış ayı olduğundan Hamoşama aparılmamış və elə Astara şəhərindəcə dəfn edilmişdir.Lkin yay ayında onun doğmalarının səyi nəticəsində onun nəşi qəbirdən çıxarılaraq onun doğma Hamoşam kəndinə aparılaraq elə ordaca dəfn olunmuşdur.2000-ci ildə Astara şəhər

Qəhrəmanlar Parkında və eləcədə Hamoşam kəndind büstü qoyulmuşdur.*Şəkil.Mirzə Cəbiyevin büstü.*

**17.Nizə tutmuş atlının təsviri ilə qəbir daşı** (Utey kəndi).Bu qəbir daşı Xalq daş-heykəltəraşlıq abidələrinə daxildir və Astara rayonunun Utey kəndi ərazisində yerləşir və abidənin invertar nömrəsi 6109,sistem kodu isə AJA005911-dir və hal-hazırda mövcud deyil.



**18.Nizami Gəncəvinin abidəsi** (Astara şəhəri).Dahi şair Nizami Gəncəvinin abidə kompleksi yerli əhəmiyyətli Bağ - park, monumental və xatirə abidəsir və Astara şəhərində,Nizami küçəsi 46-dayerləşir.Abidə 1960-cı ildə tikilmişdir.Nizami Gəncəvi abidəsinin invertar nömrəsi 5618, sistem kodu isə AJA005421-dir. *Şəkil. N.Gəncəvi abidəsi.*



**19.Polad Həşimovun büstü.** Polad İsmayıl oğlu Həşimov 1975-ci ildə Qəbələ rayonunun Vəndam qəsəbəsində kasıb ailədə anadan olmuşdur.1992-ci ildə Sumqayıt şəhər 34 aylı tam orta məktəbi, 1995-ci ildə H.Əliyev adına Ali Hrbi Məktəbi,2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirmişdir.2020-ci ilin iyulun 16-da baş verən Tovuz döyüşləri zamanı 3-cü Ordu Korpusunun Qərargah rəisi, general-mayor Polad Həşimov iyulun 14-də döyüş zamanı

qəhrəmancasına şəhid olmuşdur.Şəhid Polad Həşimovun büstü Astara rayonunun asxanəkəran kəndində yerləşir.Polad Həşimovun büstü 2021-ci ilin avqust ayında Asxanəkəran kənd sakini Ceyhun Fərhadovun şəxsi vəsaiti hesabına qoyulmuşdur və onun hündürlüyü 2 metrdir.*Şəkil.Polad Həşimovun büstü*



**20.Pəncəli Teymurovun büstü.** Pəncəli Nurməmməd oğlu Teymurov 24 mart 1991-ci Ildə Astara rayonunun Azəru kəndində dünyaya gəlmişdir.O, 1998-ci ildə Asxanəkəran kənd orta məktəbini bitirmiş və 1999-cu ildə həəqiqi-hərbi xidmətə çağrılmıdşr.O, hərbi xidmətini uğurla yrütmüş və təcrübəli kəşşfiyyatçı olmuşdur.Hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı – desant taborunda davam etdirmiş və 17 il Azərbaycan Ordusunda şərəflə xidmət etmişdir.Gizir Pəncəli Teymurov Azərbaycanın hərbi tarixinə qızızl hərflərlə həkk olunmuş Aprel döyüşlərində (2 aprel 2016) Tərtər istiqamətində döyüşmüş,Ağdərə rayonunun Talış kəndi yaxınlığındakı yüksəkliklərinin alınmasında qəhrəmanlıq göstərərək aprelin 3-də qəhrəmancasına həlak olmuşdur.O, aprel ayının 11-də elə doğulduğu Azarü kəndində dəfn edilmişdir.O, "igidliyə görə", "Vətən uğrunda" medallarla təltif edilmişdir.Beləki şəhid gizir Pəncəli teymurov un Azarü kəndində ev müzeyi yaradılmış və 2022-ci ildə evinin qarşısında büstü qoyulmuşdur.*Şəkil.Pəncəli Teymurovun büstü.*



**21.Rəhmət Hətəmovun büstü(**Astara şəh.).Rəhmət Məmməd oğlu Hətəmov 1924-cü ildə Astara rayonunun Səncərədi kəndində anadan olmuşdur. O, İkinci Dünya müharibəsi dövründə Sovet ordu sıralarında Alman faşistlərinə qarşı mərdliklə vuruşuş və çoxlu şücaətlər göstərmişdir.O, göstərdiyi mərdlik və şücaətlərinə görə "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur.O, 14 fevral 1993-cü ildə fəvat etmiş və elə doğulduğu SƏncərədi kəndində dəfn olunmuşdur.Ölümündən sonra 2004-cü ildə Astara şəhər Qəhrəmanlar Parkında onun büstü qoyulmuşdur.*Şəkil.Nəhmət Hətəmovun büstü.*



**22.Sım Mezolit daşüstü rəsmləri.**Sım mezolit daşüstü rəsmləri ölkə əhəmiyyətli arxeoloji abidədir və Astara rayonunu Sım kəndi ərazisində yerləşir.Abidənin tarixi məlum deyil,lakin onun üzərindəki daşüstü rəsmlər Qobusttan qayaüstü rəsmləri ilə eynilik təşkil etdiyindən bu daşüstü rəsmlərində Mezolit dövrünə aid olduğu sübut olunur.Bu daş üstündə Qobustanda olduğu kimi üzərində qədim insanların ov səhnələri, ovsunlar v, insan və heyvan təsvirləri var.*ŞəkilSım mezolit qayaüstü rəsmləri*

**23."Şir və balası" heykəli.**Bu heykəl kompleksi yerli əhəmiyyətli monumental abidədir və Lənkəran-Astara şose yolunun Pensər kəndi bərabərliyində ,yolun sol tərəfində yerləşir.

Bu ağ heykəl ağ rəngli,postament üstə qoyulmuş və hündürlüyü 3 metrdir.



**24.Xanlar Şəkərov Mirəli oğlunun büstü.**Şəkərov Xanlar Mirəli oğlu 26 iyul 1968-ci ildə Astara rayonunun Tüləgüvan kəndində kasıb bir ailədə anada olmuşdur.O, Orta təhsilini elə öz doğma kəndindəki orta məktəbdə almışdır.Ürəyi daima vətən eşqi ilə döyünən Xanlar öz ölkəsinə həmişə öz sədaqətli olmağını göstərirdi.SSRİ dağıldıqdan sonra bədnam qonşumuz ermənilərin torpaqlarımıza soxulması elan olunmamış müharibəyə gətirdi.Hamı kimi Xanlar da vətəninin dar günündə silaha sarılıb toerpaqlarımızın müdafiəsinə qalxıb döyüş bölfgəsinə yollandı.Xanlar Şəkərov cəbhənin müxtəlif istiqamətində düşmənə qarşı vuruşmuş və onun çoxlu canlı qüvvəsini məhv edərək xüsusi qəhrəmanlıq göstərmişdi.O,müharibədə könüllü iştirak edirdi.beləki, 1992-ci il Ağdərə rayonu ərazisində gedən döyüşlərin birində qəhrəmancasına şəhid olmuşdur.O öləndən sonra onun oxuduğu Orta məktəb onun adına verilmiş və adı əbədiləşdirimişdir.*Şəkil.Xanlar Şəkərovun büstü.*



**25.Türk əsgəri büstü.** Bu türk əsgəri büstü bağ-park monumental abidələrinə daxildir və Astara ərazisində yerləşir.*Şəkil.Türk əsgərinin büstü.*




**26.Təngərüd şəhidlər bulağı.**Təngərüd şhidlər bulağı Astara rayonunun Təngərüd kəndi ərazisində yerləşir. Astara rayonunun Təngərüd kəndində Birinci Qarabağ müharibəsinin şəhidi Mahir Xaliq oğlu Əhmədovun və 44 günlük Vətən müharibəsinin şəhidi Nurlan Əhliman oğlu Fərəməzovun adlarına ―Şəhidlər bulağı‖ abidə kompleksivaar.Bu abidə kompleksi 10 yanvar 2022-ci ildə yaradılıb. Bu abidə Təngərüd kəndindəki ―Baba Cəbrayıl‖ ziyarətgahında yerləşir və ziyarətə gələnlər hər iki şəhidin məzarı önünə gül dəstələri düzərək xatirələrini ehtiramla yad edib,onların ruhuna dualar oxuyurlar.*Şəkil.Şəhidlər bulağı.*




**27.Toradi şəhidlər bulağı.**Toradi şəhidlər bulağı kompleksi Astara rayonunun Toradi kəndi ərazisində yerləşir.Belə ki, ―Şəhidlər bulağı‖nda Birinci və İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan, Toradidən olan beş qəhrəmanımızın adları əbədiləşdiriləcək.Qeyd edək ki, bulaq Hamoşam və Toradi ziyalılar qrupunun maliyyə dəstəyi ilə inşa olunub.Bu bulaq kompleksi 16 avqust 2022 –ci ildə tikilib. https://cenublu.az/aktual/astara-toradi-kandinda-sahidlar-bulagi insa-olunub/.*Şəkil.Toradi şəhidlər bulağı.*

**28.Yanvar şəhidləri kompleksi**(Şiyəkəran kəndi).Yanvar şəhidləri kompleksi (Şiyəkəran kəndi).Bu abidə kompleksi 20 yanvar şəhidlərinin şərəfinə kənd sakini Əsədulla Səmədov tərəfindən ucaldılmışdır.Bu abidə Astaralı müəllim tərəfindən 27 il əvvəl Şiyəkəran kəndində ucaldıb.Azərbaycanda 20 yanvar şəhidlərinə qoyulan ilk abidə Astara rayonundadır.Abidə Astara rayonunun Şiyəkəran kəndində, şəhidlərin dəfnindən heç bir ay ötməmiş ucaldılıb.Faciədən dərin sarsıntı keçirən kəndin coğrafiya müəllimi 35 yaşlı Ənnam Əmrayev öz şəxsi vəsaiti hesabına 20 yanvar şəhidlərinin xatirəsinə mərmərdən xatirə abidəsi inşa etdirib. Həmin vaxt belə bir xatirə lövhəsini kəndin mərkəzində ucaltmağa görə o vaxtkı hüquq mühafizə orqanları və təhlükəsizlk orqanları tərəfindən mütəmadi hədə və qorxulara məruz qalan kasıb kənd müəllimi heç nədən qorxmayaraq 20 yanvar şəhidlərinin 40 mərasimini həmin abidənin önündə keçirməyə nail olub.Keçirdiyi sarsıntıdan,20 yanvar faciəsindən az sonra dünyasını dəyişən 35 yaşlı kənd müəllimi bu gün aramızda olmasa da, min zəhmətlə ərsəyə gətirdiyi xatirə lövhəsi bu gün də kəndin mərkəzində, mədəniyyət evinin qarşısında ucalır.Günahsız qurbanlara əbədi ehtiram kimi. (http://www.istipress.com/hadise/19-01-2017/azerbaycanda-20-yanvar-sehidlerine-qoyulan-ilk-abide-fotolar).Möhtəşəm abidə kompleksi 20 yanvar şəhidlərinin şərəfinə kənd sakini Əsədulla Səmədov tərəfindən ucaldılmışdır.*Şəkil.20 yanvar şəhidlərinin xatirə kompleksi.*







**29.Qanlı Yanvar şəhidləri abidə kompleksi.**Qanlı Yanvar şəhidləri abidə kompleksi Astara şəhərində yerləşir. Qanlı Yanvar faciəsi törədilən günlərdə ulu öndər Heydər Əliyev heç bir təzyiq və təqibdən çəkinməyərək, özünün və doğmalarının həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi, bu faciəyə səssiz qalmadı və kəskin bəyanat verdi.Bu, xalqının başına gətirilən dəhşətli müsibətlərdən hiddətlənmiş bir tarixi şəxsiyyətin, siyasi xadimin Azərbaycan həqiqətləri ilə dünyanı silkələyən mərd, mübariz, böyük vətəndaş çağırışı idi. 1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, mübarizə əzmini qıra bilmədi.Diqqətə çatdırılıb ki, həmin müdhiş qış gecəsində imperiya əsgərlərinin güllәsinə Aqşin Əliyev Astara tarixi-memarlıq və arxeoloji abidələri 144 tuş gələnlərdən ikisi astaralı idi. Bunlar rayonun Balaca Şahağac kənd sakini Əliyev Çingiz Mirzəhüseyn oğlu və Səlivə kənd sakini Əsgərov Novruz Faiq oğludur.*Şəkil Qanlı Yanvar qurbanlarının abidə kompleksi*



**30.Yalçın Nəsirovun büstü.**Yalçın Canhəsən oğlu Nəsirov 23 yanvar 1976-cı ildə Astara rayonunun Sərək kədndə anadan olmuşdur.O, 1992-ci ldə Sərək kənd orta məktəbini bitirmişdir. 1992-ci ildə həqiqi-hərbi xidmətə çağırılmışdır.O, dövlət çevrilişinə cəhd edən dəstənin zərərsizləşdirilməsi zamanı yaralanmış və bir neçə gündən sonra martın 24 –də Bakıda , Sabunçu xəstəxanasında vəfat

etmişdir.Ölümündən sonra onu Astara rayonunun Sərək kəndində dəfn etmişlər.Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Yalçın Canhəsən oğlu Nəsirov ölümündən sonra Azərbaycan Milli Qəhrəmanı fəxri adına layiq görülmüşdür.1995-ci ildə təhsil aldığı Sərək kənd orta məktəbi onun adına verilərək əbədiləşdirilmişdir.2000-ci ldə Astara şəhər Qəhrəmanlar Parında onun büstü qoyulmuşdur.*Şəkil.Yalçın Nəsirovun büstü.*



**31.Ziya Bünyadovun büstü**(Astara şəh.).Bu abidə kompleksi Astara şəhərinin Qəhrəmanlar Xiyabanında 1995-ci ildə Sovet İttifaqı Qəhrəmanı, Akademik Ziya Bünyadovun şərəfinə ucaldılmışdı.Akademik Ziya Musa oğu Bünyadov 24 dekabr 1924-cü ildə Astara şəhərində anadan olmuşdur.O, 1939-cu ildə orta məktəbi, 1941-ci ldə leytenent rütbəsi ilə Bakı Piyadalar Məktəbini, 1950-ci ildə Moskva Şərqşünaslıq İnstitutunun aspiranturasını bitirmişdir.Akademik Ziya Bünyadov İkinci Dünya müharibəsi dövründə Sovet ordu sıralarına qatılmı və Bessarabiya(Moldova),Ukrayna, Belorusiya,Polşa uğrunda gedən döyüşlərdə yaxından iştirak etmişdir.O, Plitsa şəhəri uğruna gedən döyüşlərdə 27 fevral 1945-ci ildə Sovet İttifaq Qəhrəmanı fəxri adına layiq görümüş və Lenin ordeni ilə təltif edilmişdir.O,1954 –cü ildə "İmperializm Afrikada " mövzusunda namizədlik irəli sürmüş, 1964 –cü ildə isə "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda doktorluq disertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsini almışdır.Göstərdiyi bu xidmətlərə görə ona professor elmia adı verilmişdir.1967-ci ildə Azərbaycan Elmlər

Akademiyasının müxbir üzvü,1976-cı ildən həqiqi üzvü seçilmişdir.O,"Azərabaycan Atabəylər dövləti.1136-1225-ci illər"(1978) kitabına görə 1980-cı ildə Azərbaycan SSR Dövlət Mükafatı laureatı adına layiq görülmüş, 1982-ci ildə Əməkdar Elm xadimi adını almışdır.Akademik Ziya Bünyadov AMEA-nın Şərşünaslıq İnstitutunun(1981-1997-ciillərdə) direktoru, 1990-1992-ci illərdə AMEA-nın vitse prezidenti vəzifəsində çalışmışdır.1995-ci ildə Parlament seçkilərindı Milli Məclisin deputatı seçilmişdir.1997-ci ldə yaşadığı binanın qarşısında sui-qəsd nəticəsində öldürülmüşdür.Ölümündən sonra onu Bakıda Fəxri xiyabanda dəfn etmişlər.1997-ci ildə Astara şəhər Qəhrəmanlar Parkında büstü qoyulmuşdur.*Şəkil.Ziya Bünyadovun büstü.*



**32.Heydər Əliyevin büstü.**Heydər Əliyevin büstü Astara rayonunun Kijəbə qəsəbəsində yerləşir. Xalqımızın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsinə astaralılar da daim hörmət və ehtiram bəsləyirlər.Ulu Öndərin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar Mayın 9-da Astara rayonunun Kijəbə qəsəbəsində ümummilli lider Heydər Əliyevin adına salınmış mədəniyyət və istirahət parkının və Ulu Öndərin abidəsinin açılışı olmuşdur.Yüzlərlə qəsəbə sakini və rayon ictimaiyyətinin toplaşdığı tədbirdə icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev Ulu Öndər Heydər Əliyevin abidəsinin açılışını etmiş, önünə tər gül dəstələri qoymuşdur. Sonra icra hakimiyyəti aparatının məsul işçiləri, hüquq mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri abidəni ziyarət etmişlər.Qəsəbə sakini ağsaqqal

Nəsrəddin Teymurov, Əminə Həsənova, Əməkdar müəllim Azər Kişiyev tədbirdə çıxış edərək ulu öndərlə bağlı xatirələrini söyləmişlər.Qeyd olunmuşdur ki, Azərbaycana hakimiyyəti illərində Heydər Əliyev 11 dəfə Astarada,o cümlədən 8 dəfə Kijəbə qəsəbəsində olmuş,əməkçilərlə görüşərək səmimi söhbətlər etmiş,qəsəbənin inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirərək əhalinin rifah halının yaxşılaşması üçün böyük işlər görmüşdür.*Şəkil.Heydər Əliyevin büstü.*



**33.Heydər Əliyevin abidə kompleksi.** Ümummilli Liderimiz Heydər Əlirza oğlu Əliyevin abidə kompleksi Astara şəhər mərkəzindəki parkda yerləşir. Prezident İlham Əliyev respublikamızın cənub bölgəsinə səfəri çərçivəsində Astara rayonunda olmuşdur.Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzindəki Heydər parkında ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.*Şəkil.H.Əliyevin heykəli*



**34.”Zəfər güşəsi” abidə kompleksi.**”Zəfər güşəsi‖ abidə kompleksi Astara rayonunun Səncərədi kəndi ərazisində yerləşir. min nəfər əhalinin yaşadığı, 6 kəndi əhatə edən Səncərədi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi birinci Qarabağ müharibəsində 5, ikinci Qarabağ müharibəsində 12 nəfər şəhid vermişdir.Bu xatirə kompleksi kənd ziyalıları və fəal gənclərin təşəbbüsü, imkanlı iş adamlarının maddi dəstəyi ilə tikilmişdir. Belə ki, qəhrəman

oğullarımız birinci Qarabağ müharibəsində Vətənin müdafiəsinə qalxdılar. İkinci Qarabağ müharibəsində isə qəhrəmanlıqla döyüşərək düşməni darmadağın etməklə qələbəni təmin etdilər.Onlar cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciətlər edərək hər bir çağırışına hər an hazır olduqlarını söyləməklə, birlik nümayiş etdirdilər.( http://astara-ih.gov.az/az/news/711.htm).*Şəkil.”Zəfər güşəsi” abidə kompleksi*

## 13. Köhnə binalar (5 ədəd)



**1.Tacir evi**(Astara şəh).Bu tacir evi yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara şəhəri ərazisində yerləşir. Xalq arasında “tacir evi” kimi adlandırılır. *Şəkil. Tacir evi.*




**2.Mirzə Əhməd Xudaverdi oğlunun evi**(Pensər kəndi).Bu ev kompleksi yerli əhəmiyyətli tikilidir və Astara rayonunun Pensər çayının sahilində yerləşir. Bu ev müemarlıq üsubu cəhətdən gözəl sayıla bilər. Evin sahibi Mirzə Əhmıd bəy Xudaverdioğlu Talış xanı Mir Əhmə xanın mirzəsi olmuş və eyni amanda “Əxbarnam” kitabının müəllifidir.Ev çiy kərpicdən tikilmiş və Mirzə Əhmədin yazıb-yaradığı otaq eyni ilə qalmışdır. Bu evin dam örtüyü qırmızı kirəmitdən –sualdan örtülmüşdür və evin içərisindki divarlard

xüsusi taxçalar, paltar asmaq,qab-qacaq yığmaq üçün xüsusi er düzəldilmişdir. Bu ev kompleksində indi də Mirzə Əhmdə aid mis əşyalar, saxsı çölmək saxlanılır.Evin içində soba üçün yer də düzəldilib və pəncərələrin muhafizəsi üçün onların qabağında xsüusi kiçik qapılar bərkidilib.Divar da həmçinin sandıq qoymaq üçün yer düzəldilmişdir.*Şəkil.Mirzə Əhməd Xudaverdi oğlunun evi.*



**3.Orta məktəb binası**(Pensər kəndi).Orta məktəb binası yerli əhəmiyyətli memarlıq abidəsidir. Binanın tikilmə tarixi 1912-ci ilə təsadüf edir.Orta məktəb binası Astara rayonunun Pensər kəndindi ərazisində yerləşir.Bir zamanlar burada Rus-Tatar məktəbi yerləşmişdir.Abidənin sistem kodu 4102, sistem kodu isə AJA003901-dir. *Şəkil.Orta məktəb binası.*



**4.Yaşayış evi** (Ərçivan kəndi). Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Ərçivan kəndi ərazisində yerləşir.Yaşayış yerinin yaranma tarixi 1900-cu ilə təsadüf edir.Abidənin invertar nömrəsi 4092, sistem kodu isə AJA003890-dı.*Şəkil, Yaşayış evi.*



**5.Yaşayış evi(**Pensər kəndi). Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Pensər kəndi ərazisində yerləşir.Yaşayış yerinin yaranma tarixi 1878-ci ilə təsadüf edir.Abidənin invertar nömrəsi 4098, sistem kodu isə AJA003891-dır. *Şəkil. Yaşayış evi*.

**Tacir evi**.(Astara şəh.)Bu tacir evi yerli əhəmiyyətli memarlıq abidəsidir. Bu abidə Astara şəhəri ərazisində yerləşir. Xalq arasında "Tacir evi" kimi tanınır.

## 14. Ləmlər (21 ədəd)

Cənub bölgəsinin, xüsusi ilə Xəzər dənizi ətrafındakı rayonlarda inşa edilmiş Ləmlər nadir arxitektura nümunəsi olmaqla diqqət cəlb edir. Ləm( ləm yay istirahət evinə deyilir) əsasən Astara, Lənkəran və Masallı rayonlarının ərazisində tikilən nadir arxitektura nümunəsidir.Bu tip tikililərin XIX əsrin əvvəllərində,XX əsrd inşa olunduqları qeyd olunur.Cənub bölgəsinin Lerik,Yardımlı,Cəlilabad,Biləsuvar rayonlarında və Azərbaycanın digər raonlarında inşa edilməmiş və o ərazislər üçün ümumiyyətlə xas deyil. Ləmin özəllikləri: Binövrəsi və ətrafı qırmızı bişmiş kərpiclə hörülür,damı qırmızı kirəmitlə(Sual) örtülür, Onun dirəkləri və dyaqları ağacdan olmaqla biri-birinə keçirmə üsulu ilə mismarsız bərkidilir. Evin sahibi qonaqları yay aylarında əsasən ləmdə qonaq edərək çay ikram edir.Yay aylarında ləmdə yatmaq daha rahatdır,çünki bura həm sərin olur, həm də ağcaqanada fəaliyyət imkanı vermir və bu səbəbdən də onun ətrafı tənziflə(cuna) örtülür . XIX əsrdə

Astaradakı ləmlərin tikilməsində Pensər kənd sakini usta Əlinin rolu olması barədə məlumat var.(bax yenə orda.səh.19)



**1.Ləm**(Ərçivan qəsəbəsi).Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Ərçivan qəsəbəsi ərazisində yerləşir. Ləmin tikilmə tarixi 1906-cı ilə təsadüf edir. Bu ləm eyni zamanda "Ləm" istirahət mərkəzi də adlanır, çünki, 1963-1965-ci ildə burada "Ulduz" bədii filmi çəkilmişdir. Bu ləmin 110 yaşı var və "Ulduz" filimdəki dillər əzbəri olan Məhəmmdlə və Züleyxanın fim səhnəsi məhz bu ləmdə çəkilmişdir.Ləm özü hündürlüyü 1,5 metr olan dörd ədəd qırmızı bişmiş kərpic sütunlar üzərində tikilmiş və onun üzərində də hündürlüyü 2 metr olan dörd ədəd qırmızı bişmiş kərpic sütunlar üzərində birinci mərtəbə qurulmuşdur.Ləm əsasən düzbucaqlı formaya malikdir.Birinci mərtəbənin döşəməsi və tavanı ağac materialından dzəldilmiş və ləmin kənarları xüsusi yan-dəstək üslubuna bənzər fomada haçalı–xırda çubuqlardan zolaqlar düzəldilmişdir.Ləmin ikinci mərtəbəsində isə heç bir daş sütun yoxdur və onu isə 20 ədəd dar ölçüdə ağac sütunlar əvəz edir və ətrafı da ağac dəstəklərlə bərkidilmişdir. Ləmin damı qıırmızı kirəmitlə işlənmişdir. Bundan əlavə ləmin yerdən birinci mərtəbəyə bir, birinci mərtəbədən ikincisinə də bir taxta pilləkən var və onların birində altı, ikincisində isə 8 pillə var. Onun Yerli əhalinin yay yaşayış evi olan tikili indi tarixi əhəmiyyətli abidə kimi dövlət tərəfindən qorunur. Bu ləm Ərçivan qəsəbə sakini Əsədulla Musayevin həyətində yerləşir. Ərçivan ləmi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1906-cı ilə aid yerli

əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır. Abidənin invertar nömrəsi 4091,sistem kodu isəAJA003889-dur.*Şəkil. Ərçivan ləmi.*



**2.Ləm**(Şiyəkəran kəndi).Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Şiyəkəran kəndi ərazisində yerləşir.Ləmin tikilmə tarixi 1890-cı ilə təsadüf edir və bu ləm kənd sakini Mirdadaş Əliyevin həyətində yerləşir.Bu ləm Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1890-cı ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4093,sistem kodu isə AJA003891 – dir.*Şəkil.Kokolos ləmi.Dadaşın həyətində*



**3.Ləm**(Şiyəkəran kəndi).Bu ləm yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Şiyəkəran kəndi ərazisində yerləşir. Ləmin tikilmə tarixi 1890-cı ilə təsadüf edir. Abidənin invertar nömrəsi 4094, sistem kodu isə AJA003892-dir və kənd sakini Şakir Mamanf oğlu Məmmədovun həyətində yerləşir və Manaf ləmi kimi də tanınır. Bu ləm Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1890-cı ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır. *Şəkil.Şiyəkəran ləmi.*

**4.Ləm**(Kakalos kəndi).Bu ləm yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Kakalos kəndi ərazisində yerləşir. Abidənin tikilmə tarixi 1900-cu ilə təsadüf edir.Bu ləm Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1900-cu ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır. Abidənin invertar nömrəsi 4095, sistem kodu isə AJA003893-dür və hal-hazırda mövcud deyil.



**5.Ləm(**Şahağac kəndi). Bu ləmyerli əhəmiyyətli memarlıq abidəsidir vəAstara rayonunun Şahağac kəndi ərazisində yerləşir. Abidənin tikilmə tarixi 1890-cı ilə təsadüf edir. Abidənin invertar nömrəsi 4096, sistem kodu isə AJA003894-dür Bu ləm kənd sakini Yaqub Ərəbovun həyətində olmuşdur və hal-hazırda mövcud deyil. Bu ləm Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1890-cı ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.*Şəkil.Şahağac ləmi.*



**6.Ləm** (Şahağac kəndi).Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Şahağac kəndi ərazisində yerləşir. Bu ləm Astara rayon Şahağac kənd sakini Yaqub Ərəbovun həyətində yerləşir və birmərtəbəlidir.Bu qədim ləm birmərtəbəlidir və bu da bu ləmi digər ikimərtəbəli ləmlərdən ciddi

surətdə fərqləndirir.Ləmin dam örtüyü əvvəllər ənənəvi olaraq kirəmitdən olsa da sonradan o sökülərək dəmir dam örtüyü ilə əvəz olunmuşdur. Abidə tikilmə tarixi 1892-ci ilə təsadüf edir.Bu lə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarına əsasən 1892-ci ilə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.Abidənin invertar nömrəsi 4097, sistem kodu isə AJA003895-dir.*Şəkil.Şahağac ləmi.*

**7.Yaşayış evi və ləm**(Pensər kəndi).Yerli əhəmiyyətli memarlıq abidəsidir və Astara rayonunun Pensər kəndi ərazisində yerləşir. Abidə yaranma tarixi 1878-ci ilə təsadüf edir. Abidənin invertar nömrəsi 4098, sistem kodu isə AJA003896-dır və bu ləm Pensər kənd sakini Nəzakət Məmmədovanın həyətində yerləşmişdir



